# NAĞIL BUKETİ




**GƏNCLİK**

**BAKI-1984**

## İPƏK NƏNƏ

Biri var idi, biri yox idi, Şirinbala adlı qaraqaş, qaragöz, baxışı, hərəkəti məzəli, oğlanların ən gözəli bir oğlan var idi. Başqa uşaqlar kimi onun da nənəsi var idi. Nənə, nə nənə? Bəstəboy, ağappaq pambıq kimi, gülərüzlü, şirindilli. Özü, sözü ipək, adı da İpək idi.

İpək nənə dünyagörmüş qarılardan idi. Çoxlu söz-söhbət, nağıl-rəvayət bilirdi. Yatmaq vaxtı çatanda onlardan birini danışıb bal kimi şirin nəvəsini xumarlandırardı. Şirinbala da nənənin nağıl və söhbətinə qulaq asa-asa şirin yuxuya gedərdi. Bu, nənə ilə nəvə arasında adət olmuşdu.

Şirinbala bir dəfə hardansa, kimdənsə eşitmişdi ki, keçi yaman lovğa, həm də öyünən olur. Odur ki, nənə adəti üzrə nağıl-söhbətə başlamamış dedi:

— Nənəcan, keçi nə pislik etmişdir ki, ona lovğa deyirlər?

— Bu çox qədim rəvayətdir, mənim balam, -deyə İpək nənə sözə başladı.

— Bunu mən babamdan, babam da öz babasından eşitmişdir. Madam ki səbəbini öyrənmək istəyirsən, onda danışım, qulaq as.

Şirinbala özünə nənəsinin yanında yer elədi. Çiynini nənəsinin böyrünə söykəyib dirsəkləndi. Nənə nəvənin qara saçlarını oxşayıb dedi:

— Belə söyləyirlər ki, mənim balam, çox qədimlərdə bir keçi varmış. Yaman dəcəlmiş. Qoyunla yola getmirmiş. Həmişə qoyunu ələ salıb deyirmiş: “Mən dağa-daşa dırmanıram, sən dırmanammırsan. Qayanın üstü ilə mən gedə bilirəm, amma sən gedəmmirsən. Mən həmişə əl çatmayan yerlərdə otlayıram, sənsə tapdaladığım yerlərin otunu yeyirsən. Yunun da ki, pırtlaşıqdır”.

Qoyun da çox sakit heyvan idi. Keçi ilə mübahisə etmək, ona baş qoşmaq istəmirdi. Keçi isə qoyundan əl çəkmirdi, elə hey sataşardı. Odur ki, bir gün qoyun tablamayıb sayaya şikayətləndi:

— Keçini görürsən, -dedi, -sakit otlamağa qoymur məni.

Saya qoyuna dedi:

— Get keçiyə de ki, özünü yığışdırsın. Qabaqdan yağı kimi qış gəlir.

— Qoyun da gedib dedi, nənəcan?

— Gedib dedi, mənim balam.

— Sonra keçi neylədi?

— Neynəyəcək, gözlərini qıyıb-qoyuna baxdı. Sonra nə düşünüb-daşındısa başını aşağı saldı. Bədənini azacıq dal ayaqları üzərinə yığıb yerindəcə iki dəfə hoppandı. Üzünü qoyuna tutub dedi:

— Gəlir, qoy gəlsin. Ondan qorxub-eliyən yoxdur. Bir də qış min dəfə gəlib, bu gəlişi də qoy min birinci olsun. Qışın dərdini sən çək, mənə nə var ki. Üstümə qar yağsa silkinərəm, qarlar toz kimi uçub hərəsi bir tərəfə dağılar. Sənin yunun pırtlaşıqdır. Nə qədər silkinsən qarları üstündən uçura bilməyəcəksən. Soyuqdan tir-tir əsəcəksən. -Sonra da bərk silkindi. Üstündəki tiftikləri ətrafa uçurtdu.

— Gördün necə uçurlar, elə bil lap quşdular, -deyib özünü təriflədi. -Sən özünü mənə tay tutma. Mənim tək olammazsan. Çəkil o tərəfə. Qarşımda dayanıb mehimi kəsmə. İndi bu saat o hündür təpəyə dırmanıb uzanacağam. Meh də vuracaq, sərinləyəcəm. Sən isə istidən bişəcəksən.

Keçi qaçıb qarşıdakı təpəyə dırmandı. Özünə yer düzəldib uzandı. Qoyunsa o biri qoyunların yanına getdi. Onlarla baş-başa verib yatdı.

Şirinbala soruşdu:

— Sonra qış gəldi, nənəcan?

— Gəldi, mənim balam, gəldi. Özü də necə gəldi...

— Bəs onda keçi neylədi?

— Neynəyəcək? Saya deyən oldu. Qış bərk düşdü. Gecə xeyli qar yağdı. İnadkar keçi sürüdən aralı yatdı. Səhər açıldı. Keçi qalxıb bərk silkindi. Qarlar üstündən ətrafa dağıldı.

— Gördün qoyun qardaş? -deyə keçi öyündü. -Üstümdə bir dənə də qar qalmadı.

Günorta qar dayandı. Bulud dağıldı. Gecə ayazıdı. Göydəki ulduzlar işım-işım işıldadı. Bərk şaxta düşdü. İliyə işləyən külək də bir tərəfdən qalxdı.

Sürüdən ayrı yatmış keçi gecəyarıyatan tabladı. Sonrasına dözəmmədi. Durub sürüyə yan aldı. Qoyunlara yazıq-yazıq:

— Əzizlərim, məni də içərinizə alın, -dedi.-Axı mən sizin qardaşınızam.

— Qoyunlar da keçini aralarına aldılar, nənəcan?

— Qoyunların keçiyə rəhmi gəldi. Ona aralarında yer verdilər.

Qoyunlardan biri:

— Külək hansı səmtdən əsir, keçi. qardaş?-deyə zarafatla xəbər aldı. Dişi-dişinə dəyən keçi:

— Soruşmayın, əzizlərim,- bir az da yaxına çəkilin, bədənim isinsin,-dedi.

Qoyunlar sıxlaşdılar. Biri yenə zarafatla keçidən xəbər aldı:

— Şaxta iynələrini hansı səmtdən batırır, keçi qardaş?

Saqqalı yarpaq tək əsən keçi dedi:

— Xəbər almayın, əzizlərim, sıxlaşın, qoyun, bədənim isinsin.

Qoyunlar yumşaq yunları ilə keçini örtdülər. Gecəni beləcə başa vurdular. Səhər gün çıxdı. Hava azacıq isindi. Keçi duran kimi qoyunlarla öcəşməyə başladı:

— Baxın, axşam buynuzumu çatladıbsız.

— Yalan deyirsən, buynuzun çatlamayıb,-deyə qoyunlar etirazlarını bildirdilər.

— Yox, çatlayıb; özü də gecə məni az qala boğmuşdunuz. Üstəlik ayaqlarım da xəstələnmişdir,-deyə keçi inadında durdu. Bax, xalq bu yerdə deyibdir: “Namərdə həyan olmaqdansa, mərdə arxa ol!”

— Keçi sonra qoyunlardan əl çəkdi, nənəcan?

— Niyə çəkmədi, əlbəttə ki, çəkdi.

— Necə əl çəkdi, nənəcan?

— Bu belə oldu, gözümün işığı. Günlərin bir günü qoyunlar öz aralarında söz qoydular ki, əgər keçi gəlib onlara sataşsa, yaxud onların yanında özünü bir də öysə, onu xəcil etsinlər.

Bu əhvalatdan çox keçmədi ki, keçi gəldi. Gələn kimi də:

— Ay kilkə yunlar, heç bilirsiniz bu gün saya mənə nə dedi? — Suala cavab almamış, -dedi ki:

Nənəm a xallı keçi,
Məməsi ballı keçi.
Uca qaya başında
Tutubdu yallı keçi.

Tərifi eşidən tək götürüldüm. Özümü verdim dərəyə. Tər otlardan, çiçəklərdən doyunca yedim. Qarnımı möhkəm doyurum. Bulaqdan da göz yaşı kimi dumduru, bal kimi şipşirin su içdim. Kefi kök, damağı çağ gəldim ki, acından baş-başa verib gövşəyənlərin halını xəbər alım.

Qoyunlardan biri kinayə ilə:

— Xoş gəlib səfa gətirdin. Ay bulağın gözündən su içib bizim halımızı sormağa gələn qotur keçi, -dedi.

— Mən qotur deyiləm.

— Qotur olmasaydın, "keçinin qoturu bulağın gözündən su içər" deməzlər.

— Keçi pərt oldu, nənəcan?

— Yamanca pərt oldu mənim balam. Nə cavab verəcəyini belə bilmədi. Elə bu vaxt başqa bir qoyun:

İynə-iynə,
Ucu düymə,
Bal ballıca,
Ballı keçi,
Şam ağacı
Şatır keçi,
Qoz ağacı

Qotur keçi. —

dedi. Qoyunlar qəhqəhə çəkib güldülər. Keçi gördü ki, pis yerdə yaxalanıbdır. Bir az oyan-bu yan eləsə, biabır olacaq, odur ki, dinmədi. Dilini qoydu dilçəyinə. Sonra da astaca sürüşüb aradan çıxdı.

Şnrinbala sevincək:

— Deməli, lovğa keçi məğlub oldu?

— Məğlub oldu, mənim balam, məğlub oldu.

— Qoyunlara daha sataşmadı ki?

— Yox, mənim balam, daha sataşmadı. Onların yanında özünü öyməyə bir daha cəsarət etmədi.

— Lap yaxşı oldu. Lovğa keçiyə belə lazımdır, -deyə Şirnnbala qoyunlara haqq qazandırdı.

## ATƏŞ ŞAH

Biri var idi, biri yox idi. Keçmiş zamanlarda Atəş adlı qəzəbli bir şah var idi. Bu şah çox güclü və rəhmsiz idi. Kimə, nəyə hücum etsəydi, hara düşsəydi, oranı odlayıb külə döndərərdi. Buna görə də canlıların hamısı ondan qorxardı. Təkcə Qaf dağında yaşayan Azər baba adlı nurani qoca ondan qorxmazdı. Dağda, daşda, meşədə alışan, qızışan Atəşi o tilsimləyib ram edərdi. Mağarasına gətirib ocaqlardı. Oğul-uşaqdan, nəvə-nəticədən növbə düzəldib Atəş şahın üstünə qoyardı ki, ona göz yetirsinlər, ondan faydalansınlar. Özünü qaraldıb sönməyə, yainki alovlanıb həddini aşmağa, həm də hiylə işlədib gözdən yayınmağa qoymasınlar.

Günlərin bir günündə, soyuq qış gecələrnnnn birində necə oldusa Atəş şah gözətçinin gözündən oğurlandı. Od atına minib qaçdı, Atəşin qaçdığını eşidən Azər baba qasidini yanına çağırıb dedi:

— Tez ol, atlan! Özünü meşə padşahına yetir. Bu gecə ocaqdan Atəş şahın oğurlanıb qaçdığını ona xəbər ver. De ki, sayıq olsun. Qoruqlarını

möhkəmləndirsin. Əlinə fürsət düşən Atəş şah ələlbət ilk zərbəni onun padşahlığına vuracaqdır. Ancaq qorxmasın. Möhkəm dayansın. Mən də yaraqlanıb köməyinə gəlirəm.

Qasid “baş üstə” deyib getdi.

Meşə padşahına xəbər çatan kimi vəzir-vəkilini, sərkərdə və məsləhətçilərini başına cəm edib tədbir görməyə başladı. Arxadakı qoşunlarını sərhədlərnnə yeritdi. Əli silah tutan sakinlərini səfərbərliyə aldı. Körpələri və qocaları təhlükəsiz yerlərə köçürtdürdü. Fillərini su ilə təchiz edib döyüşə hazır saxlatdırdı. Özü isə sular padşahına sifariş göndərib ondan kömək istədi. Sular padşahı dedi:

– Kömək etməyinə edərəm. Ancaq tək gücüm çatmaz. Mənə də Günəş şahın köməyi lazımdır. Ancaq o da mənə kömək etməz.

Meşə padşahı xəbər aldı:

– Niyə?

Sular padşahı dedi:

– Ona görə ki, Atəş şah vaxtı ilə Günəşin sərkərdəsi olmuşdur.

– Meşə padşahı dedi:

– Günəş şah xeyirxahdır. Köməksizlərin köməkçisidir. Bir də Atəş şah Günəşə xəyanət etmişdir. Onun səltənətinin qanunlarını pozub oradan qaçmışdır. Buna görə də Günəşin Atəşə qəzəbi tutmuşdur. Günəş şah Atəşi lənətləmişdir. Əlinə keçərsə, dərhal edam etdirəcəyinə and içmişdir.

Meşə padşahı günəş səltənətinə də xəbər göndərdi. Sular padşahına kömək etməyi ondan xahiş etdi. Günəş şah dedi:

– Sular padşahına kömək edərəm. Ordusunu qızıl oxlu qoşunlarımla oxlatdırıb buxara döndərərəm. Lakin iş bununla bitmir. Əsas məsələ havada bulud halında toplanmış qoşunu hərəkətə gətirməkdir. Bunu isə küləklər ölkəsinnn padşahı Yel babanın qanadlı atları edə bilər. Odur ki, Yel babadan xahiş etmək lazımdır ki, qanadlı atlarını buludlar sərkərdəsinin sərəncamına versin.

Meşə padşahı Yel babaya da sifariş göndərib ondan qanadlı atları istəməkdə olsun, biz də Atəşdən xəbər tutaq. Görək Azər babanın mağarasından qaçandan sonra nə etdi.

Atəş özünü dağılmış şahlığına yetirən kimi qıraqda-bucaqda, kol-kos arasında gizlənmiş gözlərini başına cəm edib dedi:

— Ey mənim sadiq nökərlərim! Biz hələ məğlub olmamışıq. Biz hələ yaşayırıq. Gərək necə olursa-olsun öz hökmranlığımızı geri qaytaraq. Təbiətə ağalıq edək. Bunun üçün ilk növbədə meşə səltənətini özümüzə tabe etməliyik. İlk zərbəni ona vurmalıyıq. Meşə hökmranlığını məğlub etsək, qarşımızda daha heç nə tab edə bilməz. Biz təbiətin ağası olarıq.

Qəzəblənmiş Atəş danışdığca güclə gözləri işaran gözlər yerlərindən:

— Doğrudur! Doğrudur! — deyirdilər.

Sözünə xitam verən Atəş dedi:

— İndi sözdən işə keçməliyik. Sonra üzünü alovlardan birinə tutub: — Tez özünlə beş-on göz və alov götürüb meşə sərhədinə get! Qarşınıza çıxan gözətçiləri tərksilah edib yandırın. Mən də qalan alov və gözlərlə arxanızca gəlirəm.

Kəşfiyyatçı alov beş-on köməkçisi ilə meşə sərhədinə gəldi. Sərhəddə zəif bir nöqtə tapdı. Mürgüləyən keşikçilərdən zirini tutub tərksilah etdi. Bunu Atəşə xəbər verdi. Atəş dərhal hücuma keçdi. Çox keçmədi ki, meşə sərhədində qızğın döyüş başlandı. Az vaxt içərisində alovlanmış Atəş qoşunları ilə xeyli irəlilədi. Qarşısına çıxan otu, kol-kosu, çör-çöpü yandırıb-yaxdı.

Günəş şah gördü ki, Atəş qızışıb hamıya meydan oxuyur, qarşısına çıxanları yandırıb-yaxır, odur ki, dərhal əmr verdi. Saysız-hesabsız şüalarını sular padşahının sərəncamına göndərdi. Su qoşunlarını buxarlandırıb havaya qaldırdı. Göydə su qoşunlarından bulud topaları yaratdı. Elə bu vaxt Yel babanın qanadlı atları özlərini yetirib onları hərəkətə gətirdilər.

Çox keçmədi ki, bulud topaları meşə məmləkətində döyüş gedən yerin üzərini dövrəyə aldılar. Sərkərdə Şimşəyin əmri eşidilən tək göy guruldadı.

Ağır, qara buludlardan su qoşunu yağış kimi Atəşin qoşunu üstünə səpələndi. Qızğın döyüş başlandı. Ancaq bu döyüşdə Atəşin qoşunu davam gətirə bilmədi. Qırılan qırıldı, ölən öldü, qalan da qara gülə-kömürə döndü. İşi belə görən Atəş şah aradan çıxmaq istədi. Özünü yetirən Azər baba:

— Hara qaçırsan, dayan! -dedi. Və bir tilsim oxuyub Atəşi ram elədi. Mağarasına gətirib yenidən ocaqladı.

İndi o vaxtdan Atəş şah Azər babanın nəvələrinin xidmətində dayanır, xeyir işlərdə onlara kömək edir.

## SEHRLİ KOL

Biri var idi, biri yox idi, qədim zamanlarda yoxsul bir kəndli var idi. Kəndli ömrü boyu pay torpaqda taxıl əkib-becərərdi. Külfətini bir qarın ac, bir qarın tox dolandırardı.

Bir yaz səhəri kəndli adəti üzrə əkin yerinə gəldi. Pay yerini şumladı, toxa ilə torpağını yumşaltdı, irilərini əli ilə ovdu, gətirdiyi bir xəlbir dəni torpağa səpib komasına döndü. Həmin gün kəndli o qədər işlədi ki, qüvvədən tamam düşdü. Azarladı. O azarlayan qırx gün, qırx gecə yatdı. Nə əkinə baxdı, nə biçinə getdi.

Gün gəlib o gün oldu ki, biçin başlandı. Kəndli gözünün ağı-qarası, aman-zaman oğlu Qüdrəti yanına çağırıb dedi:

— Qüdrət, bala, azar mənə aman vermir. Çətin ki ayağa bir də duram. Məndən sonra daxmamızın böyüyü sənsən. Biçinimizi sən görməlisən. İndi sünbüllər yəqin vağanıyıb tökülür. Mənim orağımı götür, get taxılımızı biç, döşə xırmana. Sonra da dəyənəklə döy. Sünbüllərdən çıxan dəni kürəklə sovur. Yığılan taxıldan keçənilki borclarımızı ver, alanını da çuvalımıza doldurub evimizə gətir.

— Xatircəm ol, atacan, necə buyurursan, elə də edərəm, — Deyə Qüdrət atasına təsəlli verdi. Sonra da oraq, kürək, dəyənək, bir az da yavan çörək

götürüb biçin yerinə gəldi. Zəmidə nə görsə yaxşıdır? Gördü ki, taxıl-zad nə gəzir? Taxıl yerinə yaxşıca alaq, qanqal baş alıb, odur e, qurşağacan qalxıb. Qüdrət məyus oldu. Oturub ağlamağa başladı. Bir də gördü uzaqdan ipək kimi ağ saqqalını yel tumarlayan bir qoca ona tərəf gəlir. Odur ki, giridi, yaylığı ilə göz yaşını sildi.

Qoca yaxınlaşıb Qüdrətdən xəbər aldı:

– Oğlum, nə səni belə qəhərləndirib? Niyə ağlamısan?

Qüdrət ayağa qalxdı. Qocaya ədəblə salam verdi. Zəmini göstərib dedi:

– Niyə də kədərlənməyim, niyə də ağlamayım, pir baba? Bu yazqabağı atam bu yerdə arpa əkmişdi. İndi gəlib görürəm ki, dən-zad nə gəzir. Zəmidə arpadan savayı nə desən bitibdi.

Pirani qoca zəmiyə göz gəzdirib gördü ki, Qüdrət doğru deyir. Zəmi alaq-qanqalla başdan-ayağa doludu. Ancaq onların içərisində bir-iki kol da var, bu kollar nə alaqdı, nə də qanqal. Qoza koludur, özü də sehrlisindən. Odur ki, Qüdrətə üz tutub dedi:

– Qəm eləmə, bala. Deyirlər torpaq mərhəmətli olur. Çəkilən zəhməti bəhərsiz qoymur. Sizin torpaq da o qədər alaq-qanqalın içərnsində bir-iki kol yetiribdi. Bu kol sən gördüyün gərəksiz kollardan deyil, bu kollar sehrli kollardı. Əlinə toxa götür, bala, həmin kollara yaxşı-yaxşı qulluq elə. Yan-yörəsinin alaqdan, qanqaldan təmizlə. Payız gələnə kimi zəhmətini çək. Gündə iin kərə, bir səhər, bir də axşamüstü suvar. Diblərinə də azacıq quş peyini tök. Gör gerisi nə olur.

Dünyagörmüş qoca bunu deyib yox oldu. Qüdrət bu işə mat qaldı. Nə edəcəyini, nə deyəcəyini bilmədi. Hannan-hana özünə gəlib dedi:

– Görünür, burada nəsə bir sirr var. Yoxsa qoca belə deməzdi. Bir də qoca düz deyir. Oturub ağlamaqdan, ah-uf eləməkdən nə çıxar? Durum, qoca deyən kollara qulluq eləyim. Bilmək olmaz, bəlkə bu kollar doğrudan da sehrlidir.

Qüdrət durdu ayağa. Toxanı aldı əlinə. Girdi zəmiyə. Alaqların, qanqalların başına bir oyun açdı, bir oyun açdı, gəl görəsən. Hamısını qırıb

tökdü bir böyrü üstə. Sonra da bir yerə yığdı, od vurub odladı. Tüstülərini göyə qaldırdı. Qaş qaralanacan sehrli kolların yan-yörəsini elədi ayna kimi tər- təmiz. Ayağını torpağa basanda rəddi düşdü.

Beləcə sehrli kollara Qüdrət nə az, nə də çox, düz payız yerə qədəm qoyanacan qulluq elədi. Diblərini yumşaltdı. Bir səhər, bir də axşamüstü suvardı. Kollar da elə bil buna bənd idi. Su zanbaqı kimi gün-gündən böyüyüb qol-budaq atdı. O qədər böyüyüb çoxaldı ki, axırda gəlib əkin yerini büsbütün tutdu.

Bir səhər də gələndə Qüdrət tarlada başqa bir aləm gördü. Gördü ki, qulluq elədiyi kolların budaqlarına lopa-lopa qar yağıb.

“Bu nədir? Məni qara basır, yoxsa zəmiyə doğrudan da qar yağıbdı? Elə isə bəs qar niyə təkcə zəmiyə yağıbdı? Heç nə anlamıram”, — deyə Qüdrət fikrə getdi. Sonra tam yəqinlik etmək üçün gözlərini ovuşdurub zəmiyə bir də baxdı. Gördü ki, qara-zad basıb-eləmir. Kol budaqlarının ucları lopa-lopa qardı ki, qardı.

– Bu nə işdi, başıma gəldi? Bu nə bədbəxtlik idi ki, məni tutdu? heyf çəkdiyim zəhmətə, — deyə Qüdrət kədərləndi.

Oturub gözünün qorasını sıxmaq istəyirdi ki, bir də gördü üzügülər həmin qoca əlində əsa saqqalını tumarlaya-tumarlaya budur e, ona sarı gəlir.

– Qüdrət, bala, nə duruxmusan? Nə donub qalmısan? Çəkdiyin zəhmətin bəhrəsini niyə yığmırsan?

Qüdrət istədi qocaya desin ki, məni ələ niyə salırsan? Ancaq demədi, özünə toxtaqlıq verdi. Əvvəlki kimi ayağa qalxdı. Ədəblə baş əyib qocaya dedi:

– Nəyi yığım? Qarı da yığarlarmı, ay pir baba?!

Qoca gördü ki, Qüdrət hələ bir şey anlamır, odur ki, gülə-gülə dedi:

– Ay pir olmuş, tarlada qar-zad nə gəzir? Onlar qozadırlar. Uclarındakı ağ lopalar da pambıq.

Qüdrət təəccüblə:

– Pambıq?!

– Bəli, mənim balam, pambıq!

– Pambıq nə olan şeydi, pir baba? Onu yığıb neynirlər?

Qoca əsasına söykənib aramla dedi:

– Pambıq, sənin mənim əynimizə geydiyimiz paltar, altımıza saldığımız döşək, üstümüzə örtdüyümüz yorğandır, oğlum. Pambıq çox qiymətli, həm də əvəzsiz bitkidir. O hər diyarda, hər yerdə bitməz. Bu özü bir xoşbəxtlikdir ki, o, bizim diyarda bitmişdir. Pambıq əkilən yerlərdə onu yığıb cəhrədə ip əyirirlər. Əyirilmiş ipdən də istənilən şey toxuyurlar. İndi bildin pambıq nə olan şeydir, oğlum?

– Bildim, pir baba, bildim.

– Elə isə oturma. Dur bir torba götür əlinə, pambığı yığ, apar ver nənənə əyirib sənə paltar, corab toxusun, gey əyninə.Artığını da bazara aparıb sat. Pul alıb ver ayın-oyuna.

– Yaxşı, pir baba, necə buyurursan, elə də edərəm.

– Bir də gələn əkinə çiyid saxlamağı yadından çıxarma, -deyib qoca yox oldu.

Qüdrət qocanın ardınca:

– Sağ ol, pir baba, mənə çox şey öyrətdin, —deyib girişdi işə. Köynəyini çıxartdı, boğazını qaytanla büzüb elədi torba. Sonra da özünü saldı qozalığa. Əlini qozaya atdı, yup-yumşaq pambıqlar Qüdrətin ovcunu oxşadı. Başladı lopa-lopa pambıqları bir-bir yığmağa. Yığdıqca da boşaltdı köynək-torbasına. Çox çəkmədi ki, köynək-torba da doldu. Qüdrət köynək-torbasını aparıb boşaltdı bir tərəfə. Sonra yenə girdi qozalığa. Başladı pambıqdan yığmağa. Yığdı, torba doldu, o aparıb boşaltdı kənara. Qüdrət pambıqdan o qədər yığdı ki, yığılan pambıq axırda oldu hündür bir təpə boyda.

Topladığı pambıq təpəsini Qüdrət düz yeddi gün-yeddi gecə daşıdı. komalarının qənşərinə. Sonra da bir tacir tapıb satdı ona. Pambığın puluna

çoxlu ayın-oyun aldı. Borclarını da qaytardı. Qalan pambıqdan nənəsi ip əyirib Qüdrətə gözəl, naxışlı köynək, corab toxudu.

O vaxtdan Qüdrət pambıqçılığı özünə peşə elədi. Bu peşəni o, oğluna, oğlu da nəvə-nəticəsinə, nəvə-nəticəsi də kötücəsinə öyrətdi.

# CUMBULU, UZUNBOY,
# ŞİŞMAN VƏ İTİGÖZ

Biri var idi, biri yox idi, bir Cumbulu var idi. Cumbulunun özündən böyük Qorxmaz adlı qardaşı da var idi. Qorxmaz doğrudan da qorxmaz idi. Həm boy-buxunlu, enlikürək, həm də yar-yaraşıqlı. Qüvvətli əlləri ilə toxasını yerə endirəndə torpağın bağrı yarılardı. Atdığı daşdan göydə uçan quşlar qorxusundan lələk salardı. Ancaq xeyirxahlıq edərdi, əlindən pislik gəlməzdi. Əməksevərliyinə görə el ağsaqqallarından tutmuş oba cavanlarına kimi hamı ona hörmət edərdi. Yaxşılığı unutmazdı. Yamanlığı bağışlamazdı. Cumbulunun qardaşı Qorxmaz bax belə comərdlərdən idi.

Qorxmazın bir düşməni var idi. Adına Varlıxan deyərdilər. Varlıxan çox rəhmsiz idi. Kəndlilərdən topladığı vergidən başqa onun payına düşən azacıq məhsulu da əlindən alırdı. Qorxmazın da bundan acığı gəlirdi. Odur ki, bir gün: «Torpağı əkən, onu zəhmətlə becərən biz, məhsulunu götürən Varlıxan» —dedi.

Xəbərçilər o saat bu sözü Varlıxana çatdırdılar. Dərhal Varlıxan beş on nəzarətçi göndərib Qorxmazı tutdurdu. Apartdırıb uzaq bir yerdə zindana saldırdı.

Aradan aylar, illər keçdi. Qorxmazın qardaşı Cumbulu böyüdü. Bir gün anasına:

— Daha böyümüşəm, gərək gedəm qardaşımı Varlıxanın əsarətindən qurtaram, — dedi.

— Ay bala, Varlıxana sən batammazsan. O çox güclüdür. Səni də tutub zindana salar. Getmə.

Cumbulu:

— Qorxma, anacan, Varlıxan mənə batammaz, —deyib anasını sakitləşdirdi. Özü də ayınnan-oyunnan götürüb yaraqlandı, anası ilə görüşüb yola düşdü. Dərələrdən yel kimi, təpələrdən sel kimi ötüb gəlib bir çəmənliyə çıxdı. Oturub dincini almaq istəyirdi ki, qəlbidən bir səs eşitdi:

— Ey, kimsən, nəçisən, hardan gəlib hara gedənsən?

— Cumbuluyam, —deyə Cumbulu dilləndi. —Obamızdan gəlirəm. Qardaşım Qorxmazı Varlıxanın zindanından qurtarmağa gedirəm.

— Tək gedirsən?

— Bəli.

— Varlıxanla mən də ədavətliyəm. Ondan intiqam almaq üçün çoxdandır ki, fürsət axtarırdım. Məni də özünlə apar. Sənə köməyim dəyər, — deyə qəfil səs dilləndi.

— Axı, sən kimsən?

— Uzunboyluyam. Dünyada məndən hündür adam yoxdur. İstəsən o qədər uzanaram ki ayağım yerdə olar, başım da buludlarda. Başını qaldırıb bir yuxarı bax.

Cumbulu yuxarıya baxdı. Başının üstə çox hündürboylu bir adam dayandığını gördü.

— Mənə necə kömək edə bilərsən? — deyə Cumbulu Uzunboydan xəbər aldı.

— Qarşıdakı qayanı görürsən? —deyə Uzunboy dilləndi.

— Görürəm, necə məgər?

— İstəyirsən durduğum yerdən tərpənmədən onun təpəsindən daş götürüb verim sənə.

«Hə» cavabını gözləmədən Uzunboy uzanmağa başladı. O qədər uzandı ki, ta gedib təpənin zirvəsinə çatdı. Əlini atıb bir daş parçası götürdü. Sonra da kiçilib əvvəlki həddinə düşdü. Daş parçasını Cumbulunun qarşısında yerə qoydu.

— İndi gördün nəyə qadirəm?

Cumbulu Uzunboyun məharətinə əhsən dedi. Onu özünə yoldaş elədi.

Cumbulu ilə Uzunbay üz qoydular getməyə, az, ya da çox getdilər, deyə bilmərəm, axırda gəlib bir gölün kənarına çıxdılar. Göl kənarında yekəqarın bir adam oturmuşdu. Uzunboy onu görcək sevindi. Cumbuluya dedi:

— Bu mənim Şişman qardaşımdır. Nə yaxşı oldu gördük. Gəl onu da özümüzlə aparaq. Bizə köməyi dəyər.

— Qardaşının əlindən nə gəlir?

— Qoy çağırım özü göstərsin.

Uzunboy Şişmanı Cumbulunun yanına çağırdı.

— Sənin əlindən nə gəlir? — deyə Cumbulu Şişmandan xəbər aldı.

Şişman dedi:

— İstədiyim vaxt istədiyim qədər şişə bilirəm.

— Şiş görək.

Uzunboy Cumbuluya o saat:

— Gəl tez qaçaq, — dedi. — Yoxsa məhv olarıq.

— Niyə?

— Səbəbini sonra bilərsən, — deyib Uzunboy Cumbulunu da götürüb oradan təhlükəsiz bir yerə qaçdı. Durub Şişmanın necə şişdiyinə tamaşa etməyə başladılar.

Uzunboygilin qaçıb gizləndiyini görən Şişman ağzını açdı. Qarşısındakı gölü birnəfəsə sormağa başladı. Elə sümürdü ki, göldə fırtına qopdu. Suyun hamısı Şişmanın qarnına doldu. Həmin saat Şişmanın qarnı dönüb təpə oldu. Şişman nəfəsini dərib boğuq bir səslə Cumbulugildən xəbər aldı:

— Yenə şişim, yoxsa kifayətdir?

Cumbulu:

— Kifayətdir! Nəyə qadir olduğunu gördüm. Di əvvəlki halına qayıt.

Şişman gölün suyunu sorduğu kimi geri üfürdü. Qarnındakı su gölə boşaldı. Şişman da dönüb oldu həmin adam. Cumbulu yaxına gəlib:

İşə yarayarsan. Səni də özümlə aparıram, —dedi.

Şişman Uzunboyun əlindən tutub Cumbulunun arxasına düşdü. Onlar az getdilər, çox getdilər, gəlib bir qayalığa çıxdılar. Qayanın dibində gözləri bağlı bir adam gördülər. Uzunboy Cumbuluya dedi:

— Burada dayanın, mən dərənin dibinə baxım. Görüm o kimdir.

Uzunboy dərənin dibinə əyildi. Sonra da sevincək dedi:



— İtigözdür, bizim kiçik qardaşımız. Gör Varlıxan onu nə kökə salıb.

Uzunboy İtigözü dərənin dibindən çıxartdı. Bağlı gözünü açdı. Üzünü Cumbuluya tutub dedi:

— İtigöz gizlədilmiş iynəni gözübağlı yeddi ağacdan asanlıqla tapır. Onun da bizə köməyi dəyər. Qoy İtigöz də bizimlə getsin.

— Yaxşı. Sən deyən olsun. İtigözü də özümüzlə aparaq, — deyə Cumbulu razı oldu.

İtigöz də Cumbulugilə. qoşuldu. Dörd dost əl-ələ verib Varlıxanın qəsrinə yollandı. Xan qəsrinə yeddi ağac qalmış İtigöz dedi:

— Qardaşlar, mən qəsrin yeddinci qatındakı zindanda bir nəfər görürəm.

— Yəqin qardaşım Qorxmazdır, —deyə Cumbulu dilləndi.

Uzunboy:

— Elə isə ayaq saxlayın. Daha qəsrə yaxınlaşmaq gərək deyil. Qorxmazı buradan da azad edə bilərik, —deyib uzanmağa başladı. Uzandıqca uzandı. Axırda gedib xan qəsrinin yeddinci qatına çatdı. Zindanın pəncərəsi önündə dayanıb içəri baxdı. Qorxmazı gördü. Əlini atıb zindan barmaqlığını qopartdı. Qorxmaz xəbər aldı:

— Adam, kimsən?

Uzunboy dedi:

— Uzunboyam. Qardaşın Cumbulunun dostu. Səni xilas etməyə gəlmişik. Xan keşikçiləri xəbər tutmamış dur qaçaq.

Qorxmaz vaxt itirmədən Uzunboyun çiyninə çıxdı. Uzunboy da dərhal kiçilməyə başladı. Elə gödəldi ki, gəlib əvvəlki həddinə düşdü. Bu zaman zindan keşikçiləri xəbər tutdu. O saat Varlıxana xəbər verdilər. Varlıxan dallarınca qoşun saldı. İtigöz arxadan qoşun gəldiyini xəbər verən kimi Şişman dedi:

— İndi meydan mənimdir. Siz dayanmadan yolunuza davam edin. Mən bu saat onların dərsini verərəm.

Cumbulu, Qorxmaz, Uzunboy, İtigöz yollarına davam etdilər. Şişman dayanıb qoşunu gözlədi. Qoşun yaxınlaşan kimi üfürməyə başladı. Bərk

tufan qopdu. Dağ-daş titrədi. Toz- torpaq, kol-kos bir anda havaya qalxdı. Yerlə göy bir-birinə qarışdı. Arxalarınca gələn qoşun da bu tufanda qeyb oldu. Şişman qoşundan əsər-əlamət görməyib dostlarının ardınca yüyürdü. Burada da nağılımız bitdi.

Göydən üç alma düşdü...

## ÇİL-ÇİL BEÇƏ

Biri var idi, biri yox idi, ucsuz-bucaqsız düzənlikdə bir Çöltoyuğu var idi. Bu Çöltoyuğunun özü kimi çil-çil üç balası var idi. Ana toyuq hər gün səhər tezdən yuvasından çıxıb balaları üçün yem dalınca gedərdi. Dəndən, otdan, güləşdən tapıb yorğun-arğın yuvasına dönərdi. Gətirdiyini bişirib-düşürüb deyə-gülə balaları ilə birlikdə yeyərdi.

Payız günlərinin birində Çöltoyuğu adi qayda üzrə səhər tezdən durur, yuvasından çıxıb yem dalınca gedəndo qonşusu Kirpi ilə rastlaşır. Kirpi Çöltoyuğundan xəbər alır:

– Bu soyuq, küləkli, yağışlı havada hara belə gedirsən, toyuq bacı?

Çöltoyuğu cavab verir:

– Evdə yeməyə bir şeyimiz yoxdur, Kirpi qardaş. Uşaqlar da acdır. Ağlayırlar. Məndən dən istəyirlər. Gedirəm görüm nə tapıram. Tapdığımı gətirib bişirim verim o dəcəllərə, bəlkə səslərini kəssinlər.

Kirpi:

– Bir az məndə yem var, verim, onunla bu günlüyə birtəhər ötüşün. Hava alılar, gedərsən, —deyir.

– Çox sağ ol, Kirpi qardaş, —deyə Çöltoyuğu razılığını bildirir. — Sənin də mənim kimi körpələrin var. Qoy onlar yesinlər. Mən gedib dən taparam.

– Gedirsən get, —deyə Kirpi dillənir. —Amma əyin-başını möhkəm elə. Hava bu gün çox pisdir.

Kirpi yuvasına girir. Çöltoyuğu da çölə üz tutub dən axtarmağa gedir.

Ana gedəndən sonra dəcəl balalar şingilimə qalxırlar. Bir-biri ilə zarafatlaşır, atılıb-düşürlər. Oyuna başları elə qarışır ki, axşamın nə vaxt düşdüyünü belə hiss etmirlər. Bir azdan qapı döyülür: —Anamız gəldi, anamız gəldi, — deyə dəcəllər bağırışıb sevinirlər.

Toyuğun böyük balası qapını açır. Başdan-ayağa islanmış yorğun-arğın ananı içəri buraxır. Ana içəri girən kimi gətirdiklərini yerə qoyub tutqun bir səslə deyir:

– Daha ayaq üstə dayana bilmirəm. Başım hərlənir, bədənimə üşütmə gəlir. Bişirib-düşürməyə halım taqətim yoxdur. Gətirdiklərimdən görün özünüzə nə bişirə bilərsiniz, bişirib yeyin. Mənim isə yerimi açın, uzanım.

Dəcəllərin sevinci yoxa çıxır. Analarının xəstələndiyini görüb əl-ayağa düşürlər. Hərə bir tərəfdən yer hazırlayıb ananı yatağa uzadırlar.

Ortancıl beçə qonşuya qaçıb Kirpini çağırır.

Kirpinin həkimlikdən bir az başı çıxırmış. Gəlib xəstələnmiş toyuğa baxıb deyir:

– Qonşu, yamança soyuqlamısan. Beş-on gün yatıb özünü əməlli-başlı tərlətməlisən. Bunun üçün də sən çək otu toxumunun dəmini içməlisən.

Çöl toyuğu zarıya-zarıya deyir:

– Ay pir olmuş, çək otu toxumu bizdə hardan?

Kirpi:

– Bizdən bir az aralı təpənin döşündə olur. Gedib oradan yığıb gətirmək lazımdır. Qoy gedim uşaqlarımı rahatlayım, yığıb gətirərəm, —deyir.

– Sən zəhmət çəkmə, — deyə Çöltoyuğu dillənir. — Böyük oğlum gedib yığıb gətirər.

Kirpi üzünü çil-çil beçəyə tutub deyir:

– Yaxına gəl, başa salım. Təpəyə gedərsən. Amma ehtiyatlı olmalısan, orada Çölpişiyi yaşayır. Təpədə qırmızıya çalan ot görəcəksən. Bu həmin çək otudur. Onun toxumundan bir ovuc yığıb gətirərsən.

Çil-çil beçə getmək istəyirdi ki, Kirpi onu saxlayıb deyir:

– Yadımdan çıxmışdı, təpədə ovçular tez-tez tələ qururlar. Ehtiyatlı ol, tələyə düşməyəsən. Di dayanma, tərpən.

Çöltoyuğu pişik və ovçu adını eşitcək qorxur. Odur ki, balasına:

– Dayan, getmə, — deyir.

Çil-çil beçə anasına təsəlli verib deyir:

– Arxayın ol, anacan, məndən nigaran olma. Artıq böyümüşəm. Mənə heç nə olmaz.

Ana əlacsız qalıb razı olur. Çil-çil beçə təpəyə yollanır.

Çil-çil beçə gedən baş maniəyə rast gəlmir. Geri dönəndə Kirpi dediyi Çölpişiyini görür. Ancaq özünü itirmir. Bir kolun dibinə qısılıb gizlənir. Xeyli gözləyir. Çölpişiyi uzaqlaşandan sonra gizləndiyi yerdən çıxıb gəlmək istəyir ki, birdən ovçu toruna düşür. Nə qədər dartınıb çapalayırsa da çıxa bilmir. Tordan qurtara bilməyəcəyini görüb hönkür-hönkür ağlamağa başlayır. Səsə Kəsəyən çıxır. O:

– Niyə ağlayırsan? — deyə çil-çil beçədən soruşur.

Çil-çil beçə deyir:

– Niyə də ağlamıyım? Anam evdə xəstədir. Məni gözləyir. Ona dərman aparmalıyam.

– Bəs niyə aparmırsan?

Necə aparım ki ayaqlarım tordadır?

– Belə de!..

– Kəsəyən əmi, mənə kömək edin. Məni tordan qurtarın. Qurtarmasanız, ovçu gəlib məni tutacaq. Anam da dərmansız qalıb öləcək.

– Yaxşı, ağlama. Səni xilas edərik.

Kəsəyən oğlanlarını səsləyir: yuvadan beş-on kəsəyən balası çıxır.

Ana kəsəyən:

– Toru gəmirib çil-çil beçəni azad edin! —deyir.

Kəsəyənlər o saat işə girişirlər. Çox çəkmir ki, toru qırıq-qırıq edirlər.

Tələdən qurtarmış beçə:

– Çox sağ olun, kəsəyənlər, yaxşılığınızı unutmaram, — deyib evə qaçır.

Evdəkilər çil-çil beçəni intizarla gözləyirmişlər. O, içəri girən kimi hamı sevinir: Gətirdiyi çək otu toxumunu Kirpi lələyə verir. Kirpi çək otu toxumunu yaxşı-yaxşı qaynadıb dəmini götürür. Ondan gündə üç damcı Çöltoyuğuna verir. Beş on gündən sonra Çəltoyuğu dirçəlməyə başlayır. Çox keçmir ki, tamam-kamal sağalıb ayağa durur. Balalarını başına yığıb xoş güzəran keçirir.

## QƏRİBƏ BULAQ

Biri var idi, biri yox idi, bir qoca ilə bir qarı var idi. Qocanın adı Şirin, qarının adı isə Pəri idi. Şirin hər gün meşəyə oduna gedərdi, Pəri qarı da evdə həyət-bacaya baxardı. Günləri-güzəranları belə keçərdi. Yaman-yaxşı birtəhər dolanırdılar. Kimsədən minnət götürməzdilər. Ancaq bir şey onları kədərləndirirdi. Bu da övladlarının olmaması idi.

Qoca Şirin adi qayda üzrə meşəyə oduna gedərkən qarısından xəbər aldı.

— Nə olub, ay qarı, yenə niyə belə bikefsən?.

Pəri qarı cavab verdi:

— Niyə də bikef olmuyum, ay Şirin? Nə oğlumuz var, nə də qızımız. Kimsəsiz qalmışıq.

Şirin qoca qarısına bir söz demədi. Dərindən köksünü ötürüb dinməz-söyləməz evdən çıxıb getdi.

Şirin kişi meşəya gəldi. Meşədə bir quş cikkiltisi eşitdi. Quşun səsi büllur kimi cingildəyirdi. Şirin kişi həndəvərinə boylandı. Başının üstəki ağacda bir quşcuğazın oturduğunu gördü. Quşun qarnı ot kimi yamyaşıl, döşü isə səma kimi gömgöy idi. Burada bir cüt göz istəyirdi ki, ona durub tamaşa eləsin. Quş başını yana əyib muncuq gözləri ilə Şirin kişiyə baxırdı. Şirin kişi ona baxan kimi quş uçub başqa ağaca qondu. Şirin elə bildi ki, quş onu çağırır. Qoca yaxına gəldi. Quşcuğaz dərhal «pırr» eləyib başqa bir ağaca qondu. Yenə də məstedici səslə oxudu. Şirin kişi quşun da lına düşdü. Quş onu meşənin sıx bir yerinə gətirib çıxardı. Özü isə burada yoxa çıxdı. Şirin kişi

çox dinlədi. Amma quşcuğazın səsini bir daha eşidəmmədi. Ancaq hardasa kiçik çay şırıltısı eşitdi. Şirin kişi irəli baxdı. Qarşısındakı qayanın altında bir bulaq gördü. Suyu dumduru idi, lap göz yaşı kimi. Qoca bulağa yaxınlaşıb dizini yerə qoydu. Sudan bir qurtum içdi. Gördü ki, beli düzəldi. Titrəyən əlləri əsməkdən dayandı. Kirəcləşmiş damarlarından isti qan axmağa başladı. Şirin kişi öz-özünə: «Bu lap möcüzədir» — dedi. Əlini saqqalına çəkmək istədi, saqqalı ələ gəlmədi. Elə bildi, yuxudadır. Bir də əlini əlini üzünə vurdu, saqqalı yox idi. Elə bil heç yerli-dibli olmamışdır.

Şirin sevindi. Axı, niyə də sevinməsin? Heç nədən gənclik qazanmışdır. Bəlkə də qədimlərdə xəbər verilən dirilik suyu elə bu imiş?

Şirin sudan bir qurtum da içdi. Həmin an üzündəki qırışlar yox oldu. Sağlam, gümrah gəncə çevrildi. Tez durub evinə qaçdı ki, qarısını da bulağa gətirib cavanlaşdırsın.

Pəri qarı Şirin kişini çox gözlədi. Gəlmədiyini görüb meşəyə ardınca getdi. «Qoca bəlkə yorulub — dedi. — Gedim kömək eləyim».

Qarı qocasını axtararkən ona sarı tələsə-tələsə gələn bir gənc gördü. Gənci dayandırıb qocasını xəbər aldı: «Qocam sübh tezdən meşəyə gedib, hələ qayıtmayıb», dedi.

Qarşısındakı gənc gülərək:

– Qarı, yoxsa qocanı tanımadın? — dedi.

Pəri qarı bir anlığa duruxdu. Sonra qocasını səsindən tanıdı.

Şirin başına gələnləri qarısına danışdı. Sonra qarısının əlindən tutub bulağa apardı. Pəri qarı sudan iki qurtum içən kimi dönüb gözəl qız oldu. hər iki gənc əl-ələ verib evlərinə döndülər. Evlərinə çatanda qonşuları ilə qarşılaşdılar».

– Axşamınız xeyir, qonşu, —deyə Şirin dilləndi. Qon şusu onu əvvəlcə tanımadı. Şirin başına gələnləri qonşusuna da danışdı. Qonşunun sevincdən gözləri parıldadı:

– Bulaq hardadır, tez ol söylə, — dedi.

Şirin bulağın yerini qonşusuna dedi. Qonşu cəld evə qaçdı. Təzə paltarını geyib bulağa üz tutdu. Xeyli axtarandan sonra bulağı tapdı. Əyilib sudan iki qurtum içdi. Dönüb cavan oğlan oldu. Nəfəsini dərib bir də suya baxdı. Sonra öz-özünə: «Qoy bir qurtum da içim, lap cavan olum», — dedi. Əyilib bir qurtum da içdi. Dönüb oğlan oldu. — Necə də dadlıdır! — deyib bir qurtum da içdi. Dərhal çağaya dönüb bulağın üstündə qaldı.

Şirin qonşusunu çox gözlədi. Lakin ondan səs-səmir gəlmədi. «Bəlkə başına bir hadisə gəlib» —deyə meşəyə qonşusunun ardınca yollandı. Bulağa çatanda nə görsə yaxşıdır? Gördü ki, qonşusu təzə paltarının arasında çağaya dönüb. Özü də şirin-şirin yatır.

Şirin başını bulayıb dedi:

– Nə səfeh qonşu imişsən! Möcüzəli suyu da bu qədər içərlərmi?

Şirin çağanı xalata büküb evinə gətirdi. Pəri çağanı görüb sevindi:

– Həsrətimiz ürəyimizdə qalmadı, a Şirin, —dedi. — Axır bizim də oğlumuz oldu.

O gündən hər iki gənc övladlarını böyütməyə başladılar.

## MAHİR BABA

Biri var idi, biri yox idi, bir qoca var idi. Bu qocanın adına Mahir baba deyərdilər.

Mahir baba Xalxal meşəsində gözətçilik edərdi. Mahir babanın Düyməgöz adlı oğlan nəvəsi var idi. Bu adı nəvəyə baba özü qoymuşdu.

Düyməgözü Mahir baba çox istəyirdi. Odur ki, onu özü ilə tez-tez gözətçi olduğu meşəyə aparardı.

Düyməgöz gündüzlər meşənin cır almasından, əzgilindən, yemişanından, göyəmindən yığıb yeyərdi. Axşamlar da komada babası ilə əyləşib onun şirin söhbətlərinə, meşə nağıllarına həvəslə qulaq asardı.

Mahir baba mahir də ovçu idi. İsaq-Musaq quşunun, qaqqıldayan turacın, ehtiyatla sərin bulaqdan su içməyə gələn ceyran-cüyürün, bir sözlə, meşədə yaşayan hər bir heyvanın, quşun adətini, davranışını çox gözəl bilirdi.

Düyməgöz nəvəsinə də onlar barəsində maraqlı nağıllar, əhvalatlar söyləməyi sevərdi.

Düyməgöz bunu bilirdi. Odur ki, axşam bir yerdə əyləşən kimi başlardı:

— Babacan, bu gün mənə hansı nağılı danışacaqsan?

Mahir baba dedi:

— Bu gün sənə, mənim balam, özünü nə quş, nə də heyvan hesab edən bir canlıdan danışacağam.

— O nə təhər canlıdır, babacan, özünü nə quş, nə də heyvan hesab edir?

— O, yarasadır, mənim balam.

— Yarasa özünü niyə nə quş, nə heyvan hesab edir, babacan?

— Bu, maraqlı bir əhvalatdır, mənim balam. Danışım, qulaq as.

— Danış, babacan, danış.

— Bu əhvalatı mənə babam danışmışdı. Babam da öz babasından eşitmişdir. Babam deyərdi ki, bu əhvalat yarasanın başına çox qədim zamanlarda gəlmişdi. İndiki yarasaların əcdadı bir dəfə günün günortaçağında uçurmuş. Birdən boz bir qırğı onun üzərinə şığıyır. Yarasanın qənşərinə yetib deyir:

— Gün aydın, dostum! Nəhayət, görüşdük. Düz üç il, üç gündür ki, səni axtarıram. Axır ki, tapdım.

— Üç il üç gündür ki, məni axtarırsan!?

— Bəli, mənim əzizim, səni axtarıram.

— Məni neynirsən?

Qırğı dedi:

— Quşlar padşahı qartal əmr etmişdir ki, bütün quşlar oğlanlarını quş ordusuna əsgər verməlidir. Sən isə oğlanlarını qanadların altında gizlədib əsgər vermək istəmirsən. Odur ki, səni yeməliyəm.

— Mən?.. Bəyəm mən quşam? —deyə yarasa tərəddüdlə qırğıya etiraz etdi. Sonra da qanadlarını büküb dərhal düşdü yerə. Qaçıb otların arasında gizləndi.

– Tfu! Mən yanılmışam. Bu ki heyvanmış, —deyib qırğı öz-özünə donquldandı. Sonra da uçub getdi. Yarasa da otların arası ilə üz qoyub qaçırdı ki, birdən kol arxasından bir tülkü çıxıb onun qabağını kəsdi.

– Aha, əlimə yaxşı düşmüsən, mənim əzizim! — dedi. — Səni nə az, nə də çox, düz yeddi ildir ki, axtarıram.

– Məni?..

– Bəli, səni.

—Nəyə görə? —deyə yarasa tərəddüdlə cavab verdi.

– Özünü bilməməzliyə vurma! —deyə tülkü dilləndi. — Guya bilmirsən?

– Mən hardan bilirəm? —deyə yarasa titrəyə-titrəyə cavab verdi. Tülkü uzun quyruğunu yalayıb dedi:

– Meşə padşahı aslan bütün heyvanlara oğlanlarını heyvan ordularına verməyi əmr etmişdir. Bu fərmanı təkcə sən pozmusan. Uşaqlarını orduya verməmisən. Odur ki, mənə əmr etmişdir səni tapan kimi yeyim. İndi bildin niyə səni axtarırdım?

– Mən... Mən bəyəm heyvanam? —deyib yarasa tülküyə etiraz etdi. Dərhal da qanad açıb uçdu. Tülkü buna mat qaldı:

– Tfu! Mən də bunu heyvan bildim. Deməginən quş imiş,—deyib kor-peşman öz yolu ilə getdi.

– İndi, əziz balam, —deyə Mahir baba nağılına yekun vurdu. —Yarasa o vaxtdan qırğıdan qorxub gündüzlər uçmur, tülküdən də qorxub yerdə qaçmır.

– Necə də maraqlıdır! —deyə Düyməgöz dilləndi. —Babacan birin də danış.

– Artıq gecdir, mənim balam, yatmaq vaxtıdır.

– Hələ tezdir, babacan, nə olar, birin də danış.

Mahir baba gördü ki, Düyməgöz ondan əl çəkməyəcək, odur ki:

– Yaxşı, nə deyirəm, qoy sən deyən olsun, —deyib ikinci nağıla başladı.

– Bu əhvalat da çox qədimlərdə meşədə baş vermişdi. O vaxt payızın son ayı idi. Ağaclar son yarpaqlarını tökürdü. Arabir acı küləklər əsirdi. İliyə işləyən soyuq yağışlar ara vermədən yağırdı. Quşlar isti ölkələrə köçməyə

qızğın hazırlaşırdılar. Yeddi gün idi ki, meşə ayaq üstə durmuşdu. Bir həftə idi ki, meşədən səs-küy kəsilmirdi:

– Hamı buradadırmı?

– Kim yoxdur?

– Kənarda qalan olmadı ki.?

Bu suallar tez-tez eşidilirdi.

Yoxlama zamanı təkcə meşəxoruzunun səsi eşidilmədi. Ondan xəbər verən olmadı. Odur ki, quşların başçısı boz qartal əyri dimdiyini üstündə dayandığı qurumuş budağa toxundurub boğuq bir səslə boz ququ quşuna əmr etdi:

– Uç get, gör meşəxoruzu harda itib-batıb? Niyə gəlib çıxmır?

Boz ququ quşu o saat uçub getdi. Meşəxoruzunu axtarmağa başladı. Çox uçdu, axırda meşənin lap dərin bir yerində meşəxoruzunu tapdı. Deməginən, meşəxoruzu burada sidr aqacında əyləşib bir-bir fındıq qoparıb çırtlayaraq ləzzətlə yeyirmiş. Boz ququ quşu meşəxoruzunu görən kimi:

– Əzizim, yeddi gündür ki, səni axtarırıq. İsti ölkələrə uçub getmək istəyirik. Amma gəlib çıxmadığına görə dayanmışıq. Tez ol gedək. Hamı hazırdı, səni gözləyir.

– Nə var, nə olub? Nə təlaşdır? Hara belə tələsirsiniz?!Niyə qoymursunuz istədiyimiz qədər azuqə yığaq? İsti ölkələrdə nə var? Burada yeməyə hələ çox şey qalmışdır. Onları qurd-quşa qoyub getmək olmaz, —deyərək meşəxoruzu boz ququ quşunun üstünə kəkələndi. Ququ quşu da meşəxoruzuna bir söz deməyib geri döndü. Boz qartalın hüzuruna gəlib dedi:

– Böyük qartal, meşəxoruzu meşənin dərinliyində, sidr ağacında oturub fındıq çırtlayır. Cənuba köçmək istəmir. «Hələ tezdir» — deyir.

Bu dəfə qartal sürətlə çəkçəkin quşunu meşəxoruzunun ardınca göndərdi:

– Gəlir, gəlsin, —dedi. —Gəlmirsə, biz onu daha gözləməyəcəyik.

Çəkçəkin quşu qartala baş əyib dərhal uçdu. Meşəxoruzunun əyləşdiyi sidr ağacının gövdəsinə bir neçə dövrə vurduqdan sonra dedi:

– Tez ol, gedək, meşəxoruzu, tez ol! Hamı səfərə hazırdı, təkcə sən qalmısan, tez ol!

— Axı hara belə tələsirsiniz?! Niyə qoymursunuz toqqamızın altına yaxşı-yaxşı bərkidək? Başa düşün, axı səfərimiz uzaqdır. Yolda acından ölsək, kim bizə yemək verəcəkdir?

Çəkçəkin quşu gördü ki, meşəxoruzu hələm-hələm gedən deyil, odur ki, qanadlarını sürətlə çalıb geri döndü:

— Böyük qartal, —dedi, —meşəxoruzu gəlmir. «Özümə yol üçün yaxşı-yaxşı tədarük etməsəm getməyəcəyəm» —deyir.

Boz qartal qəzəbləndi. Təxirə salmadan isti ölkələrə uçmağı quşlara əmr etdi.

Acgöz meşəxoruzu isə yeddi gün, yeddi gecə kol-kos arasında qaldı, yeddi kisə sidr fındığı topladı. Səkkizinci gün dayanıb nəfəsini dərdi. Doqquzuncu gün dimdiyi ilə lələyini təmizlədi. Onuncu gün toqqasına baxıb dedi:

— Bax, belə! İndi səfərə çıxmaq olar. Ancaq bilmirəm bu qədər yükü necə aparacağam? Qoy bir baxım görüm kimi köməyə çağıra bilərəm?

Meşəxoruzu o ağaca baxdı, heç nə görmədi. Bu kolun dibinə boylandı, kimsə gözünə dəymədi. Anladı ki, lələ. köçüb, yurdu qalıb. Odur ki, hönkürtü çəkib açı-acı ağladı:

— İndi mən bu meşodə tək-tənha nə edim? Hara gedim? Kiminlə yoldaşlıq edim? —dedi.

— Babacan, meşəxoruzu sonra neylədi?

— Neyləyəcək, mənim balam, heç nə. Qarlı, şaxtalı meşədə tək-tənha qalıb siçovula, mişovula yoldaş oldu. Nə danışdı, nə də güldü. Göz yaşı töküb bütün qışı ağladı. O qədər ağladı ki, qara qaşları göz yaşından üvəz bitkisi kimi qıp- qırmızı qızardı. Bu qızartı sonra bütün nəslinə keçdi.

## AĞILLI TUTU QUŞU

Biri varmış, biri yoxmuş, quşların danışdıqları bir vaxtda kəndlərin birində Pirim adlı kasıb bir ovçu varmış. Bu ovçu meşədən quş ovlamaqla dolanarmış. Mahir ovçu Pirim quşların dilini gözəl bilərmiş.

Bir gün Pirim meşəyə ova çıxır. Hündür bir ağacda çoxlu quş yuvası görür. Budaqların birində isə iki rəngli tutu quşunun bir-biri ilə danışdığını eşidir. Sən demə, tutu quşları hamılıqla səhər yem ardınca uçacaqlarını deyirlərmiş.

Odur ki, ertəsi gün tutu quşları yem ardınca yuvalarından ayrılarkən Pirim ağaca qalxır. Quş yuvalarına azacıq yapışqan tökür. Düşüb gedir.

Günorta tutu quşları yuvalarına dönürlər. Yuvasına oturan tutu quşu yapışqana yapışıb yerindəcə qalır. Tutu quşlarının başçısı:

– Bu, ovçu Pirimin kələyidir, —deyir. Sonra tələyə düşmüş tutu quşlarına:

– Mənə diqqətlə qulaq asın. Pirimi görən kimi yuvalarınızda ölü tək yatın. Sizi ölmüş bilib bir-bir yerə atacaq. Son tutu quşu yerə atılan kimi hamınız qanad açıb uçun. Pirimin əlindən canınızı qurtarın!

Tutu quşları deyir yaxşı. Günorta Pirim gəlib ağaca dırmanır. Birinci yuvaya baxır. Burdakı tutu quşunu ölmüş görür.

– Ziyan yoxdur. Ağacda yüz yuva var. Biri ölüdürsə, o biriləri diridir, — deyir.

Pirim ölü tutu quşunu yerə atıb o biri yuvaya dırmanır. Ordakı tutu quşu da ölü olur. Pirim onu da tullayır. O biri yuvaya baxır. Bu yuvada da tutu quşu ölü çıxır. Bundan sonra Pirim hansı yuvaya baxırsa, tutu quşlarının ölü olduğunu görür. Beləliklə o, doxsan doqquz tutu quşunu yerə atır. Atılanların da hamısı yerdə ölü kimi qalır. Ağacla bircə yuva qalır. Deməginən, bu da tutu quşu padşahının yuvasıymış. Ona görə ağacın təpəsində imiş.

Pirim ağacdakı son yuvaya yaxınlaşanda kəmərindəki bıçaq yerə düşür. Yerdə yatan tutu quşları dərhal uçurlar.

Pirim hiyləni başa düşür. Axırıncı yuvada başçı tutu quşunun olduğunu dərhal anlayır. Sonuncu yuvaya yaxınlaşanda ehmalca deyir:

– Doxsan doqquz tutu quşu canını qurtardı. Amma sən əlimdən qurtara bilməyəcəksən. Səni tutacağam. Özü də bazara aparıb satacağam.

Pirim quşların başçısını tutur. Torbasına qoyub evinə gətirir. Yolda tutu quşu Pirimə deyir:

– Məni satmasan, komanda qalıb səni bəxtiyar edərəm.

Pirim:

– Sən hiyləgərsən, sənə inanmaq olmaz.

Tutu quşlarının başçısı and içir. Pirim tutu quşunun andına inanır. Onu satmır. Komasına gətirib qəfəsdə saxlayır.

Ertəsi gün sübhdən doxsan doqquz tutu quşu Pirimin komasının damına qonub oxumağa başlayır. Pirim tutu quşu başçısından soruşur:

– Sən niyə bəs oxumursan?

– Onlar azaddır, —deyə tutu quşu başçısı dillənir. —Mən isə dustağam. Dustaq olan oxumaz. Əgər məni buraxsan, mən də onlar kimi cəh-cəh vurub ötərəm.

Pirimin tutu quşuna yazığı gəlir:

– Uçar, qoy uçsun, —deyib qəfəsin qapısını açıb tutu quşunu buraxır. Lakin tutu quşu uçub getmir. Komanın damındakı quşların yanına qonub onlarla birlikdə ötməyə başlayır.

Bu hal bir neçə gün təkrar olur. Tutu quşları başçılarının yanına gəlib Pirimin damına qonur, günortaya qədər ötür, sonra uçub gedirlər. Başçıları isə Pirimin yanında qalır.

Bunlar burada qalsınlar, sizə kimdən xəbər verim, ölkənin padşahından. Padşah xəbər tutur ki, ovçu Pirimin çoxlu tutu quşu var. Hər gün oxuyub onu əyləndirirlər. Odur ki, tutu quşlarının ən yaxşısını Pirimdən almaq qərarına gəlir. Bunu bilən Pirim bikef olur. Pirimin bikef olduğunu görən tutu quşu soruşur:

– Niyə belə kədərlisən?

– Şah səni məndən almaq istəyir. Mən isə vermək istəmirəm.

– Fikir eləmə, məni şaha ver. Əvəzində ondan bir kisə qızıl istə. Gerisi ilə işin olmasın.

Pirim belə də edir. Tutu quşunu götürüb saraya aparır. Padşah Pirimdən xəbər alır:

– Tutu quşunun çox gözəl oxuduğunu söyləyirlər. Doğrudurmu?

– Doğrudur.

– Elə isə de oxusun, mən də eşidim.

Pirim tutuya işarə edir, tutu oxumağa başlayır. Quş padşahın xoşuna gəlir. Pirimə deyir:

– Bu quş sənin kimi ovçuya yox, mənim kimi padşaha layiqdir. Gərək onu mənə satasan.

Pirim deyir:

– Quşun qiyməti bir kisə qızıldır.

Padşah Pirimə bir kisə qızıl verir. Pirim pulları götürüb evinə dönür.

Pirim gedəndən sonra padşah:

– Gətirin quşu salın qəfəsə, — deyir.

Xidmətçilər padşahın əmrini yerinə yetirirlər. Padşah tutu quşuna:

– İndn oxu, mən də qulaq asım.

Tutu quşu ağzını açıb çığır-bağır salır. Baş ağrıdan səslər çıxarır.

Padşah qəzəblənir:

– Səsini kəs, səfehnn biri səfeh. Yoxsul bir ovçu üçün şövqlə ötürsən, mənim üçün çığır-baqır salırsan.

Tutu quşu:

– Hökmdar! Qəfəsdə olan ötə bilməz. Ötməyimi istəyirsənsə əmr et, məni sərbəst buraxsınlar.

Sarsaq-sarsaq danışma! Köhnə, uçuq bir komada gözəl ötürsən, qızıl qəfəsdə ötmək istəmirsən? Görünür saraydan qaçmaq istəyirsən. Məni aldada bilməzsən. Sabah əgər ovçunun uçuq komasındakı kimi ötməsən, tüklərini yoldurub dərini diri-diri soyduracağam.

Ertəsi gün padşah qızıl qəfəsə yaxınlaşanda gözlərinə inanmadı. Tutu quşu ayaqlarını yuxarı qaldırıb uzanmışdı. Onu ölmüş zənn edən padşah:

– Tfu, yaramazın biri, yaramaz. Qorxusundan murdar olub ki! Götürün onu pəncərədən atın!

Xidmətçilər tutu quşunu atan kimi quş qanadlanıb meşəyə uçdu.

Sağ-salamat geri dönən başçılarını doxsan doqquz tutu quşu sevinclə qarşıladı.

## CUMBULU

Biri var idi, biri yox idi, bir xarrat baba var idi. Xarrat babanın qəşəng bir oğlan nəvəsi var idi. Bu nəvə o qədər balaca idi ki, xarrat baba ona Cumbulu adı vermişdi.

Cumbulu babasını çox istəyirdi. Baba hara gedirdisə, Cumbulunu da aparırdı. Bir dəfə baba meşəyə odun gətirməyə getdi. Cumbulunu da özü ilə apardı. Burada Cumbulunu hündür bir şam ağacının altında oturdub dedi:

— Sən burada dincəl, mən də bir az odun yığım, gedək.

Xarrat baba odun tədarük etməyə getdi. Cumbulu da ağacın altında oturdu. Çox keçmədi darıxıb ayağa durdu. O yan-bu yana baxdı. Əylənməyə bir şey tapmadı. Dibində oturduğu şam ağacının təpəsinə baxdı:

— Oy, necə də hündürdü! —dedi. —İndi mən onun təpəsinə dırmaşacağam.

Cumbulu şam ağacına dırmaşmağa başladı. Şam ağacı dilə gəlib dedi:

— Ey, Cumbulu, dırmaşma. Mən çox hündürəm. Yıxılarsan.

Cumbulu qoca şam ağacının sözlərinə əhəmiyyət vermədi.
Ağaca dırmanmağında davam etdi. Bu vaxt bir arı Cumbulunun başı üstündə dövrə vurmağa başladı. Arı dil açıb dedi:

— Ey, Cumbulu, ağaca dırmaşma. Yoxsa səni sancaram.

_Arı Cumbulunun dayandığını gördü. «Vızz» eləyib uçub getdi. Arının uzaqlaşdığını görən Cumbulu yenə də ağaca dırmaşmağa başladı. Bu vaxt kolların arasından bir köstəbək çıxdı. Cumbulunun ağaca dırmaşdığını görüb dedi:

— Ey, Cumbulu, ağaca çıxma, yıxılarsan, ağlayarsan. Sonra demə ki, köstəbək əmi gördü, demədi, —deyib kolların dibində gözdən itdi. Cumbulu köstəbəyin də sözünə qulaq asmadı. Yenə də ağaca dırmanmağa başladı. Elə bu vaxt şam ağacına bir ağacdələn qondu. Cumbulunun ağaca dırmaşdığını

görüb şam ağacını dimdiyi ilə taqqıldatmağa başladı. Ona baxan şam ağacına dedi:

— Cumbulunu dırmaşmağa niyə qoyursan? Bilmirsən ki, yıxılar?

Şam ağacı ağacdələnə cavab verdi:

— Mən qoymuram. Ancaq sözümə baxmır, dırmaşır.

Ağacdələnlə şam ağacı söhbət etdikləri yerdə bir sağsağan uçub gəldi. Cumbulunun ağaca dırmandığını görüb dedi:

— Ağaca dırmaşma! Yoxsa gedib bu saat babana xəbər verərək —Cumbulu sağsağanı yumruğu ilə hədələdi. Sağsağan:

— Köməyə gəlin, qoymayın, Cumbulu ağaca çıxıb, bu saat yıxılacaqdır, —deyə çığır-bağır saldı. Səsə baba gəldi.

Əhvalatdan xəbər tutub Cumbuluya:

— Bu heç yaxşı deyil, adam ağıllı məsləhətə qulaq asar,—deyib nəvəsinin əlindən yapışaraq evə apardı.

## BİLİCİ BABA

Biri var idi, biri yox idi, bir qoca var idi. Bu qocaya camaat Bilici Baba deyərdi. Bilici Baba sarayda padşahın yanında qulluq edərdi. Padşahın camaata qarşı hər bir şər tədbirini bilən kimi puça çıxarıb həyata keçirməyə qoymazdı. Buna görə də padşahın Bilici Babadan xoşu gəlməzdi. Bilici Babanı saraydan çıxarmağa çalışardı.

Bunun üçün padşah müxtəlif bəhanələrə əl atardı. Amma qurduğu kələklərin heç biri baş tutmazdı. Bu hal padşahı daha da qəzəbləndirərdi. Bilici Babaya yeni-yeni torlar qurmağa çalışardı.

Günlərin bir günü səfeh padşah ocaqda od üstündə qaynayan qazanı Bilici Babaya göstərərək xəbər aldı:

— Deyirlər sənin hər bir sirdər başın çıxır. Hətta cansız şeylərin dilini də bilirsən. Fikir ver gör, ocaqda qaynayan lobya ilə qazan nə barədə danışırlar?

Söhbətlərini öyrənib mənə desən, səni mükafatlandıracağam. Deyə bilməsən, öz bəxtindən küs! Bundan ötrü sənə üç gün möhlət verirəm.

Bilici Baba bir söz deməyib qazanda qaynayan lobyanın sirrini öyrənməkdən ötrü saraydan çıxıb gedir. Eli-obanı gəzib-dolaşmağa başlayır. Yolda bir odunçuya rast gəlir. Ona yol yoldaşı olur. Onlar məzarıstandan keçərkən bir nəfərin dəfn edildiyini görürlər. Bilici Baba dəfn olunanı göstərib odunçudan xəbər alır:

— Görəsən, binəvanı ölü basdırırlar, ya diri?

Biliçi Babanın sualı odunçuya qəribə görünsə də sualı cavabsız qoymur:

— Sağ da adam basdırarlar? Əlbəttə ki, ölüdür, — deyir.

Bilici Baba ilə odunçunun yolu taxıl zəmisindən düşür.

Bilici Baba sünbülləri odunçuya göstərib ondan xəbər alır:

— Görəsən, bu zəmi biçilib, ya yox?

Bu sualdan sonra odunçu yolçunun ağıldan söyrək olduğunu zənn edib onun suallarına daha cavab vermir. Ancaq çiyinlərini çəkməklə kifayətlənir. Özü isə yoluna davam edir.

Günbatana yaxın odunçu mənzilbaşına çatır. Yolçunu da komasına dəvət edir. Gecələmək üçün yer verir. Qonaq rahatlanandan sonra odunçu yolçunun yol boyu ona qəribə suallar verdiyini qızına danışır. Qızı gülümsəyib deyir:

— Burada qəribə, yersiz heç nə yoxdur, atacan. Qonağın iradları yerli-yerindədir. O bununla demək istəyib ki, dəfn olunanın övladı varsa, deməli o diri basdırılır. Sonsuzdursa, ölü basdırılır.

Qızın söz açması atasının xoşuna gəlir.

— Daha nə dedi, atacan?

— Yorulduğumu və bir az da axsadığımı görüb qarşımıza çıxan meşəyə girməyimi, özümə üçüncü ayaq tapmağımı məsləhət gördü.

— Bu da mənalıdır. Əl ağacı qüvvədən düşmüş adam üçün üçüncü ayaqdır.

— Daha nə xəbər aldı?



— Sünbüllü zəminin yanından keçəndə ayaq saxlayıb məndən soruşdu ki, görəsən zəmi biçilib, ya yox?

— Tamamilə doğru sualdır. Madam ki zəmi sahibi taxılın hamısını borca satmışdır, deməli ona görə zəmi artıq biçilmişdir.

Qonağın səfeh yox, ağıllı adam olduğunu bilən odunçu şad olur. Onunla əyləşib söhbət etmək istəyir. Lakin gec olduğundan qonağı narahat etmir.

Deməginən, qonaq da yatmayıbmış. Ona təklif edilmiş yataqda uzanıb sabah padşaha nə cavab verəcəyi barədə düşünürmüş. Ancaq ata ilə qızın söhbəti onu düşüncədən ayırır. Onların söhbəti diqqətini cəlb edir. Söhbət sona yetəndə Bilici Baba öz-özünə: «Əgər padşahın tapmacasına bu ağıllı qız da cavab tapmasa, onda artıq hər şey bitdi».

Səhər qonaq başına gələn əhvalatı ev sahibinə danışır. Qızdan kömək istəyir. Padşahın verdiyi tapmacanı qıza söyləyir.

Qız deyir:

— Bundan asan nə var ki? Onun cavabı gün kimi aydındır. Gedib padşaha de ki, qazanda qaynayan lobya odu hədələyib deyir ki, məni yandırma, yoxsa daşıb səni söndürərəm.

## YAXŞILIQ

Keçmiş zamanlarda qədim bir şəhərdə yoxsul bir çəkməçi yaşayırdı. Günlərlə yol kənarında, qollu-budaqlı bir ağacın altında oturub kasıblara başmaq yamarmış.

Bir dəfə səhər tezdən əyləşib işə başlamaq istərkən qonşuluqdakı ağacda qəribə bir quş gördü. Quş cələyə düşmüşdü. Çapalayıb xilas olmaq istəyirdi.

Çəkməçi bu vaxtacan belə quş görməmişdi.

Çəkməçinin ona yazığı gəldi:

— Qonşular tutacaq. Qəfəsə salacaq, bədbəxti azadlıqdan məhrum edəcəklər! —deyə öz-özünə düşündü. Sonra cəld ayağa qalxıb barını aşdı, quşcuğazı azad etdi.Havaya atıb dedi:

– Uç, əzizim, şən nəğmələrini oxu!

Çəkməçinin qonşusu paxıl idi. Gözü yaxşılıq götürməzdi. İstədiyi vaxt adama şər atardı. Eşidəndə ki qonşusu cələdən quşu qurtarıb, onu oğru kimi şərlədi.

Gecə gözətçiləri gəlib yazığı komasında tutdular, aparıb zindana saldılar.

Uzun əzab-əziyyətdən sonra çəkməçi azadlığqa çıxa bildi. Öz komasına qayıtdı.

Zindanda yazıq o qədər əziyyət çəkmişdi ki, üzülüb lap əldən düşmüşdü.

Çəkməçi qəmgin halda, köhnə yerində, həmin ağacın altında oturub işə başlamaq istəyirdi ki, birdən başının üstündə xəfif bir səs eşitdi:

– Dostum, nə fikrə dalmısan? Niyə belə qəmginsən?

Çəkməçi təəccüblə başını yuxarıya qaldırdı. Ağacda tanış quşu gördü. Çəkməçi heyrətlə:

– Bu işıqlı dünyada neçə illərdi ömür sürürəm. Quşun danışdığını birinci dəfədir görürəm. İnsan dilini sən hardan bilirsən?

Quş dedi:

– Mənə usta ağacdələn deyərlər. Yadındadırmı, məni bir dəfə bəladan qurtardın? O vaxtdan hər gün bura uçub gəlirəm. Səni tapmıram ki, tapmıram. Sənə nə olmuşdu?

Çəkməçi başına gələnləri bircə-bircə quşcuğaza danışdı. Ancaq karastılarının itdiyinə təəssüfləndi.

– Bilmirəm, —dedi, —bunlarsız necə işləyəcəyəm? Xain qonşu hamısını götürüb.

Çəkməçn xeyli gileyləndi. Ağacdələn ona təsəlli verib dedi:

– Qəm yemə, əziz dost. İndi mən uçaram. Sən də ardımca gələrsən, —deyib havaya qalxdı. Yol boyu uçmağa başladı. Quş nə qədər uçdu, çəkməçi də bir o qədər yol getdi. Axırda bir meşəyə gəlib çıxdılar.

Quş bir budağa oturub çəkməçiyə dedi:

— O nəhəng palıdı görürsən? O ağaca çıx. Aşağıdan yuxarıya, budaqları bir-bir say. Qırxıncı budağa çatanda oyuq görəcəksən. Bu oyuqda sənə gərək olanı tapacaqsan.

Lap çoxdan, birinci dəfə uçanda bu oyuğu mənə babam göstərmişdi. Babam o vaxt mənə dedi:

— Bax, mənim balam. Buradakıların hamısı sənindir. Ancaq bunlardan xeyir işlərdə istifadə etməlisən. Yoxsa nəslimizə bədbəxtlik üz verər. Sənin dilində danışmağı da o mənə öyrətmişdi.

Çəkməçi quşun dediyi kimi elədi. Göstərdiyi nəhəng palıd ağacına dırmandı. Aşağıdan qırxıncı budağa qədər saydı. Oyuq gördü. İçərisinə nəzər saldı. Gördü ki, qaranlıqda qiymətli daş-qaş, qızıl, gümüş şölə saçır. Ancaq çəkməçi buna məhəl qoymadı. Oyuğa bir də baxdı, bu xəzinənin içində gümüşü rəngli xırda bir çəkic gördü. Çəkməçinin üzü güldü: kiçik çəkici götürüb yerə düşdü.

Ağacdələn dedi:

— Mən belə də bilirdim. Bilirdim ki, sən tamahkar, həris adam deyilsən. Bu xəzinənin içindən ancaq işinə yarıyanı götürəcəksən. Bu çəkic sənə xoşbəxtlik gətirəcəkdir.

Çəkməçi ağacdələnə minnətdarlığını bildirib evinə qayıtdı. Çəkiçi əlinə aldı, yığılıb qalmış köhnə, yırtıq-sökük başmaqları qabağına töküb bir-bir yamamağa başladı.

Çəkiclə bir-iki zərbə vurdu. Bu nə möcüzədir? Çəkic nə yaxşı işləyir. Zərbəsi döydiyi mıxları gümüşə döndərir. İşlədikcə də dayanmaq bilmir.

Çəkməçinin şöhrəti tezliklə hər tərəfə yayıldı. Hamı onun çox kamil usta olduğunu söylədi. Hamı başmaqlarını ona yamatdı. İş çox olduqca çəkməçinin güzəranı da yaxşılaşdı. Günlər belə keçsəydn, nə vardı ki...

Gözü götürməyən qonşu çəkməçinin əməyinə, zəhmətinə, gəlirinə həsəd apardı. Gecə-gündüz onu yox etmək, aradan götürmək barədə düşündü.

Bir dəfə o, axşam pəncərədən çəkməçinin necə həvəslə işlədiyini gördü. Əlində gümüş çəkiçi görəndə yaman hirsləndi. Anladı ki, bu çəkiç adi

çəkiclərdən deyil, sehrlidir. Tez gedib bu barədə gözətçilərə xəbər verdi. Onlar da gəlib yazıq çəkməçini tutub aparıb saldılar şəhərin daş zindanına.

Ağacdələn bundan xəbər tutan kimi uçub gəldi daş zindana. Çəkməçini tapıb ona dedi:

– Qardaşım, qorxma, mən səni zindandan qurtaracağam. Səbəbkarı da cəzasına çatdıracağam.

Ağacdələn başladı iti dimdiyi ilə zindanın gözlüyünü tuk-tak, tuk-takla deşməyə. Çox vurdu, az vurdu, deyəmmərəm. Ancaq bundan bir şey çıxmadı. Ara yerdə elə quşcuğazın dimdiyi kütləşdi.

Birdən ağacdələn vəcdə gəldi. Bir söz demədən uçub getdi. Hara getdi, hardan getdi, bilmirəm. Ancaq çox çəkmədi ki, dimdiyində iri bir məftil kələfi geri döndü.

– Dostum, bir-dimdiyimə bax! Gör nə gətirmişəm! Bu kələfi dəmirçi dostum poladdan hazırlayıb. Al saxla zindandan qurtaranda gərəyimiz olar.

Ağacdələn bunu deyib zindan barmaqlarını dimdiyi ilə yenidən tak-tuk, tak-tukla deşdi. Çəkməçi barmaqlığa toxunan kimi qopdu. Dəmirçinin düzəltdiyi kələfdən yapışdı, sürüşüb yerə düşdü. Qaçdı. Ağacdələn qabaqda uçub ona bələdçilik elədi. Axırda hər ikisi gəlib yaşıl bir çəmənliyə çıxdı. Çəmənliyin tən ortasında ağacdan düzəldilmiş təmiz, işıqlı bir daxma var idi. Ağacdələn çəkməçiyə dedi:

– Qardaş, bura bizim evimizdi. Səni burada heç kim incitməz. Qal burada yaşa.

Çəkməçi dedi:

– Çox sağ ol, qardaş. Ancaq mən burda qala bilmərəm. Bir də işləməkdən ötrü bizim, sapım, çəkicim yoxdur.

– Qəm yemə, dostum, bunlar asan düzələn işdir, —deyə ağacdələn çəkməçini sakitləşdirdi. Sonra da qanadlanıb çəkməçinin daxmasına sarı uçdu. Hasara qonub gördü ki, həmin yaramaz qonşu cələ qurub. İstədi havaya qalxsın cələyə ilişdi. Çırpındı. Xilas ola bilmədi.

Qanadların səsinə qonşu çıxdı. Quşun cələyə düşdüyünü görüb sevindi. O saat da üstünə atılıb tutdu:

– Aha, axır ki, əlimə keçdin. Səni mən çoxdandır ki, gözləyirdim. Sabah səni sataram, əvəzində yaxşı pul alaram.

Bu vaxt ağacdələn adam kimi dil açıb dedi:

– Sən məni satma. Burax, uçum gedim. Bunun əvəzində məndən xəzinə alarsan. Sənə, sənin nəvənə, nəticənə çatar.

Tamahkar qonşu sevindi, dedi:

– Çox yaxşı, qoy sən deyən olsun. Vaxtı itirməyək. Apar dediyin xəzinəni mənə göstər. Aldatmasan, səni buraxaram.

Onlar vəsiyyət olunmuş nəhəng palıd ağacının yanına gəldilər. Simic qonşu ağacdələni qoltuq cibinə soxub dərhal ağaca dırmandı. Budaqları saydı. Qırxıncı budağa çatdı. Baxanda oyuğu gördü. Tez əlini oyuğa soxdu. Elə bu zaman oyuqdan baş qaldıran zəhərli bir ilan onu çaldı. Simic bağırtı ilə ağacdan yerə yıxıldı.

Ağacdələn o saat qoltuq cibdən çıxdı. Tullanıb bir budağa qondu. Pırtlaşıq düşmüş lələklərini dimdiyi ilə hamarlayıb dedi:

– Pis adamın, tamahkarın axırı həmişə belə olur.

Ağacdələn gəbərmiş simicin meyitinə bir də baxdı. Sonra qanadlanıb ustanın alətləri dalınca şəhərə doğru uçdu.

Sehrli gümüş çəkici şəhər gözətçiləri aparıb qoymuşdular saray xəzinəsinə.

Gözətçilər gördülər ki, budur, bir quş xəzinənin dəmir qapısını sinəsi ilə vurur, qıfılını da dimdiyi ilə açmaq istəyir. Onlar xəzinə qarovulçusunu səslədilər:

– Ey, qarovulçu, tez ol, qapını aç. Səni bir quş görmək istəyir. Açmasan qonub başında yumurtlayacaq! —deyib qəh-qəhə ilə güldülər.

Çox çəkmədi ki, ağır darvazalar taybatay açıldı. Ağacdələn dərhal xəzinənin içərisinə girdi. Gümüş çəkici tapıb dimdiyinə aldı. O saat da küçəyə atılıb uçdu.

Bunu görən qarovulçu:

– Ay aman, qoymayın, apardı! —deyə fəryad etdi. Ancaq artıq gec idi. Bu təlaş, bu fəryad onun köməyinə çatammazdı.

Ağacdələn oradan çəkməçinin yanına uçub gəldi. Gümüş çəkici ona verdi:

– Al, dostum, bu da sənin sehrli çəkicin.

Çəkməçi dedi:

– Çox sağ ol, dostum. İndi mən getməliyəm. Çoxdandır ki, ailəm yolumu gözləyir.

Çəkməçi ağacdələnlə dost kimi görüşüb ayrıldı. İri addımlarla komasına doğru getməyə başladı.

## COMƏRD BABA ƏRKÖYÜNÜ ŞƏRƏNTƏRİN TORUNDAN NECƏ XİY1AS ELƏDİ

Biri var idi, biri yox idi, çox qədimlərdə Şərəntər adlı bir cadugər var idi. Bu cadugərin Tənbəl, Aldadan, bir də Yalandanışan adlı bir-birindən hiyləgər üç oğlu var idi. Bunların işi-peşəsi tənbəllik edən cılız tifilləri tapmaq, onlara himayədarlıq eləmək idi.

Təsir altına düşən tifillər də ki, nə çox. Belə tifillərdən biri də Ərköyün adlı bir oğlan idi. Ərköyün yaman tənbəl. idi. Desəm ki, şah tənbəli idi, inanmazsınız. Böyük olmasına baxmayaraq onun iş görməklə heç arası yox idi. Bildiyi bircə o idi ki, hazır-nazır yesin, hazır-nazır içsin, bir də soyuq dəyməsin deyə üstünü möhkəm-möhkəm basdırıb yatsın. Vəssalam-şüttamam.

Şərəntərin böyük oğlu Tənbələ də elə bir adam gərək idi. Odur ki, bir gün Tənbəl qardaşlarına dedi:

– Bilirsiniz nə var, mən ürəyimə yatan bir tənbəl tapmışam. Gedirəm onu səltənətimizə gətirəm. Himayədarlıq edəm, tənbəlliyini daha da artırsın.

Ortancıl qardaş — Aldadan dedi:

– Tənbəl qardaş, məni də apar, ona aldatmaq öyrədərəm. Axı, tənbəllər ilk növbədə aldatmağı sevirlər.

Tənbəl qardaş dedi:

– Düz deyirsən, tənbəlliyin birinçi nişanəsi elə aldatmaqdır. Gedək, sən də ona aldatmağı öyrədərsən.

– Bəs mən? — deyə Yalandanışan dilləndi. —Yalan danışmaq, yalan demək məgər tənbəllərin adəti deyil? Axı, biz bir-birimizdən ayrılmaz qardaşlarıq. Birimiz olan yerdə, ikimiz də olmalıyıq. Məni də aparın. Mən də ona yalan danışmağı öyrədərəm.

Tənbəl qardaş dedi:

– Yalandanışan da haqlıdır. Onsuz heç nə edə bilmərik. Gərək onu da aparaq.

Bəli, üç qardaş üçü də həmfikir olub üz tutdular Ərköyüngilə. Onlar Ərköyüngilə gəlməkdə olsunlar, al xəbəri Ərköyündən. Ərköyün də elə bu vaxt isti otaqda, ipək yorğan-döşəyin içində xorhaxorla yatırdı.

Tənbəl qardaş Ərköyüngilin evlərinin kandarına çatanda dedi:

– Gəlib çatdıq, siz burada dayanın, mən gedim görüm təzə qardaşımız Ərköyün neyləyir.

Aldadanla Yalandanışan kənarda dayandılar. Tənbəl qardaş girdi evə. Gördü ki, Ərköyün budu ey, xorhaxorla yatır. Odur ki, çarpayıya yaxınlaşıb başladı Ərköyünü astadan çağırmağa:

– Ərköyün, ay Ərköyün!

Daşdan-kəsəkdən səs çıxdı, Ərköyündən yox.

Tənbəl qardaş bir də hayladı:

– Ərköyün, ay Ərköyün!

Ərköyün hannan-hana tənbəl-tənbəl dilləndi:

– Kimsən? Nə var? Nə istəyirsən? Yatmağa niyə qoymursan?

Tənbəl qardaş qımışa-qımışa dedi:

– Mənəm, Tənbələm, sənin ən istəkli dostun.

– Tənbəlsən?

Tənbəl dedi:

– Mənəm, Ərköyün, Tənbələm.

Ərköyün dedi:

– Məni neynirsən, tənbəl qardaş?

Tənbəl dedi:

– Mən razı olmaram ki, sənə zəhmət versinlər. Odur ki, gəlmişəm səni səltənətimizə aparım. Axı, bütün tənbəllər bizim səltənətimizdədir. Gərək sən də orada yaşayasan. Heç bir iş-güc görməyəsən. ,

– Bu nə yaxşı olar, —deyə Ərköyün cavab verdi. —Yoxsa nənəmə qalsa səhərdən-axşamacan məni işlədər.

– Elə isə dur, geyin, mənimlə gedək.

Ərköyün dedi:

– Mən geyinə bilmirəm axı. Məni həmişə nənəm geyindirir.

Tənbəl dedi:

– Əsl tənbəl belə də olmalıdır. Onun işini başqası görməlidi. Çağır nənəni, qoy səni geyindirsin.

Ərköyün gileylənib dedi:

– Nənəm məni geyindirmək istəmir. Daha bəsdi deyir. Böyük oğlansan gərək paltarını özün geyəsən. Mənsə geymək istəmirəm. İnad edib: «Yox, —deyirəm. —Gərək özün geyindirəsən». O isə razı olmur. İndi mən bəs nə edim?

Kandarda dayanmış Aldadan özünü saxlaya bilməyib başladı Ərköyünü yamsılamağa:

– Nə edim, nə edim? Nə edəcəksən? Tənbəl olan kəs belə yerdə gərək aldatsın. Sən də aldat, deginən bu dəfə də geyindir, gələn səfər özüm geyinərəm. Bildin, əfəlin biri əfəl.

– Doğru deyir, — deyə Tənbəllə Yalandanışan Aldadanın sözünü təsdiq elədilər.

Ərköyün nənəsini səslədi:

– Nənə, ay nənə!

Nənə dərhal cavab verdi:

— Nə var, nə olub, ay bala?

— Dayı nə olacaq? Durmaq istəyirəm. Gəl məni geyindir.

— Bıy, ay bala, dünən bəs demədin daha özüm geyinəcəyəm?

— Nə vaxt mən elə dedim?

— Bıy, başıma xeyir, yalan danışmağı da öyrənmisən?..

Yalandanışan tez narazı bir halda Ərköyünə pıçıldadı:

— Kobudluq eləmə də! Bu yerdə şirin dilə güc vermək lazımdır. Nənəni dilə tut. Onu yola gətir, yoxsa işin aşmaz!

Ərköyün səhvini anlayıb dedi:

— Yox ey, nənəcan, elə demək istəmədim. Dedim ki, bəs mən necə geyinim. Axı, mənə geyinməyin təhrini öyrətməmisən. Nə olar, nənəcan, bu gün geyinməyin təhrini mənə öyrət, sabahdan özüm geyinərəm. Sənə daha əziyyət vermərəm.

Ərköyün şirin dillə nənəsini aldatması Yalandanışanla Aldadanın lap ürəyindən oldu. Odur ki, hər ikisi Ərköyünə «Afərin!» dedilər.

Nəvənin vədinə inanan nənə sevinib Ərköyünü geyindirdi. Üstəlik çay-çörək də verdi. Ərköyün durub gedəndə nənə dedi:

— Yedin-içdin, indi dur danamızı qat qabağına, apar örüşdə otarginən.

Ərköyün üzünü bozardıb dedi:

— Qoy gedim, bir az oynayım, sonra gəlib dananı aparram otarmağa.

Nənə Ərköyünə inandı. Ərköyün də Tənbələ, Yalandanışana, bir də Aldadana yoldaş olub getdi. Onlar Ərköyünü aldadıb səltənətlərinə aparmaqda olsunlar al xəbəri kimdən, Comərd babadan. Deməginən, Comərd baba da Şərəntərin oğlanlarının əməllərindən xəbərdar imiş. Elə bil o da bunu gözləyirmiş. Odur ki, Comərd baba da fürsəti fövtə verməyib övladları İşsevəri, Doğrunu bir də Düzdanışanı hüzuruna çağırıb dedi:

— Ərköyün Şərəntər oğlanlarının fitnə-felinə uymuşdur. Buna dözmək olmaz. Gərək biz ona kömək əlimizi uzadaq. Onu bu bəladan qurtaraq.

— Babacan, bundan ötrü biz nə etməliyik? —deyə İşsevər dilləndi:

Comərd baba dedi:

– Hər şeydən əfzəl Ərköyünü Şərəntərin səltənətindən qaçırmalısız. Sonra da onu zəhmətə, doğruçuluğa sövq etdirməlisiz. Anladınız?

– Anladıq, babacan, anladıq, — deyə üç qardaşın üçü də dilləndi. Comərd baba sözünə davam edərək dedi:

– Elə isə dayanmayın, bu gündən işə başlayın.

Qardaşlar Comərd babaya baş endirib hüzurundan o saat getdilər. Həmin gün də bir tərəfdə əyləşib Ərköyünü Şərəntərin qəsrindən qaçırmağın tədbirini tökdülər. Qardaşlar Ərköyünü Şərəntərin qəsrindən qaçırmağı həqiqət quşuna həvalə elədilər. Həqiqət quşu da həmin an qanadlanıb havaya qalxdı. Şərəntər qəsrinə üz tutdu. Qanadlarının səsindən yer-göy titrədi. Nəhəng bir dağ elə bil yerindən oyandı. Göz qırpımında da orada oldu.

Həqiqət quşunu görən Şərəntərin adamların canına vahimədən vəlvələ düşdü. Odur ki, hərəsi bir tərəfə qaçıb dağılışdı. Həqiqət quşu da fürsəti fövtə verməyib özünü saldı Şərəntər qəsrinə. İpək yorğan-döşəkdə mışıl-mışıl yatan Ərköyünü iti çaynaqlarına alıb qaldırdı havaya. Bir göz qırpımında da Ərköyünü gətirib endirdi Comərd babanın hüzurunda. Comərd baba övladlarına üz tutub dedi:

– Oğlanlarım, Ərköyünü bu gündən sizə tapşırıram. Aparın ona işgüzarlıq, zəhmət, doğruçuluq öyrədin. Bunnan belə mən Ərköyünü tənbəl, yalandanışan görmək istəmirəm. Eşidirsinizmi, görmək istəmirəm!

– Xatircəm ol, babaçan, —deyə qardaşlar Comərd babaya vəd verdilər. Bundan ötrü Comərd babadan qırx gün möhlət istədilər. Comərd baba onlara qırx gün möhlət verdi.

İşsevər, Doğru, Düzdanışan bir də həqiqət quşu Comərd babadan möhlət alandan sonra girişdilər işə. Meşə kənarında bir koma tapıb Ərköyünü gətirdilər ora. Burada Ərköyünə tənbəllikdən yaxa qurtarmasına kömək edən işlər tapşırdılar. Ərköyün qırx gün bu işləri görməli idi: Hər gün dan yeri ağaranda yataqdan qalxmalı, pal-paltarını geyməli, arxın suyunda əl-üzünü yumalı idi. Meşədən hər gün bir şələ odun doğrayıb gətirməli idi. Arx

kənarındakı otlardan bir dərz bağlamalı idi. Bir də meşə gözətçisinin danasını otarıb suvarmalı idi.

Ərköyün işdən boyun qaçırmaq istədi:

— Məni buraxın, mən iş-zad görən deyiləm! —dedi. Qardaşlar isə:

— Sənə tapşırılan işləri qırx gündə görməsən, buradan heç yana gedən deyilsən, —dedilər. Həqiqət quşunu da üstünə gözətçi qoydular.

Ərköyün nə qədər elədi ki, bu işlərdən birtəhər can qurtarsın, amma olmadı. Axırda çarəsiz qalıb dinmədi. Ondan ötrü qoyulmuş həsir palaz üstə uzanıb səhərədək yatdı.

Ertəsi gün dan yeri qızaran kimi həqiqət quşu Ərköyünü şirin yuxudan oyatdı. Ərköyün duran tək istədi nənəsini haylasın, gördü nənə-zad nə gəzir? Qənşərində dünən onu iti caynaqlarına alıb gətirən Həqiqət quşu dayanıbdı. Odur ki, kirmişcə durdu. Qardaşların ona tapşırdığı işləri yavaş-yavaş görməyə başladı.

Aradan bir müddət keçdi. Comərd baba bir gün böyük oğlu İşsevəri yanına çağırıb xəbər aldı:

— De görüm, Ərköyün nə edir? Tənbəlliyin tərkini qılırmı?

İşsevər dedi:

— Qılır, babacan. Amma ləng qılır.

— Eybi yoxdur! —deyə Comərd baba İşsevərə toxtaqlıq verdi. —Ancaq sən üstündə göz ol ki, bir də Tənbəlin toruna düşməsin.

İşsevər baş endirib gedəndən sonra Comərd baba ortancıl oğlu Doğrunu hüzuruna çağırıb xəbər aldı:

— Ərköyün yenə aldadırmı?

— Hərdənbir Aldadan onu yoldan çıxarmaq istəyir, amma mən imkan vermirəm.

— Afərin! Diqqətini bir an belə ondan çəkmə. Qoy Ərköyünə yaxın düşə bilməsin!

Doğru da baş endirib gedəndən sonra Comərd baba kiçik oğlu Düzdanışanı hüzuruna çağırıb xəbər aldı:

— Ərköyün yalan danışırmı?

Düzdanışan baş endirib dedi:

— Hərdən yalan danışmaq istəyir. Amma yalanını o saat tuturam. Onu düz danışmağa sövq edirəm.

— Afərin! Get işini davam etdir. Yalandanışanı Ərköyünün həndəvərinə buraxma!

Beləliklə, Comərd baba, İşsevər, Doğru, Düzdanışan bir də Həqiqət quşu nə az, nə də çox, düz otuz doqquz gün beləcə Ərköyünlə məşğul oldular. Onu bir an belə gözdən qoymadılar. Şərəntərin fitnə-felindən qorudular. Qırxıncı gün tamam olanda Comərd baba baxıb gördü ki, Ərköyün övladları kimi işküzarlığa, doğruçuluğa tamam yiyələnibdi. Odur ki, möhlət tamam olan günü əmr elədi Ərköyünü hüzuruna gətirdilər. Comərd baba baxıb gördü ki, Ərköyün bir oğlan olub, bir oğlan olub, gəl görəsən. Boylu-buxunlu, yaraşıqlı, enlikürək bir cavan. Elə bil Rüstəm pəhləvandır, durubdu. İki göz istəyir ki, ona tamaşa eləsin. Özü də bir iş tapşıranda, yainki bir söz xəbər alanda «bəli», «xeyir», «baş üstə», «bu saat»nan danışır. Odur ki, dedi:

— Övladlarım, Ərköyün daha başqalaşıb. O, Şərəntərin əsarətindən büsbütün qurtarıb. İndi o, əməksevər, düzdanışan olmuşdur.

İşsevər, Doğru, Düzdanışan, bir də Həqiqət quşu Comərd babanın sözlərinə qüvvət verib bir ağızdan —»doğrudur!», «doğrudur!» dedilər.

— Madam ki belədir, — deyə Comərd baba sözünə davam etdi, — onda bu ad daha ona layiq deyildir. Ona bu sifətinə görə münasib ad qoymalıyıq. Siz ona nə ad təklif edirsiniz?

Həqiqət quşu tez dedi:

— Elsevər desək yaxşı olmazmı?

Bu adı hamı bəyəndi. Ərköyünü bunnan belə Elsevər çağırdılar. Elsevər də üzügülər, zəhmətsevər bir kənc kimi evlərinə döndü. Nənəsi Elsevəri belə görüb sevindi. Comərd babaya «sağ ol!» dedi.

## İMRANIN NAĞILII

Biri var idi, biri yox idi, kasıb bir kişi var idi. Bu kişinin gözünün ağı-qarası bir oğlu var idi. Oğlunun adı İmran idi.

İmran fərasətli uşaq idi. Ata-anasını çox sevərdi. Hər işdə onlara kömək edərdi. Uzun qış gecələrində yaşlıların şirin söhbətlərinə, nağıllarına həvəslə qulaq asardı. Böyüklərin hər bir söhbəti onu maraqlandırardı. Bu söhbətlərdən özünə nəticə çıxarardı.

Atası İmranı çox istərdi. Hər cümə şəhər bazarına gedəndə onu da özü ilə apardı. Ata-bala əl-ələ verib bazrlıq edərdilər. Ayın-oyun alıb geri dönərdilər.

Bir gün İmranın atası yenə də şəhərə, cümə bazarına getməli oldu. Oğlunu da özü ilə apardı.

Ata-oğul bazara girəndə gördülər ki, meydana çoxlu adam toplaşıbdır. Ortada uzun, qarasaçlı, topa saqqallı, əbası ilə yer süpürən bir dərviş camaatı başına cəm edib əl-qolunu ölçərək onlara nə isə danışır.

İmran atasına dedi:

– Atacan, gəl ora gedək. Qulaq asaq görək dərviş baba camaata nə danışır.

Atası oğlunun sözünü yerə salmadı. Odur ki, hər ikisi adamlar cəm olanda meydana yaxınlaşdılar. Bu dəm əlindəki təbərizini yelləyən dərviş ucadan deyirdi:

– Camaat, mən çox yerlər gəzmişəm. Çox adamlarla oturub-durmuşam. Çoxları haqqında eşitmişəm. Ancaq onun kimisini görməmişəm. Bu adamın əlindən neçə-neçə bimar şəfa tapmışdır. Neçə-neçə adam ölümdən qurtarıb həyata qayıtmışdır. Təbib olanda da bax, beləsindən olasan! Adın-sorağın bütün dünyanı gəzsin.

Tamaşanın axırına çatdıqlarından söhbətin kimdən və nədən getdiyini İmran anlayammadı. Odur ki, camaat dağılan təki irəli yeriyib atasının verdiyi abbasını dərvişin kəşkülünə salıb xəbər aldı:

– Baba dərviş, bimarlara şəfa verən təbib kimdir? Harada olur?

İmranı təbiblə maraqlandığını görən dərviş dedi:

– O, oğlum Şərif xan adında məşhur təbibdir. Kəşmir deyilən bir ölkənin Nəqərdə adlı şəhərində yaşayır. Bu çiçəklər şəhərini Şərif xan özünə məskən etmişdir. Tibetdən, Bədəxşandan topladığı min bir çiçəyi məlhəm edib bura gələn min bir xəstəyə şəfa verir. Onları sağaldıb şad-xürrəm geri qaytarır.

İmran dedi:

– Baba dərviş, mən də Şərif xan kimi təbib ola bilərəmmi?

Dərviş əlini İmranın çiyninə qoyub dedi:

– Niyə olmursan, mənim balam? İstəsən olarsan. Səy və iradə göstərən hər kəs istədiyinə nail ola bilər.

Bu əhvalatdan çox, ya az keçdiyini deyə bilmərəm. Ancaq onu deyə bilərəm ki, on beş-on altı yaşına qədəm qoymuş İmran bir gün ata-anasına dedi:

– Mən təbib olmaq istəyirəm. Özü də təbibliyi dərviş. babanın nəql etdiyi Şərif xandan öyrənəcəyəm.

– Ay oğul, təbibliyi sən nə tövr öyrənəcəksən? Yazmağı oxumağı bilmirsən.

İmran dedi:

– Bundan heç narahat olma, ata. Oxumağı, yazmağı qonşumuz mirzə Abbasın oğlu Vəli mənə öyrətmişdir.

– Bəs, Şərif xanı haradan tapacaqsan, ay oğul?

İmran dedi:

– Narahat olma, anaçan. Atalar yaxşı deyiblər ki, axtaran tapar. Mən də axtarıb taparam.

İmranın qət etdiyini görən valideynlər, daha heç nə demədilər. Övladlarına ancaq uğur dilədilər.

Ertəsi gün İmran ata-anası, dost-aşnası ilə görüşüb yola düşdü. Bir neçə gündən sonra Araz çayı kənarına gəldi. Çay üstündəki Xudafərin körpüsündən keçib Təbriz şəhərinə çatdı. Bir neçə gün bu şəhərdə qalıb

çayxanaları, karvansaraları, dükan-bazarı gəzdi. Hindistana gedən adam aradı. Orada Hindistana qırx dəvə yükü neft tuluğu aparan bir tacir tapdı. İmran tacirin yanına gəlib dedi:

— Məni də özünə yol yoldaşı edərsənmi?

Tacir dedi:

— Etməyə edərəm. Ancaq bir şərtlə.

İmran xəbər aldı:

— O nə şərtdir, tacir lələ?

Tacir dedi;

— Gərək səfər ərzində qırx dəvəmə qulluq eləyəsən. Həm yemini verəsən, həm də suyunu.

Tacirin şərtini İmran qəbul etdi. Tədarük görüldü, karvan yola düşdü. İmran qırx gün, qırx gecə dəvələrə qulluq elədi. Çox əzab-əziyyətdən, yuxusuz gecələrdən sonra gəlib Hindistana, oradan da Kəşmirə yetişdi. Tacir üzünü İmrana tutub:

— İstədiyin ölkəyə gəlib çatdıq, oğlum. Bunnan belə axtardığın təbibi soraqlaşıb asanlıqla tapa bilərsən, — dedi, sonra da zəhmət haqqı olaraq İmrana puldan, paltardan verib halallıqla yola saldı.

İmran karvandan ayrılıb soraqlaşa-soraqlaşa Nəqərdə şəhərinə gəlib çıxdı. Təbib Şərif xanın evini xəbər aldı. Nişan verdilər. Yaxınlaşıb qapısını döydü. Şərif xan açdı. İmran haradan və nə üçün gəldiyini bildirdi. Təbib İmranı mənzilinə dəvət etdi. Ona əyləşmək üçün yer göstərdi. Özü də əyləşib:

— Xoş gəlib, səfa gətirmisən, — dedi. — Ancaq mənim bir adətim var. Şagirdliyə yoxlamamış adamı götürmürəm. Mənə şagird olmaq istəyirsənsə, üç sualıma cavab verməlisən.

İmran dedi:

— Sorğu sizindir, ustad, buyurun, suallarınızı verin.

Şərif xan dedi:

— Birinci sualım budur ki, mənə deyəsən görüm, insan üçün hər şeydən xeyirli nədir?



İmran bir az fikirləşib dedi:

— Səhv etmirəmsə, insan üçün hər şeydən xeyirli hünərdir. İnsan, məncə, hünərsiz heç bir şeyə nail ola bilməz.

— Afərin! İkinci sualıma cavab ver. Dünyada hər şeydən yaxşı nədir?

— Məncə, yaxşılıq və bir də xeyirxahlıqdır. İnsanda yaxşı sifət olsa dost da, düşmən də ona afərin söylər.

— Bu da doğrudur, oğlum. Bəs, insana ən gərəkli, ən lazımlı olan şey nədir?

— İnsan üçün ən lazımlı, ən gərəkli olan şey həqiqətdir, ustad. həqiqət olmayan yerdə intizam da yoxdur. Çünki dünya daim həqiqətlə gərdiş edir.

Şərif xan ayağa qalxıb İmranın alnından öpdü:

— Bu gündən şagirdim oldun, — dedi.

İmran şagird olandan sonra Şərif xanın göstərişlərini yerinə yetirdi. Hər gün səhər tezdən durub Şəfa dağının ətəyinə getdi. Oradakı ot köklərini, gül, çiçək toxumunu toplayıb ayırdı. Təmizlədi. Qaynadıb süzdü. Onlara müxtəlif bitki yağları qatdı. Dava-dərman, məlhəm hazırladı. Təbibin rəhbərliyi altında gələn xəstələrin mərəzin yoxladı, onlara çarə etdi. Gecələr isə səhərə qədər tibb elminə aid kitablar oxuyub biliyini artırdı. Bu hal düz altı il çəkdi. İmran yaşı bir təbib oldu. Bir gün, Şərif xan İmrana dedi:

— Oğlum, İmran, sən bugünkü təbabətimizə məlum olan mərəzləri, onların müalicəsinə lazım olan davaçatları hazırlamağı yaxşı öyrənmisən. Görürəm ki, bu gündən belə sərbəst təbiblik edə bilərsən. Odur ki, bu gündən sənə təbib adını verirəm. Artıq sən sərbəstsən. Ürəyin necə istəsə elə də edə bilərsən. İstəsən, yanımda qala bilərsən. İstəməsən... İstək sənindir, oğlum, neçə xoşlayırsan elə də et.

İmran Şərif xana təşəkkür edib dedi:

— Doğrudur, ustadı tərk etmək ağırdı. Lakin nə etmək gərək. Elim-obam, atam-anam məni gözləyir.

Şərif xan dedi:

— Kədərlənmə, oğlum. Sənin yerində mən də olsaydım belə edərdim. Vətənimə qayıdardım. Axı oradakıların da təbibə ehtiyacı var.

Bir neçə gündən sonra İmran vətənə döndü. Təbib Şərif xan İmrana çoxlu dava-dərman, kitab, bir qədər də xərclik verib mehribanlıqla yola saldı. İmran tanış olduğu dost-aşna ilə vidalaşıb gəldiyi yolla da vətənə qayıtdı.

İmran vətənə gəlməkdə olsun, sizə kimdən xəbər verim, onun ata-anasından. İmran kənddən çıxandan üç il sonra atası öldü. Anasının da dörd divar arasında ağlamaqdan gözləri tutuldu.

İmran qırx gün, qırx gecə yol gəlib kəndlərinə yetişdi. Komalarının qapısında gözləri tutulmuş anası ilə görüşdü. Ana yeddi il görmədiyi oğlunu bağrına basıb oxşadı:

— Mənim əziz balam, gözümün işığı, şükür, sağ-salamat qayıtdın, diləyim yerinə yetdi. Komamız yenidən nurlandı.

İmran anasını sakitləşdirdi. Atasının ölümünə kədərləndi.

— Qəm yemə, anacan, —dedi. — Ağır günlərimiz arxada qaldı. Təbib olmuş oğlun tutulmuş gözlərini sağaldar. Hər şey üzümüzə gülər.

İmran qayıtdığı gündən təbiblik etməyə başladı. Kəşmirdən gətirdiyi çiçəklərdən, öz dağlarından topladığı otlardan məlhəm düzəldib anasının gözlərinə qoydu. Otuz doqquz günlük müalicədən sonra ananın gözləri açıldı. Hamı sevindi. Elin, obanın xəstələri İmranın yanına axışıb gəldi. İmran da onları müalicə edib firavan yaşadı.

## KƏNDLİ VƏ TÜLKÜ

Biri varmış, biri yoxmuş, meşə kənarında bir kənd varmış. Bu kəndin camaatı qoyun-quzu, toyuq-cücə saxlarmış. Kənd ətrafındakı meşədə doqquz canavar və bir də bir tülkü yaşarmış. Tülkü çox hiyləgər, canavarlar isə çox maymağmış. Bu doqquz canavar kəndə göz verib işıq verməzmiş. Hər gün kəndə girib qoyun-quzu aparармış. Hiyləgər tülkü isə kəndə günaşırı gələrmiş. Hər dəfə də bələdlədiyi hinə girib ya bir toyuq, ya da bir cücə tutub

yeyərmiş. Bu hin sahibi tülkünün əlindən cana gəlibmiş. Onu tutmağa çalışırmış. Amma tutammazmış.

Günaşırı toyuq-cücəsi yeyilən kəndli, bir gün öz-özünə deyir: «Necə olursa olsun, gərək o haramzadanı tutam!»

Bir dəfə kəndli gecə səhərə qədər yatmır. Hinin yanında pusquda dayanıb tülkünü güdməyə başlayır. Səhərə yaxın tülkü gəlir. Həmişə keçdiyi yerdən hinə girir. Kəndli gizləndiyi yerdən çıxıb özünü hinə yetirir. Tülkünün içəri girdiyi yeri qapayır. Özü də əlində ağac qapıdan hinə girir. Dəyənəklə tülkünü o ki var döyməyə başlayır. Dəyənəyin altında öləcəyini görən tülkü dil açıb deyir:

— Kəndli baba, məni döyüb öldürmə. Sənə nə istəsən verərəm.

Kəndlinin tülküyə yazığı gəlib əl saxlayır. Tülkünü vurmur. Ancaq qəfəsə salıb ağzını möhkəm bağlayır. Sonra da çıxıb evinə gedir.

Səhər kəndli tülkünün yanına gəlir. Tülkü deyir:

— Kəndli baba, sən yaxşılıq elədin məni döyüb öldürmədin. Gəl bir yaxşılıq da elə. Məni acından öldürmə. Burax gedim meşəyə, həm özümə bir şey tapım yeyim, həm də sənə xeyir verim.

Kəndli gülüb deyir:

— Ay şələquyruq, sən mənə nə xeyir verəcəksən?

Tülkü deyir:

— Verrəm, görərsən. Ancaq məni aç, burax. Acından ölürəm.

Kəndli görür ki, tülkü əl çəkməyəcək, odur ki, deyir:

— Buraxaram, ancaq iki şərtlə.

Tülkü deyir:

— O nə şərtdir, kəndli baba?

— Şərtimin biri budur ki, buraxılandan sonra bir daha buralara gəlməyəcəksən. Əgər gəlsən, səni bu dəfə öldürəcəyəm. Xəzindən də özümə yaxşı papaq tikəcəyəm. İkinci şərtim də budur ki, meşədəki o doqquz canavarı gərək tutub mənə verəsən. Şərtlərimə razısanmı?

Tülkü deyir:

— Birinci şərtinə əməl edərəm. Buraxandan sonra buralara bir daha ayağımı basmaram. İkinci şərtinə əməl edə bilmərəm. Canavarlardan qorxuram. Onlar məni diri-diri parçalayıb yeyərlər. Dərimə də saman təpərlər.

Kəndli deyir:

— Mən sözümü dedim. Gerisini özün bilərsən.

Tülkü çarəsiz qalıb deyir:

— Yaxşı, kəndli baba, qoy sən deyən olsun. Təki məni qəfəsdən burax.

Kəndli tülkünün hiyləgər olduğunu bilirdi. Odur ki, aldanacağından ehtiyat edib buraxmaq istəmirdi. Tülkü də bunu duyurdu. Odur ki, kəndliyə deyir:

— Heç kim mənə inanmır. Görürəm sən də mənə inanmaq istəmirsən. Ancaq doğru sözümdür. Şərtimə əməl edəcəyəm. Məni burax. Aldatsam, tutub öldürərsən.

Kəndli «lənət kor şeytana» deyib tülkünü buraxır. Qaçan tülkünün arxasınca:

— Çalış əlimə daha düşməyəsən. İşdi, düşsən, onda özünü ölmüş bil. Eşidirsənmi!? Ölmüş bil!..

Tülkü buraxılan kimi daban alıb birbaş meşəyə qaçır. Həmin gün turacdan, qırqovuldan ovlayıb qarnını doyurur. Yuvasına girib yatır. Səhər ayılan kimi dünənki hadisə yadına düşür. Öz-özünə deyir: «Kəndlinin şərtlərinə əməl etməsəm, işim yaman pis olacaqdır. Onda gərək bu həndəvərdə dolanmayam. Bu da ki olan iş deyil. Tülkü bir qədər düşündükdən sonra: «Eh, fikirləşməyə dəyməz, nə olacaq olsun. Yaxşısı budur durum çıxım meşəyə, görüm əlimə nə keçirirəm»,— deyir.

Tülkü meşəni gəzməyə başlayır. Bu kolun, o ağacın altına soxulur. Beləcə qaranlıq düşənə kimi vurnuxur. Ancaq əlinə heç nə düşmür. Birdən gözləmədən doqquz canavarla qarşılaşır.

Canavarlar bərk acmışdılar. Yeməyə şey axtarırdılar. Tülkü əti o qədər də xoşlarına gəlmirdi. Ancaq ac olduqlarından onu da yeməyə hazır idilər. Odur

ki, tülkünü dövrəyə alırlar. Üzərinə atılıb parçalamaq istəyirlər ki, tülkü dillənir:

– Qardaşlar, görürəm yaman acmısınız. Tələsməyin. Bir anlığa dayanın. Gəlmişəm sizi dadlı, ləzzətli ceyran ətinə qonaq etməyə aparam.

Canavarlar dayanırlar. Başçıları deyir:

– Ceyran əti?! O hardadır? Tez ol de!

Tülkü deyir:

– Səbriniz olsun, qardaşlar! Sözümə qulaq assanız, ceyran ətindən doyunca yeyəcəksiniz. Hələ artıq da qalacaqdır.

Ceyran adı eşidən canavarlar o saat ağızlarını marçıldatmağa başlayırlar:

– Tez ol, bizi apar ceyran əti yeyək, —deyirlər.

Tülkü görür ki, canavarlar onun sözünə inandılar, deyir:

– Onda ardımca gəlin! —deyib tülkü qabağa düşür. Canavarları da ardına salır. Tülkü kəndin kənarındakı çaya sarı yollanır. Yolda tülkü canavarlara deyir:

– Siz yaxşı bilirsiniz ki, ov asanlıqla əldə edilmir. Ancaq məsləhətə qulaq asanlar, cəsurlar ova nail ola bilirlər. Mən sizin ata-babalarınıza həmişə xeyirxahlıq eləmişəm. Müdrik məsləhətlərimə onları dəfələrlə aclıqdan qurtarmışam. İndi kömək əlimi sizə uzadıram. Mənim necə xeyirxah olduğumu indicə özünüz görəcəksiniz.

– Doğrudur, doğrudur, — deyə canavarlar bir ağızdan cavab verirlər.

Tülkü deyir:

– Səbirsizlik etsəniz, əziz qardaşlar, heç nəyə nail ola bilməyəcəksiniz. Yağlı, dadlı və ləzzətli ceyran ətinə sahib olmaq üçün şaxtalı gün olsa belə, gecədən səhərə kimi quyruqlarınızı suya qoymalı olacaqsınız. Mənim əzizlərim, doğrudur su indi çox soyuqdur. Ancaq buna bir dəfə dözmək mümkündür. Sübh tezdən ceyranlar çaya su içməyə gələcəklər. Siz də quyuruqlarınızı suya batırdığınız yerdən qalxıb dərhal onların üzərinə atılacaqsınız, parça-parça edib ləzzətlə yeyəcəksiniz.

Beləliklə, onlar çay kənarına gəlib çatırlar .Tülkü növbə ilə canavarların quyruqlarını suya sallatdırıb oturdur. Özü isə çay yuxarı qalxaraq:

— Mən də burada gizlənəcəyəm ceyranlar gələndə sizə işarə edəcəyəm, —deyir.

Tülkü gizlənmək bəhanəsi ilə çıxıb gedir. Canavarlar səhərə kimi çay kənarında hərəkətsiz qalırlar. Quyruqları suda donur. Səhər kənd itləri canavarlardan xəbər tuturlar. Hürüşərək çaya doğru qaçırlar. Əlinə dəyənək, yaba, bel nə bilim daha nə götürmüş kəndlilər də itlərin ardınca özlərini çaya yetirirlər. Tələyə düşmüş canavarları o ki var döyürlər. Axırda öldürüb dərilərini soyurlar. Tülkünü tutub buraxan kəndli:

— Ay şələquyruq haramzada, bunlar yəqin sənin gələyindir, deyib dodaqaltı gülümsəyir.

## DÖVLƏTLİ İLƏ KASIB

Biri var idi, biri yox idi, bir kasıb, bir də bir dövlətli var idi. Kasıb ağıllı, dövlətli isə səfeh idi. Günlərin bir günü ağılsız dövlətli ağıllı kasıbla mübahisə etdi. Dövlətli dedi:

— Varı olan bütün bəlalardan canını qurtarar.

— Ağlın olmasa, dövlətlə heç nə edə bilməzsən, —deyə kasıb cavab verdi.

— Düz demirsən. Qızıl adamı hər cür bəladan qurtarar.

Kasıb bununla razılaşmadı:

— Ağıl olmayan yerdə qızılın də dəyəri yoxdur. Ağıl isə qızılsız da insana kömək edər.

— Yalandır! —deyə dövlətli qəzəbləndi. —Bu ola bilməz. Mərc gəlirəm. Əgər sənin ağlın mənim dövlətimdən güclü çıxarsa, sənə min qızıl verərəm. Yox, əgər mənim qızılım sənin ağlından qüdrətli olarsa, onda həmişəlik mənim nökərim olacaqsan. Razısanmı?

— Razıyam, — deyə kasıb cavab verdi.

— Elə isə şahımızın yanına gedək.

Onlar şahlarının yanına gəlib, mübahisələrini ona söylədilər. Hökmdarlarının nə deyəcəyini gözlədilər. Şah da dövlətli kimi səfeh idi. O, ağzı möhürlü bir məktub verib dedi:

— Aparın bu məktubu qonşu şaha verin. Elə ki qayıtdınız, hansınızın haqlı olduğunu deyərəm.

Dövlətli məktubu alıb kasıbla bərabər qonşu şahın hüzuruna gəldilər. Məktubu şaha verdilər. Şah məktubu açaraq uçadan oxudu:

— Qardaşım, mənə yaxşılıq etmək istəyirsənsə, bu adamları öldür.

Dövlətli məktubda yazılanları eşidib şahın ayağına düşdü:

— Mənə rəhm elə, hökmdar! Qızıllarımı al, ancaq öldürtmə.

Şah gülümsəyərək dedi:

— Mənim öz qızılım özümə çatar. Ey, keşikçilər! Bunların keşiyini çəkin! Bir saatdan sonra cəllad bu avaraların başını vuracaqdır.

Keşikçilər dövlətli ilə kasıbı araya aldılar. Bir saat keçmədi ki, cəllad, onun ardınca şah və əyanlar gəldilər. Cəllad qılınca əl aparanda kasıb ucadan gülməyə başladı.

Şah kasıbdan soruşdu:

— Niyə gülürsən? Məgər bilmirsən ki, bir dəqiqədən sonra öləcəksən?

— Mənə qulaq as, şah! Beş gün bundan qabaq bizim şahın sarayına bir müdrik adam gəldi. O bizi görüb şaha dedi; — Bu adamlardan yaxanı qurtar. Ancaq bir şeyi yadında saxla. Əgər sən onları öldürsən, ölkədə fəlakət baş verəcək. Elə et ki, bu işi başqa bir hökmdar görsün. O zaman bütün bədbəxtliklər onun başına gələr.

Şah bu sözləri eşidib qəzəbləndi:

— Deməli, sizin şah mənim dövlətimi dağıtmaq istəyir? Geri qayıdıb o hiyləgər şahınıza deyin ki, üç gündən sonra mənim döyüşçülərim onun çöllərini tapdaq altına qoyacaqlar. Özünü isə kotana qoşdurub yer şumlatdıracaqlar.

Kasıbla dövlətli şaha baş əyib geri dendülər. Yolda kasıb dedi:

— İndi gördünmü ağıl qızıldan güclüdür? Əgər mən olmasaydım, başsız qalmışdın.

Dövlətli cavab verdi:

— Hələ sən deyən deyil.

Onlar şahlarının yanına gəldilər. Kasıb dedi:

— Qonşu şah sənə müharibə elan etdi. Üç gündən sonra torpağını tapdaqlar altında qoyacaqlar.

Şah təşvişə düşüb soruşdu:

— Qonşu şah mənə nə üçün qəzəbləndi?

Dövlətli irəli çıxıb dedi:

Buna kasıb təqsirkardır. Bütün işləri o dolaşdırdı.

Şah taxtdan düşüb çığırdı:

— Cəllad! Bunların başını vur. Bunlar mənim torpağıma yad qoşunlarını qaldırmışlar.

Cəllad qılıncı göydə yellədəndə, kasıb qəhqəhə çəkməyə başladı. Cəllad əl saxladı. Şah təəccüblə kasıbdan soruşdu:

— Niyə gülürsən?

— Sənin məni öldürtmək istədiyinə gülürəm. Onu bilirsən ki, mən təkbaşına düşmən qoşunlarını geri qaytara bilərəm?

Şah dedi:

— Sənin sözünün doğruluğunu yoxlaram. Onu bil, əgər düşmənləri geri qaytarmasan, səni diri diri tonqalda yandıracağam.

Kasıb dedi: [1]

— Düşmən torpağımıza ayaq basa bilməz. Mənə bir at vernn.

— Ona bir at verin! — deyə şah əmr etdi.

Kasıb ata minib düşmən qoşunlarına tərəf çapdı. O, sərhəddə yadelli qoşunlarla rastlaşdı. Kasıb gəlib lap şahın qabağında dayanaraq dedi:

— Əvvəl məni öldür, sonra torpağımızın əkinlərini tapdatdır.

Qonşu şah kasıbı tanıdı. «Əgər mən onu öldürsəm, ölkəmdə müdrik adamın söylədikləri bədbəxtliklər baş verər» düşündü. Odur ki, əl saxladı:

– Yox, qoy səni öz şahın öldürsün, —deyərək qoşunlarını geri döndərib getdi.

Kasıb geri qayıdıb şaha dedi:

– Mən öz sözümü yerinə yetirdim. Qoy indi dövlətli mərcinə əməl etsin.

Dövlətli min qızılı verməyə məcbur oldu. Kasıb bir kisə qızılı götürüb ayrılanda dedi:

– Yadında saxla ki, ağılsıza qızıl da kömək etməz. Ağıllı isə istədiyi vaxt dövlət qazana bilər.

## QORXAQ ƏHMƏD

Biri var idi, biri yox idi, ucqar dağ kəndlərinin birində Əhməd adında bir oğlan var idi. Başqa uşaqlar kimi Əhməd də hər gün ətə-cana dolub böyük oğlan olurdu. Amma o öz tay-tuşlarından bir xasiyyəti ilə seçilirdi. Bu da onun qorxaqlığı idi.

Əhməd ağaca çıxmazdı, qorxardı yıxılsın. Qarşısına çay çıxanda atlanmazdı. Deyərdi ki, suya düşərəm. Quş yuvasına əl atmazdı. Fikirləşərdi ki, birdən orada qurd-quş olar. Nə başınızı ağrıdım, evdə tək qalmağa belə cürət etməzdi. Ata-anası deyərdi: «Əhmədin qorxaq olmasına biz xəcalət çəkirik». Yoldaşları da onunla oynamaq istəmirdilər, qorxaqdır, deyirdilər. Qorxaqla da dostluq edərlərmi? Bax, beləcə günlər adlayırdı.

Bir gün Əhmədin atası hirslənib dedi:

— Buna daha dözmək olmaz! Rədd ol gözümün qabağından! Sənin kimi qorxaq oğul mənə gərək deyildir. Nə qədər ki cəsurlaşmamısan, bu evdə dolanmağa haqqın yoxdur. Gedərsən, nə vaxt ki əlin ox, kaman tutdu, igid oldun, ondan sonra qayıdarsan bu evə.

Atasının sözləri Əhmədi qıpqırmızı qızartdı. O utandığından baş götürüb evdən getdi.

Əhməd az getdi, çox getdi, hara getdi, deyəmmərəm. Ancaq axırda gəlib dərə dibindən gur axan bir çay kənarına çıxdı. Elə bu vaxt arxadan nərilti

eşitdi. Dönüb baxdı. Qorxudan dizləri əsdi. Gördü ki, yekə bir heyvan onun üzərinə sıçramağa hazırlaşır.

Əhməd bərkdən qışqırdı. Qorxudan suya atıldı. Ancaq bu dəfə ölüm ondan çox uzaq idi. Köpüklənə-köpüklənə axan su, Əhmədi qoynuna alıb sakit bir sahilə gətirib çıxartdı.

Əhməd çaydan çıxdı. İslanmış paltarlarını əynindən çıxarıb qurutdu. Geyinib yola düşmək istəyirdi ki, uzun saqqallı, qozbel bir qoca qarşısında peyda oldu.

— Xoş gördük, Əhməd, — deyə o, mülayim bir səslə dilləndi. —İndi nə etmək fikrindəsən? Qorxaqlığı özündən necə uzaqlaşdırmağa çalışacaqsan?

Əhmədi təəccüb bürüdü:

— Mənim adımı, mənim eybimi sən hardan bilirsən, babacan?...

Qoca ağ, uzun saqqalına tumar çəkib dedi:

— Məni min illər imtahana çəkmişdi. Belimi min illər bükmüşdü. Qara saçlarımı, saqqalımı min illər ağartmışdı. Mən bilməsəm, kim biləcək?

Əgər belədirsə, babacan, onda məsləhət elə görüm, mən nə edim? —deyə Əhməd dilləndi.

Qoca gülümsəynb dedp:

— Oğlum, Əhməd, səndəki qorxu beş şeydəndir. Gərək bu beş qorxudan keçəsən. Doğrudur, bu iş bir o qədər asan deyildir. Ancaq qorxma, mən kömək edərəm. İndi, götür bu kamanı, bu oxları, bir də igidlərdən qalmış bu qılıncı.

— Bunları mən neyniyim, babacan? Axı, heç birindən istifadə etməyi bacarmıram, — deyə Əhməd yenə dilləndi.

— Eybi yoxdur, —deyə qoca cavab verdi.— Öyrənərsən. Axı, bundan belə həyatda ata-anadan ayrı yaşamalı olacaqsan.

Qoca bu sözləri deyib gəldiyi kimi də yoxa çıxdı. Əhməd min ilin qocasının dediyi bu sözləri beynində götür-qoy etdi. Onun verdiyi qılıncı, kamanı, oxları götürüb yola düzəldi.

Az getdi, çox getdi, deyəmmərəm. Ancaq axırda gəlib bir mağaraya yetişdi. Gördü ki, irəliyə yol yoxdur. Dayandı. Fikirləşdi: «Mağaraya girim, ya girmiyim?» Qorxdu. İstədi geri qayıtsın, elə bu vaxt bayaqkı qocanın səsinn eşitdi:

– Bundan sonra ata-anadan ayrı, müstəqil yaşamalı olacaqsan.

Qocanın sənini eşidən kimi qorxu Əhmədin canından çıxdı. Cəsarətlənib mağaraya girdi. Birdən böyük bir daş gurultu ilə mağaranın ağzına tıxandı. Əhməd geri tullandı. İstədi mağaranın ağzına qapınan daşı geri itələsin, eşiyə çıxsın, gördü yöndəmsiz uzun əllər ona tərəf uzanır.

Əhməd tez qılıncı əlinə alıb başladı bu yöndəmsiz əlləri sağdan-soldan budamağa. Ta o vaxtacan budadı ki, hər tərəf oldu tey qan. Bu qan çoxalıb döndü oldu güclü sel. Mağaranın ağzındakı daşı qoparıb apardı.

Əhməd azadlığa çıxan kimi baş götürüb qaçdı. Hara qaçdı, necə qaçdı özü də bilmədi. O qədər qaçdı ki, axırda taqətdən düşdü. Sərildi üzüqoylu torpağa. Elə bu vaxt qəfildən Əhmədin sərildiyi torpaqdan qorxunc qara tüstü burumu havaya qalxmağa başladı. Bu burum get-gedə çoxalıb hər tərəfi bürüdü: Tezliklə oldu qara örtük. Qara örtükdən əcaib bir heyvan çıxıb Əhmədə sarı sürünməyə başladı.

Bu möcüzə Əhmədi lap qorxutdu. Az qaldı ki, ürəyi getsin. Ancaq qocanın səsi ona toxtaqlıq verdi:

– Axı sən həyatda müstəqil yaşamalısan.

Əhməd tez ayağa qalxdı. Qılıncını əlinə alıb bu əcaib varlıqla vuruşmağa başladı. Bu döyüşdə qılınc kara gəlmədi. Əhməd cəld qılıncı bir tərəfə atıb kamanı götürdü. Əcaib heyvanı nişan alıb dalbadal bir neçə oxla yaraladı. Tezliklə heyvan çoxlu qan itirib öldü.

Əhməd qələbəsinə sevindi. Bu qorxunu da dəf edib dərindən nəfəs aldı.

Əhməd bir qədər dincəlib bir dağ döşünə qalxdı. Oradan ətrafı seyr edib çığırla aşağı enmək istəyirdi ki, birdən ayağının altından bir daş parçası qaçdı. Əhməd yıxıldı. Dərəyə yumbalanmağa başladı. Ancaq xoşbəxtlikdən, qarşıdakı böyük itburnu koluna ilişib qaldı.

Çoxmu huşsuz qaldı, azmı huşsuz qaldı deyəmmərəm. Ancaq axırda özünə gəldi. Gözünü açdı. Aşağını uçurum gördü.

Necə etsin? Buradan necə xilas olsun? Bilmədi.. Elə bu vaxt qocanın həlim səsi yenidən onun köməyinə yetdi:

— Əhməd oğlum, qorxma, «özünü ələ al, axı sən...

Bu səsi eşidən kimi elə bil Əhməd yuxudaydı, ayıldı. Tez itburunu koluna söykənib özünü dirçəltdi. Bu dəfə uçuruma yox, yan-yörəsinə baxdı. Gördü ki, sol tərəfdən dərənin düz dibinə gedən bir cığır var. Təhlükəli olsa da bura ilə dərənin dibinə enmək olar. Özünə toxtaqlıq verib ayağa qalxdı. Qılıncın, oxların köməyi ilə ehtiyatla yavaş-yavaş dərənin dibinə enməyə başladı.

Uzun əzab-əziyyətdən sonra birtəhər dərənin dibinə gəlib çatdı. Köksünü dərindən buraxıb başını yuxarı qaldırdı. Endiyi cığıra tamaşa elədi. Buradan sağ-salamat necə endiyinə özü də heyran qaldı.Dərənin dibində, şırhaşır axan dağ çayının kənarında bir qaya tapdı. Sol qolunu başının altına qoyub hamar sal üzərində uzanıb yatdı.

Əhməd yenicə yuxuya getmişdi ki, bir fışıltı eşitdi. Yuxudan dik atıldı. Gördü ki, nəhəng bir ilan cəhəngini açıb, az qalır onu udsun.

— İşim bitdi, —deyə Əhməd əlini həyatdan üzdü. Ancaq elə bu anda pirani qocanın dediyi sözlər qulaqlarında yenidən səsləndi. Əhməd dərhal özünü yığışdırdı. İki əli ilə ilanın boğazından yapışıb var gücü ilə sıxdı. İlan Əhmədin əlində o tərəf-bu tərəfə çox buruldu. Ancaq heç nə edə bilmədi. Haldan düşdü, axırda boğulub yerə sərildi.

Əhməd də taqətdən düşdü. Halsız vəziyyətdə səhərəcən orada uzanıb qaldı. Səhər tezdən Əhməd yuxudan oyandı. Bir çala tapıb boğduğu ilanı ora saldı. Sonra fikrə getdi. Ata-anası yadına düşdü:

— İndi onlar yəqin məni axtarırlar, — deyə öz-özünə düşündü. — Yaxşısı budur evə qayıdım.

Amma birdən yadına düşdü ki, pirani qocanın ona dediyi qorxudan biri qalmışdır. Bəs qalmış o bir qorxunu özümdən necə qovum?

Əhməd belə düşünərkən qocanın mehriban səsini eşitdi:

— Evinizə qayıt, tələsmə, beşinci görüşümüz də olacaqdır.

Qocanın bu sözləri Əhmədin ürəyindən xəbər verdi. Axı, ata-anasını görməyə çox tələsirdi.

Əhməd sevincək evlərinə tərəf yollandı. Gəldiyi yolla geri qayıtdı. Nəhayət, uzaqdan evlərinin damını gördü. Sevindi. Amma evlərinin qabağında deyəsən qarışıqlıq var idi.

— Bu nədir? — deyə Əhməd düşündü. — Görəsən, orada nə olmuşdur?

Əhməd bir qədər yaxına gəldi. Gördü yekə bir əjdahadır, camaatı qatıb qabağına qana qəltan eləyib. Tez qılıncını siyirib hücum elədi əjdahanın üstünə. Vuruş başladı. Onlar az vuruşdular, çox vuruşdular deyəmmərəm. Ancaq bunu bildim ki, əjdahanın salamat yeri qalmamışdı. Əhməd onu doğram-doğram etmişdi. Ətini də qurd-quşa atmışdı.

Amma bu vuruşda Əhməd də ağır yaralanmışdı.

Əhməd gördü yaralı sinəsi birdən paralandı. Oradan qara bir ilan çıxıb qaçmağa başladı. Bu vaxt qocanın səsi eşidildi:

— Əhməd, oğlum, qoyma o ilanı qaçsın. Bu sənin beşinci qorxundur ki, ilan cildinə giribdir. Tez ol onu öldür!

Əhməd cəld bir zərbə ilə beşinçi qorxunu da cəhənnəmə vasil elədi.

Kənd əhli Əhmədin başına toplaşdı. Ata-anası onu bağrına basıb duz kimi yaladı.

Əhmədin yoldaşları həmin gün şadlıq etdi. Qorxunu özündən dəf edib igid bir qəhrəman olduğuna görə ona əhsən dedi.

## FEYRUZ

Biri var idi, biri yox idi, bir qarı var idi. Oiun da Feyruz adında bir nəvəsi var idi.

Feyruz çox zirək, ağıllı bir oğlan idi.

Feyruzgilin bağçalarında bir bülbül var idi. İstəyirdi onu cələ ilə tuta, aparıb padşaha verə, əvəzində padşahdan bəxşişdən-zaddan ala. Bəlkə bir neçə gün dolanalar.

Günlərin bir günü Feyruz cələ qurdu. Bülbülü tutdu. Aparıb verdi padşaha. Ancaq padşah əvəzində ona heç nə vermədi. Hələ bir özünü də saraydan qovdu.

Feyruz özünü sındırmadı. Saraydan çıxan kimi zümzümə edərək daxmalarına döndü.

Padşah bülbülü Feyruzdan alıb köhnə bir qəfəsə saldı.

Bülbül susdu. Oxumadı. Bu vaxt vəzir gəldi:

– Qibleyi-aləm, bu bülbül köhnə qəfəsdə oxumaz. Ona xüsusi qəfəs gərəkdir.

Padşah dedi:

– Vəzir, o qəfəsi kim mənə gətirsin?

Vəzir dedi:

– Padşah saq olsun, necə kim gətirsin? Bülbülü kim gətirib qəfəsi də qoy o gətirsin?

Padşah dedi:

– Doğru buyurursan vəzir, onda bu bülbülü mənə verən oğlanı tapıb gətirin hüzuruma.

Feyruzu tapıb gətirdilər padşahın hüzuruna.

– Padşah saq olsun, mənə görə qulluq.

Padşah dedi:

– Feyruz, bala, bu bülbülün qəfəsini də gərək tapıb gətirəsən.

Feyruz dedi:

– Padşah sağ olsun, mən o qəfəsi hardan tapım?

Padşah dedi:

– Onu mən bilmərəm, sən bilərsən. Hardan tapırsan tap.

Feyruz həmişə doqqaz qabağındakı qarışqalara çörək ovardı. Bir gün də ovanda qarışqaların padşahı öz qanadından bir neçəsini Feyruza verib dedi:

– Feyruz, oğlum, apar bu qanadları ver nənənə. Nə vaxt işiniz çətinə düşsə, nənən bunlardan birini yandırsın, rəml atsın. Onda hər şey aydın olar.

Feyruz da qanadları gətirib vermişdi nənəsinə.

Feyruzun nənəsi qarışqa qanadlarından birini yandırdı, sonra da rəml atıb dedi:

– Qəm yemə, oğlum. Rəml yaxşı gəldi. Qəfəsi tapıb gətirəcəksən. Ancaq bir iş var. Gərək gedib padşahdan uzun bir ipək kəmənd alıb gətirəsən.

Feyruz gedib padşahdan bir ipək kəndir aldı. Feyruzun nənəsi ona dedi:

– Göytəpə dağının dalında bir qalaça var. Gedərsən ora, həmin bülbülün qəfəsi oradadır. Bu ipək kəməndi bağlarsan qalaçanın başına. Kəmənddən tuta-tuta qalxıb düşərsən qalaçanın içinə. Orada divə oxşayan bir daş var. Nə badə, nə badə, o daşa baxasan. Baxsan, özün də dönüb olacaqsan daş. Götürərsən qəfəsi çıxarsan çölə.

Feyruz gedib çatdı nənəsi deyən qalaçaya. Nənə necə öyrətmişdirsə, nəvə də elə etdi. İpək kəməndlə qalaçaya girdi. Qəfəsi gətirib verdi nənəsinə.

Nənəsi dedi:

– Apar ver padşaha.

Padşah Feyruza yenə də heç bir şey vermədi. Feyruz gedəndən sonra padşah sevinçək bülbülü çıxarıb qoydu qəfəsə. Bülbül başladı cəh-çəhlə ötməyə. Vəzir bülbülün cəh-cəhini eşidən kimi gəldi:

– Qibleyi-aləm, sənin bu qəfəsin çox mübarək! Mən demədimmi bülbülü gətirən qəfəsini də tapıb gətirər. — Sonra vəzir dedi: — Qibleyi-aləm sağ olsun, bu qəfəsin bir şeyi çatmır.

Padşah dedi:

O nə şeydir, vəzir?

Vəzir dedi:

– Qibleyi-aləm sağ olsun, fil sümüyündən qayrılmış miz. Belə bir qəfəs ancaq fil sümüyündön düzəldilmiş mizin üstünə gərək qoyula. Onda olar əla.

Padşah dedi:

– Vəzir, dediyin o mizi kim tapıb gətirər?



Vəzir dedi:

— Qibleyi-aləm sağ olsun, kim tapacaq, Feyruz. Buyur, gedib tapıb gətirsin.

Padşah dedi:

— Doğru ərz eləyirsən, vəzir. Qoy Feyruz gedib mizi tapıb gətirsin.

Padşahın adamları Feyruzu tutub gətirdilər saraya. Padşah dedi:

— Feyruz, bala, gərək bu qəfəsi üstünə qoymaq üçün mənə fil sümüyündən qayrılmış bir miz tapıb gətirəsən.

Feyruz dedi:

— Padşah sağ olsun, mən o mizi hardan tapıb gətirim?

Padşah dedi:

— Onu mən bilmərəm, özün bilərsən.

Padşahın əmrindən əlacsız qalan Feyruz hirsli halda nənəsinin yanına gəldi. Nənə Feyruzu sakitləşdirdi, dedi:

— Səbirli ol, mənnm balam, hər şey yaxşı olacaq.

Qarı qarışqa qanadını yandırıb rəml atdı. Rəml yaxşı gəldi.

— Feyruz, bala, gətirəcəksən. Mütləq gətirəcəksən. Rəml belə göstərir, — dedi. — İndi get padşahın hüzuruna. Vəzirdən bir kisə qızıl pul istə. Bunları padşaha öyrədən odur.

Feyruz saraya qayıtdı. Nənəsinin öyrətdiyi kimi vəzirdən bir kisə qızıl istədi. Padşah əmr elədi, vəzir ona bir kisə qızıl verdi. Qayıdıb nənəsinin yanına gəldi. Nənəsi Feyruza dedi:

— İndi bu qızılları götürüb fillər yaşayan məmləkətə—Hindistana gedərsən. Fillərin Hindistanda qəbiristanlığı var. Ölüm vaxtı gələndə onlar öz qəbiristanlığına gəlib orada ölürlər. Ətlərini qurd-quş yeyir. Sümükləri tökülüb qalır. İstədiyin qədər o sümüklərdən götürərsən. Sonra elə həmin məmləkətdə fil sümüyündən cürbəcür şeylər düzəldən çoxlu ustalar var. Gedərsən onlardan birinin yanına. Puldan-qızıldan verərsən, xahiş edərsən, bu sümüklərdən miz düzəldib verər sənə, götürüb gələrsən.

Feyruz nənəsi deyən kimi elədi. Fil sümüyündən miz qayırtdırdı, gətirib verdi padşaha.

Vəzir dedi:

— Qibleyi-aləm sağ olsun, axı bu mizin də bir şeyi çatmır.

Padşah acıgözlüklə xəbər aldı:

— O nə şeydir, vəzir?

Vəzir dedi:

— Qibleyi-aləm sağ olsun, gərək bu mizin zərdəgəlin örtüyü də olsun. Bunsuz bu mizin bir qəpiklik dəyəri yoxdur.

Padşah dedi:

Vəzir bəs necə olsun, zərdəgəlin örtüyünü hardan alaq?

Vəzir dedi:

— Qibleyi-aləm sağ olsun, biz niyə alırıq? Onu Feyruz oğlan tapıb gətirər.

Padşah razı oldu. Feyruzu çağırtdırıb zərdəgəlin örtüyü dalınca göndərdi:

Feyruz bu sözləri eşidib lap hirsləndi. Ancaq hirsini tez boğdu. Evə döndü.

— Ay nənə, —dedi, —padşah məni indi də zərdəgəlin örtüyü ardınca göndərdi. Heç bilmirəm zərdəgəlii örtüyü nə olan şeydir. Mən onu hardan tapım?

Nənəsn Feyruzu toxtatdı. Qarışqa qanadına rəml atıb dedi:

— Zərdəgəlin Hindistan dəryasında yaşayan nəhəng bir balıqdır. Onun dərisi gözəl, qiymətli süfrədir. Zərdəgəlin də bu süfrənin adıdır. Rəml yaxşı göstərir. Fikir eləmə, gətirəcəksən. İndi mənə qulaq as. Qayıt padşahın hüzuruna. Səni bu işin dalınca göndərən həmin o vəzirdən iki kisə qızıl istə. Al, gəl. Sonrasıynan işin olmasın.

Feyruz gəlib padşahın hüzurunda dayandı, dedi:

— Padşah sağ olsun, bu işi görməkdən ötrü mənə iki kisə qızıl lazımdır. Onu da ancaq gərək vəzir verə. Yoxsa bu iş düzəlməz.

Vəzir nə qədər nəm-nüm elədi, olmadı. Padşah dedi:

— Elə şey yoxdur, iki kisə qızılı gətirib verməlisən Feyruza.

Vəzirin əlacı kəsildi. İki kisə qızılı, deyinə-deyinə gətirib verdi Feyruza. Feyruz iki kisə qızılı alıb gəldi nənəsinin yanına. Nənəsi Feyruza dedi:

— Bu qızılları götürüb gedərsən dediyim Hindistan məmləkətinə. Orada bir dərya var, adına hind dəryası deyirlər. Zərdəgəlin balığı da həmin bu dəryada yaşayır. Hind bazarından yüz arşın ipək tor alıb, bir neçə adam da köməkçi tutub gedərsən həmin dəryanın kənarına. Tor atıb üç gün gözlərsən. Dördüncü günü zərdəgəlin balığı səhər tezdən sahilə yaxınlaşacaq. İpək toru görməyib düşəcək ona. Tutarsan. Köməkçilərə dərisini soydurarsan. Sonra onu isti qumun üstünə sərdirib qırx gün qurutdurarsan. Bazardan bir dəvə alıb yüklədərsən ona. Götürüb gələrsən.

Feyruz nənəsinin dediklərinə əməl elədi. Zərdəgəlini tutdu. Dərisini soydu. İsti qum üstündə qırx gün qurutdurdu. Dəvəyə yüklətdirib gətirib verdi padşaha. Padşah zərdəgəlin örtüyünü alan kimi sərdi mizin üstünə. O saat süfrənin şöləsi yayıldı otağa.

Vəzir Feyruzun gəldiyindən xəbər tutan kimi paxıllığından bilmədi ki, neyləsin. Dərhal özünü saldı padşahın hüzuruna:

— Qibleyi-aləm, çox mübarək! Sağlığına qismət olsun! Demədimmi Feyruz çox igid oğlandı? Harda olsa zərdəgəlin süfrəsini tapıb gətirəcək.

— Elədir, vəzir, —deyə padşah cavab verdi. —Feyruz sözəbaxan oğlandır. Ondan nə istəyirəmsə o saat harda olsa tapıb gətirir.

Vəzir gördü ki, padşahın Fsyruzdan xoşu gəlir. Dərhal onun başını əkmək barədə düşündü, dedi:

— Qibleyi-aləm sağ olsun, bunlar hamısı yaxşıdır. Ancaq yenə də bu bülbülün bir şeyi çatmır.

Padşah soruşdu:

— O nə şeydir?

Vəzir dedi:

— Qibleyi-aləm sağ olsun, bu bülbülün Nərmixatun adda başqa tayı da var. O da bu qəfəsdə olsa, olar lap əladan da əla.. Bülbüllər səs-səsə verib fəğan edərlər. Biz də həzz alıb feyziyab olarıq.

Padşah bir qədər fikrə getdi, sonra dedi:

– Doğru sözdür, vəzir. Bu lap olar əla. Yaxşı, dediyin o Nərmixatun bülbülünü kim tapıb gətirsin?

Vəzir dedi:

– Qibleyi-aləm sağ olsun, kim tapıb gətirəcək, Feyruz!

Padşah əmr elədi, Feyruzu tapıb gətirdilər. Padşah dedi:

– Feyruz, bala, vəzir deyir ki, bu bülbülün Çin məmləkətində Nərmixatun adda bir tayı var. Gərək sən o məmləkətə gedəsən, həmin bülbülü tutub mənə gətirəsən.

Hirs Feyruzun başına vurdu. Ancaq tez özünü ələ aldı. Durub nənəsinin yanına gəldi. Əhvalatı ona danışdı. Nənə qarışqanın qanadına rəml atdı. Gördü ki, rəml bəd gəldi. Dedi:

– Burda bir şər iş var. Vəzirin məqsədi səni gedər-gəlməzə göndərməkdir.

Feyruza dedi:

– Oğlum Feyruz, get padşahın yanına. Qoy vəzirdən bu dəfə üç kisə qızıl alıb versin sənə. Elə ki üç kisə qızılı alıb verdi, onda padşaha deyərsən: şah sağ olsun, şəhərimizin camaatı ilə görüşmək istəyirəm. Səfər qabağı onlara deyəsi bir neçə kəlmə sözüm var. Qoy biri gün car çəkdirib şəhər əhlini saray meydanına toplasın. Gerisi ilə işin olmasın.

Feyruz nənəsinin dediyi kimi elədi. Saraya döndü. Padşahın təkidi ilə vəzirdən zorla üç kisə qızıl aldı. Ertəsi günü də car çəkdirib şəhər camaatını şəhər meydanına toplatdırdırdı.

Feyruz saray meydanının ortasında qoyulmuş kürsüyə qalxıb dedi:

– Ay camaat, nənəmin sizə deyəsi sözü var.

Padşah gördü ki, Feyruz onu aldadıb. Özü danışmaq əvəzinə nənəsinə söz verir. Əmr elədi. Feyruzun nənəsini danışmağa qoymasınlar. Ancaq camaat birağızdan:

– Qoyun danışsın, danışsın, —deyə tələb etdi. Odur ki, padşah əmrini geri götürdü.

Qarı irəli çıxıb dedi:

– Ay camaat! Bu padşahla vəzir ki var, onlar çox pis adamlardı. Bizim nəyimiz var, hamısını əlimizdən tutub alırlar. Əvəzində də heç nə vermirlər. Kasıbçılıq etməyə də qoymurlar. Balalarımızı gedər-gəlməzə göndərirlər. Bizi acından qırırlar.

Nənənin bu sözləri camaatı həyəcana gətirdi. Hamı bir ağızdan:

– Doğrudur! Doğrudur! — dedi.

Padşahla vəzirin canına qorxu düşdü. Saray əhlini təşviş bürüdü. Əyanlar, saray xidmətçiləri durub qaçmağa başladı. Qarı sözünə davam edib dedi:

– Mən bu saat bir tilsim oxuyacam. Padşahla vəzir dönüb olacaq həmişəlik daş.

Bu sözlər camaatın ürəyindən xəbər verdi. Hamı bir ağızdan: «Oxu! Oxu» —dedi.

Gözətçilər hücum çəkdilər ki, Feyruzla nənəsini tutsunlar. Ancaq camaat qoymadı.

Padşahla vəzir gördülər ki, iş şuluqdur. Durub qaçmaq istədilər. Qarının qəzəbli səsi onlari yerindən tərpənməyə qoymadı:

– Hara qaçırsınız, dayanın! Heç yerə qaça bilməyəcəksiniz!

Padşahla vəzir qorxularından donub yerlərində qaldılar. Qarı tilsimini oxudu. Padşahla vəzir dönüb oldular daş.

Hamı sevindi. Qırx gün, qırx gecə şadlıq elədi. Feyruzu özlərinə padşah seçdi. O gündən Feyruz da camaatı ədalətlə idarə elədi. Hamı ondan razı qaldı. Nağıl da burda bitdi.

## HEYVANLARIN İL ÜSTƏ YARIŞI

Bir gün Süleyman peyğəmbər bütün heyvanları, quşları sarayına çağırdı. İstədi ki, yadda qalsın deyə illəri onların adları ilə adlandırsın.

O zamanlar pişiklə siçan möhkəm dost idilər. Bacı kimi bir yerdə yaşayırdılar.

Onlar sevindilər. Süleyman peyğəmbərin sarayına dəvət olunmuşdular. Belə razılaşdılar ki, saraya bir yerdə getsinlər.

Pişik çox yatağan idi. Siçan da dostunun bu eybini bilirdi. Odur ki, pişik nəzakətlə siçana dedi:

– Siçan bacı, yatmağı necə sevdiyimi bilirsən. Səhər saraya getmək vaxtı gələndə xahiş edirəm məni də oyadasan.

Siçan əllərini döşünə qoydu:

– Narahat olma, rahat yat. Mən səni mütləq oyadaram! — deyib qaçdı.

Pişik:

– Çox sağ ol! —deyib bığlarını tumarlardı, quyruğunu böyrünə yığıb arxayınca xorhaxorla yatdı.

Səhər işıqlaşan təki siçan qalxdı. Pişiyi oyatmağı belə xəyalına gətirmədi. Yeməyini yeyib Süleyman peyğəmbərin sarayına yollandı.

İndi də sizə kimdən xəbər verim, gölməçədə yaşayan əjdahadan. Əjdaha da soraya dəvət olunmuşdu. Əjdaha öz-özünə: «Heç kimi seçməsələr də məni mütləq seçəcəklər. —dedi. —Duz də eləyəcəklər. Axı, mən döyüşkənəm. Bütün heyvanlar məndən qorxur. Ancaq bircə nöqsanım var. Hayıf başım lütdür. Onda heç nə bitmir. Buynuzum olsaydı, gözəllikdə bərabərim tapılmazdı».

Əjdaha başını gölməçədən çıxarıb bayıra baxdı. Sahildə bir xoruz gördü. Döşünü qabağa verib o tərəf-bu tərəfə gedirdi. O vaxtlar xoruzun iri buynuzları var idi.

Əjdaha sevindi. Sahilə üzdü. Xoruzu səslədi:

– Xoruz baba, ay xoruz baba! Buynuzunu bir günlüyə mənə borc ver də, nə olar? Sabah saraya gedəcəyəm.

– Bəs mən! —deyə xoruz dilləndi. —Bağışla məni. Sabah mən də saraya gedəcəyəm.

Əjdaha dedi:

– Xoruz baba, bu yekəlikdə buynuz sənə heç yaraşmır. Başın çox kiçikdir. Onları mənə ver. Başıma bax, gör nə oranın yeridir.

Elə bu vaxt bir qırxayaq yer çatdağından dartınıb çıxdı. Qırxayaqlar da ki özgənin işinə baş soxmağa hazırdılar.

Qırxayaq əjdahanın sözünü eşidib dedi:

— Xoruz baba, ay xoruz baba! Buynuzunu bir günlüyə əjdaha qardaşa ver də, nə olar? Ehtiyat edirsənsə, mən zamin durmağa hazıram. Hə, ver də.

Xoruz razılaşdı. Qırxayaq da ona zamin durdu. Onsuz da xoruz buynuzsuz da qəşəng görünürdü.

Ertəsi gün bütün heyvanlar, eləcə də quşlar Süleyman peyğəmbərin sarayına yığışdılar. Süleyman peyğəmbər onlara dedi:

— Bu gündən illəri sizin adınızla adlandıracayıq. Hansınızın adı ilə bunu özünüz deyin.

Heyvanlar öküzün, atın, qoyunun, itin, donuzun, dovşanın, pələngin, əjdahanın, meymunun, xoruzun bir də siçanın adlarını dedilər. O vaxt heyvanlar nəyə görə ördəyi yox, xoruzu, şiri yox, pələngi seçdilər, bunu heç kim bilmir.

Bəli, on iki heyvan seçilməyə seçildi. Ancaq indi onları necə sıralandırsınlar? İş bu yerə çatanda, mübahisə başlandı, nə başlandı. Süleyman peyğəmbər dedi:

— Sakit olun! İçərinizdə ən böyüyü öküzdür. Qoy o da birinci olsun!

Hamı, hətta pələng də razı oldu. Təkcə siçan əlini qaldırıb etirazını bildirdi.

— Məyər mən balacayam? Bəs onda niyə mənə həsəd aparırlar? Məni görəndə bir ağızdan: «O yaa! Necə də yekədir!» — deyib çığırışırlar. Amma öküz görəndə heç kim: «O yaa! Necə də böyük öküzdür!» —demir. Belə görünür ki, adamlar məni öküzdən böyük hesab edirlər!

Süleyman peyğəmbər təəccübləndi:

— Sən doğru deyirsən? Mən buna inana bilmirəm.

Burada meymunla at bir səslə dedilər:

— Siçan yalan deyir!

Ancaq siçan sözünün üstündə durdu:

— İnanmırsınız, gəlin yoxlayaq!

Xoruz, qoyun, it bir də dovşan razılaşdılar.

— Gəlin yoxlayaq, —deyə Süleyman peyğəmbər də razılığını bildirdi.

Heyvanlar insanların yanına gəldilər. Necə bilirsiniz, bu işin axırı necə oldu? Siçan dediyi kimi də oldu. Öküz camaatın qarşısından keçəndə, hamı bir ağızdan tərifləməyə başladı: «Oy, necə də qəşəngdir! Necə də kökdür!» Heç kim demədi: «Nə yaman zorbadı!»

Bu vaxt hiyləgər siçan öküzün belinə dırmandı. Dal pəncələri üstə qalxdı. Camaat bunu görüb: Ay aman, nə zorba siçandır!» deyib bağırışdı. Bunu da Süleyman pəyğəmbər öz gözləri ilə gördü, qulaqları ilə eşitdi. Qaşlarını çatıb dedi:

— Yaxşı, madam ki, camaat siçanı öküzdən böyük sayır, qoy öküz birinci yeri siçana versin. Özü isə ikincl olsun.

O vaxtdan il haqq-hesabı siçan ilindən başladı. Ardınca da öküz ili gəldi.

Siçan sevincək evə döndü. Axı o bütün heyvanlar içində birinci olmuşdu.

Pişik də elə bu vaxt gözlərini ova-ova yuxudan oyanmışdı. Siçanı görüb soruşdu:

— Niyə dinmirsən, siçan bacı? Məyər biz bu gün saraya getməli deyildik?

Siçan zümzümə edə-edə dilləndi:

— Sən hələ xəşəllənirsən? Mən çoxdan saraydan qayıtmışam. İl hesabı aparmaqdan ötrü on iki heyvan seçdilər. Mən birinci oldum!

Təəccübdən pişiyin gözləri bərəldi. Siçandan xəbər aldı:

— Bəs məni niyə oyatmadın?

— Tamam unutdum, —deyə siçan etinasızlıqla dilləni.

Pişik cinləndi. Bığları tərpənməyə başladı. Birdən bağırdı:

— Yaramazın biri yaramaz! Mən də sənə inandım! Arxayın yatdım! Bəs sən məni oyatmağa söz vermədin? Mən bilirəm, sən mənə zərbə vurmaq istəyirsən! Dayan, səninlə hesablaşaram!

Siçan özünü təqsirkar etmədi, dedi:

– Nə hay-küy salırsan! İstəməmişəm, oyatmamışam! Bu mənim öz işimdir. Bir də mən sənin nökərin-zadın deyiləm ki!

Pişik daha da qızışdı. Hirsindən ağır-ağır nəfəs almağa başladı. Dişlərini qıcıdı. Birdən siçanın üzərinə sıçrayıb boğazından tutdu. Siçan tək bircə dəfə ciyildədi. Dal pəncələri ilə özünə dayaq verib pişiyin ağzından özünü qurtarmağa çalışdı.

O vaxtdan pişiklə siçan bir-oirinin rəhmsiz düşməni oldu.

İndi də xoruzdan danışaq. Xoruz çox qəmgin evə döndü. Öz-özünə düşündü: «Süleyman peyğəmbər əjdahanı ona görə məndən irəli saldı ki, mənim buynuzum onun başında idi».

Xoruz qərara gəldi ki, əjdahadan buynuzunu geri alsın.

Xoruz durub əjdahanın yaşadığı gölməçənin kənarına gəldi. Baxdı ki, əjdaha suda böyük şövq ilə oynayır. Xoruz bu vaxt çox nəzakətlə əjdahaya dedi:

– Əjdaha qardaş, ay əjdaha qardaş! Xahiş edirəm, buynuzumu özümə qaytarasan!

Əjdaha gülümsədi. Sonra dedi:

– Sənsən, xoruz baba? Buynuz sənin nəyinə gərəkdir? Düzünü desəm, sən buynuzsuz daha qəşəngsən. Mən isə dazam. Sənin buynuzun mənim dazlığımı gizlədir. Gör necə də yerindədir!

Xoruz incimiş halda dedi:

– Yerindədir, ya da yerində deyil, bunun mənə dəxli yoxdur. Borc almısan, geri də qaytarmalısan!

Əjdaha daha bir söz demədi. Bir az fikirləşdi, sonra birdən baş əyib xoruza dedi:

– Sən məndən incimə, xoruz baba! Artıq gecdir. Mən istirahət etməliyəm. Bu barədə səninlə başqa vaxt danışarıq.

Xoruz ağzını açmağa macal tapmamış, əjdaha suyun altına cumdu. Xoruz pərt oldu. Qanadlarını bir-birinə vurub ucadan banladı:

– Əjdaha qardaş, ver mənim buynuzumu!

Xoruzun səsini əjdaha eşitmədi. O artıq gölməçənin dibində idi. Şirin yuxuya getmişdi.

Xoruz çox banladı. Ancaq bir nəticə hasil olmadı. Özü heydən düşdü.

Yazıq xoruz bəs neyləsin? Dərdini kimə desin? Qərara aldı ki, ona zamin olan qırxayağı axtarıb tapsın.

Qırxayağı xoruz bir daşlıqda tapdı. Əjdaha ilə aralarında olan söhbəti bircə-bircə danışdı. Axırda dedi:

— Mən heç nə bilmirəm, qırxayaq xanım. Əjdahaya sən zamin durmusan. İndi buyur gedək buynuzumu ondan al, ver özümə.

Qırxayaq boyun qaçırmaq istədi. Xoruz qoymadı:

— Elə şey yoxdur, bu işi yoluna qoymalısan, —dedi.

Qırxayaq başını yuxarı qaldırdı. Bnr qədər susandan sonra xoruza astadan dedi:

— Buynuzunu əjdaha qardaş qaytaracaq. Narahat olma. Qaytarmır da qoy qaytarmasın, nə olar! Bir özün götür-qoy elə! Mən onun dalınca gölməçənin dibinə necə gedim.

Xoruz pərtliyindən qıpqırmızı qızardı, dedi:

— Bəs sən necə zaminkarsan! Sənin ki hörmətin yox idi, onda başqasının işinə burnunu niyə soxurdun? Mən heç nə bilmirəm. Necə zamin olmusan, elə də alıb verməlisən1

Qırxayaq özünə bəraət qazandırmağa çalışdı:

— Xoruz baba, —dedi. —Mənə böhtan atma! Buynuzu əjdahaya mən yox, özün verdin. Mən isə elə belə ona zamin durdum. Kimin ağlına gələrdi ki, əjdahaya etibar etmək olmaz. Bunu qabaqcadan bilsəydim, heç ona zamin durmazdım.

— Bəs indi nə edək? —deyə xoruz hirsini soyutmağa çalışdı.

Qırxayaq etinasızlıqla dilləndi:

— Nə etmək lazım olduğunu mən dedim. Etiraf elə ki, səninki gətirməyib. Özün təqsirkarsan. Buynuzunu verməmişdən qabaq gərək yaxşı-yaxşı fikirləşəydin...

Xoruzu od götürdü. Qəzəbindən gözləri az qala yerindən çıxdı:

– Demək, mən təqsirkaram da?! Elədi... —deyib birdən qırxayağın üstünə hücum çəkdi. Bir anda onu dimdiyinə alıb uddu.

O vaxtdan da xoruzla qırxayaq düşmən oldu. Harda onu gördü, dərhal dimdiklədi. Səhərlər də duran kimi əjdahanı haraylamağa başladı:

– Quq-qulu-qu! Quq-qulu-qu! Əjdaha qardaş, buynuzumu ver!

## YARIŞ

Biri var idi, biri yox idi, bir padşah var idi. Bu padşah hər il öz məmləkətində çoxlu yarış keçirərdi. Saray əyanları, vəzir-vəkillər yarışa baxıb əylənərdilər.

Padşahın Yelli adında bir kəhər atı var idi. Hər dəfə yarışqabağı padşah iştirakçılara deyərdi:

– Hər kim bu yarışda qalib gəlsə, mən sevimli Yellimi ona verəcəyəm.

Ancaq padşah vəzirlə işi elə qururdu ki, nə qalib gələn olurdu, nə də Yellini mükafat alan. Məğlubları da ömürlük zindana salırdı.

Bir dəfə padşah dedi:

– İndi də yalan danışanların yarışını keçirirəm. Kim mənə bu günə qədər eşitmədiyim üç yalan danışsa, özü də elə bir yalan ki, içərisində bir dənə də olsun doğru söz tapılmasın, onu Yellimlə mükafatlandıracağam. Yox, danışdığı yalanın içərisində bir dənə doğru söz tapsam, onu edam etdirəcəyəm.

Bu padşahın vilayətində Qabil adında bir çoban yaşayırdı. Çox zirək oğlan idi. Başı daz olduğundan yoldaşları ona daz Qabil deyirdilər.

Hə, daz Qabil eşitdi ki, ölkənin padşahı yalan danışanların yarışını keçirir. Dedi:

– Gərək gedib bəxtimi sınayam. Bəlkə padşahın o gözəl, yel kimi qaçan kəhərini uddum. Mən də bir adam oldum.

Niyyətini yoldaşlarına bildirdi. Yoldaşları Qabilə dedilər:

— Ay axmaq, sən hara, yarış hara? Get çobanlığını elə. Bu yarışlardan heç kim qalib çıxa bilmir. Sən çıxacaqsan? Ağlını başına yığ, otur yerində. Yazıqsan, padşahın zavalına gələrsən.

Onlar çox dedi, Qabil az eşitdi. Axırda dedi:

— Onu-bunu bilmirəm! Gedəcəyəm, vəssalam!

Qabil sürünü buraxdı. Çomağını çiyninə alıb evlərinə gəldi. Nənəsinə dedi:

— Nənə, yol tədarükü gör, padşahın hüzuruna gedirəm. Ona üç yalan danışacağam. Gözəl Yellini də bəxşeyiş alıb qayıdacağam.

Nənəsi dedi:

— Başına dönüm, ay Qabil, gəl bu daşı ətəyindən tök. Padşahın yarışına getmə. Bu sən bilən iş deyil.

Olmadı. Qabil inadından dönmədi. Nənəsini də dilə tutdu.

Nənəsi Qabilə yol tədarükü gördü. Doyunca yedirdib yola saldı. Qabil heybəsini çiyninə alıb yola çıxdı.

Üç gün üç gecə yol gedəndən sonra gəlib saraya çatdı. O vaxt yetişdi ki, yarışda doqquz adam məğlub olub, edam edilibdi. Onuncunu dəvət edirlər.

Padşah dedi:

— İndi növbə kimindi?

Qabil irəli çıxıb dedi:

— Şah sağ olsun, növbə mənimdi.

Padşah dedi:

— Gəl yalanlarını danış görək?

Qabil dedi:

— Yalanları danışaram, bir şərtlə.

Padşah xəbər aldı:

— O nə şərtdir?

Qabil dedi:

— Şərtim budu ki, gərək yalanları bir gündə yox, hər günə bir yalan danışım. Üç günə üç yalan.

Padşah vəzirlə məsləhətləşdi. Vəzir öz fikrini bildirdi. Axırda razılığa gəldilər. Padşah dedi:

– Yaxşı, qoy sən deyən olsun. Sabah gəlib yalanının birini danışarsan.

Səhər açıldı. Qabil nənəsinin yola qoyduğu fətirdən doyunca yedi. Üstündən su da içdi. Durub gəldi padşahın hüzuruna.

Padşah dedi:

– Hə, di yalanını danış.

Qabil başladı birinci yalanı danışmağa:

– Padşah sağ olsun, —dedi, — bnr dəfə yoldaşımla gedirdim. Mənim yanımda sürmə torbası var idi. Yoldaşımın da gözə sürmə çəkən ağacları. Bir bulağın yanına gəldik. Onları bulağın yanında basdırdıq. Orada o saat üç xurma ağacı bitib göyün yeddi qatına çıxdı. Ətrafımız isə əkin yeri idi. Camaat əkin əkirdi. Mən bu adamlardan birinə yaxınlaşıb yer istədim. Vermədi. O birinə yaxınlaşdım o da vermədi. Baxıb gördüm ki, hər xurma ağacında üç-dörd vertlik əkin yeri var. Dostuma dedim. Gəl inəkləri burada otaraq. İnəkləri ağaca çıxartdıq. Başladıq orada otarmağa...

Padşah təəccüblə soruşdu:

– Sürmədən, qaş ağacından deyirsən xurma ağacı əmələ gəldi?!

Qabil dedi:

– Şah sağ olsun, yalandı, danışıram da.

Padşah xəbər aldı:

– Xurma ağacının başında, deyirsən əkin yeri var idi?!

Qabil dedi:

– Şah sağ olsun, yalandı, danışıram da.

Padşah soruşdu:

– Bəs inəklərn ağacların başına necə qaldırdınız?!

Qabil dedi:

– Şah sağ olsun, yalandı, danışıram da.

Padşah dedi:

– Yaxşı, bir yalanını qəbul edirəm. Get sabah gəlib ikinci yalanı danışarsan.

Səhər oldu. Qabil durub nənəsinin bişirdiyi çörəkdən doyunca yedi. Toqqasını bərkitdi. Padşahın hüzuruna gəldi. İkinci yalanı danışmağa başladı:

– Şah sağ olsun, —dedi. —Ərz elədim ki, dostumla ağacın başında inək otarırdım. Gördüm ətrafdakı adamlar qarpızla qovun yeyirlər. Dostuma dedim. Bizim ki öz bostanımız var. Gedək bostanımıza. Gəldik bostana. Bostandakı tağlarda dam boyda qovun-qarpız yetişib. Hər biri on pud, iyirmi pud gələrdi. Bir yaxşı qovun tapdıq. Qoyduq qabağımıza. Mən bıçağımı çıxardım. Qovuna zərbə vurdum. Qovun paralandı. Bıçaq qovunun içində itdi. Bıçağı axtarmağa başladım. Qarşıma bir küçə çıxdı. Küçə ilə bir az getdim. Gördüm, bazara gəlmişəm. O tərəfə baxdım, bıçağı tapmadım, bu tərəfə baxdım, bıçağı tapmadım. Bir küçə də keçdim. Başqa bir bazara çıxdım. Gördüm qarşıdan dəvə karvanı gəlir. Bıçağım da həmin dəvələrdən birinin donqarında. Tez əlimi atıb bıçağı çıxardım. Tələsik götürüb sənin hüzuruna gəldim.

Burada padşah Qabili saxladı. Xəbər aldı:

– Deyirsən, küçələr, bazarlar da qovunun içində idi?1

Qabil dedi:

– Bəli, şah sağ olsun, içində idi.

– Bütün şəhər də orada idi?!

– Bəli, şah sağ olsun, bütün şəhər orada idi.

Padşahı dəhşət bürüdü:

– Kəs səsini! Yalan deyirsən! Heç vədə belə şey ola bilməz.

Qabil dedi:

– Şah sağ olsun, mən də bilirəm olmaz. Ancaq yalan deyəndə olar. İndi icazə ver, mən gedim, sabah gəlib üçüncü yalanımı danışaram.

Qabil getdi. Səhər padşah Qabil gəlməmiş vəziri çağırıb dedi:

– Vəzir o gədədən gözüm su içmir. Deyəsən, bizi üstəliyəcək. Bir azdan gəlib üçüncü uydurmasını bizə danışacaq. Bilmnrəm, necə edirsən elə, bu dəfə onun dediklərindən həqiqət axtarıb tapmalısan. Yoxsa özünü ölmüş bil! Anladın!

Vəzir qorxa-qorxa dedi:

– Baş üstə, qibleyi-aləm. Nə lazımdırsa, edərəm.

Vaxt tamam olan kimi Qabil gəlib çıxdı. Salam-kalamdan sonra sonuncu yalanı danışmağa başladı:

– Padşah sağ olsun, —dedi. —Mənim rəhmətlik atamla sənin rəhmətlik atan vaxtilə möhkəm dost idilər. Bir dəfə sənin atanın məmləkətinə düşmənlər hücum edirlər. Atanın xəzinədə pulu azalmışdı. Silah almağa, qoşun saxlamağa pulu çatmırdı. Odur ki, o vaxt mənim atamdan borc elədi. Bu torbanı görürsənmi?

Padşah dedi:

– Görürəm.

Qabil sözünə davam edərək dedi:

– Bax, o vaxt sənin atan, mənim atamdan, həmin bu torba dolusu qızıl almışdı. Bu doğrudan da belədirsə, əmr elə bu torba dolusu qızılları geri qaytarsınlar. Yox, bu yalandırsa, onda bəxşeyiş elan etdiyin o gözəl kəhəri

– Yellini mənə bağışla, götürüm gedim.

Padşah gördü işlər yaman şuluqdur. Vəzirə tərəf baxdı. Vəzirin dili-dodağı əsdi, dedi:

– Qibleyi-aləm sağ olsun. Sən də yaxşı bilirsən ki, Qabilin dedikləri hamısı yalandır. Mən də bilirəm. Belə olan surətdə mən nə deyə bilərəm?

Padşah məcbur olub Yellini Qabilə verdi. Qabil də padşahın kəhər atını minib qalib cəngavərlər kimi nənəsinin. yanına döndü.

## FALABAXAN

Biri var idi, biri yox idi, bir kasıb oğlan var idi. Dolanışığı pis keçirdi. Yeməyə-içməyə heç nəyi yox idi. Bir dəfə o, «Ay tanrım, ay Allah, bəs mən nə edim? Necə dolanım? Mənə bir yol göstər!» —deyə öz-özünə gileyləndi. Papağını qabağına qoyub çox fikirləşdi. Amma yadına heç nə düşmədi. Tanrı da kömək eləmədi.

Kasıb oğlan durub komasından eşiyə çıxdı. Ətrafa göz gəzdirdi. Gördü yaxınlıqdakı su arxının kənarında bir qatır başını aşağı salıb otlayır. Öz-özünə düşündü: «Gedib o qatırı tutum. Ayaqlarından hörükləyim. Çıxıb uzağa getməsin. Axşama qədər gözləyim. Sahibi çıxmasa, götürüb gəlim komama. Odunçuluq, suçuluq edib birtəhər dolanım».

Kasıb oğlan gəlib qatırı tutdu. Qabaq ayağını bir-birinə ağ çatı ilə çataqladı. Özü də çıxıb yol üstündə oturdu. Əlinə kitab alıb vərəqləməyə başladı. Axşamın düşməyini gözlədi,

Elə bu vaxt bir tacir ona yaxınlaşıb xəbər aldı:

— Ay oğul, ay bala, sən burda neynirsən?

Oğlan dedi:

— Heç, əmican, kitabnan fala baxıram.

Tacir dedi:

— Əgər falçısansa, onda bax gör mənim qatırım indi hardadır. Bu vaxtacan kimdən xəbər almışam, gördüm deyən olmayıb.

Gördü tacir onun falçılığına inanıb.

Kitabı o tərəf, bu tərəfə vərəqləməyə başladı. Sonra. dedi:

— Əmican, sənin qatırın bir qədər burdan aralı su arxının qırağında otlayır. Amma ayaqları ağ çatı ilə bağlıdır.

Tacir oğlan deyən arxın qırağına gəldi. Gördü, doğrudan da falçı oğlanın dediyi kimi, qatırı burdadır, otlayır. Qabaq ayaqları da ağ çatı ilə bağlıdır.

Tacir çatını qatırın ayaqlarından açır, noxtasından tutub falçı oğlanın yanına gəlir. Ona təşəkkürünü bildirir:

— Sən yaxşı falçısan, — deyir. Bir tümən də pul bəxşeyiş edib gedir.

Sonra tacir harda kimi görür həmin falçıdan danışır:

– Çox yaxşı falçı idi. Qatırımı itirmişdim. Kitaba baxdı, o saat qatırın yerini dedi.

Bu xəbər hər yerə yayıldı. hamı falçı oğlanın məharətindən danışmağa başladı. Səda axırda gedib padşaha çatdı. Padşah dedi:

– Doğrudan da belə bir falçı varsa, tez onu tapıb gətirin hüzuruma. Belə falçı mənə gərəkdir.

Padşahın adamları falçı oğlanı tapıb gətirirlər hüzura.

– Sədası ağızlarda gəzən həmin o falçı sənsən? —deyə padşah oğlandan xəbər aldı.

– Bəli, şah sağ olsun, mənəm! — deyə oğlan cavab verdi.

Padşah dedi:

– Səni sarayımda saxlayıram. Ayda da on tümən məvacib təyin edirəm. Bu gündən olursan mənim falabaxanım. İndi get, nə vaxt gərəyim olanda çağıraram.

O gündən kasıb oğlan qaldı sarayda. Ayda da on tümən alıb kasıbçılığına xərclədi.

Günlər bir müddət belə keçdi. Ancaq günlərin biri günü şəhərin qırx oğrusu.saray xəzinəsini yardılar. Xəzinədəki var-dövləti süpürüb apardılar.

Gözətçilər elə həmin gün xəzinənin oğurlanması xəbərini padşaha çatdırdılar. Padşah dedi:

– Tez olun, o falçı oğlanı hüzuruma çağırın!

Falçı oğlanı padşahın hüzuruna gətirdilər.

Padşah dedi:

– Bəsdi, yeyib-yatdın. İndi iş görmək lazımdır. Oğurlanan şeyləri tapmalısan!

Falçı oğlan dedi:

– Şah sağ olsun, məni burax evimə. Qırx gün də möhlət ver, fala baxım. Qırx birinci gün nəticəsini deyim.

Padşah fikrə getdi. Oğlan da öz-özünə düşündü: «Qırx gün möhlət alaram. O vaxtacan da bir hadisə baş verər: ya oğrular tapılar, ya da ki, başıma bir çarə qılaram».

Padşah razı oldu. Oğlana qırx gün möhlət verdi. Özünü də evlərinə buraxdı.

Oğlan gəlib bazardan qırx dənə xurma aldı. Gətirib verdi anasına, dedi:

— Anacan, bu gündən mən otağımda oturub oğurlanan şeylərin tapılması barədə fikirləşəcəyəm. Sən də bu xurmalardan hər gün bir dənəsini gətirib verərsən mənə. Günləri sayım. Xurmanı hər axşam çıraqlar yanandan sonra gətirərsən.

Axşam düşdü. Çıraqlar yandı. Anası bir xurma götürüb gətirdi, verdi oğluna.

Oğrular da eşitdilər ki, onların axtarılıb tapılmasını padşah sorağı hər yerə yayılan falçı oğlana həvalə edibdi. Odur ki, onlar da, öz adamlarından birini falçının evinə göndərdilər, görsünlər onların haqqında nə danışır.

Anası gətirən xurmanı oğlan aldı, dedi:

— Anacan, bir gün aradan keçməsinə baxmayaraq, qırxdan biri gəldi.

Oğru bu sözləri eşidən kimi, dərhal atlandı, yoldaşlarının yanına çapdı. Dedi:

— Elə ki mən falçıgilə çatdım, evin dal divarından onun sözlərinə qulaq asdım, falçı dərhal dedi: «Anacan, bir gün aradan keçməsinə baxmayaraq, qırxdan biri gəldi». Tez olun, oğurladıqlarımızı qaytaraq. Yoxsa padşah hamımızı asdırar.

Oğru başçısı dedi:

— Yox, belə şey ola bilməz. Sabah mən özüm gedərəm, qulaq asaram görüm falçı bizdən nə danışır.

Ertəsi gün çıraqlar yananda əvvəlki oğru ilə oğrubaşı falçıgilə gəldi. Evin dal divarından onun danışıqlarına qulaq asdı. Bu vaxt anası ikinci xurmanı gətirib verdi oğluna. Oğlu dedi:

— Budur, anacan, qırxdan artıq ikisi gəldi.

Oğrular qorxuya düşdülər. Tez atlanıb oradan qaçdılar. Yolda məsləhətləşdilər, oğru başçısı dedi:

– Oğurladıqlarımızın hamısını aparıb falçıya verək. Təvəqqə eliyək ki, bizi padşaha xəbərləməsin. Əgər bizi padşaha nişan versə, hamımızı edam etdirəcəkdir.

Səhər açılar-açılmaz oğrular götürdükləri şeyləri gətirib verdilər falçıya, dedilər:

– Başına dönək, falçı qardaş, götür bunları. Biz özümüzə bir şey də götürməmişik. Apardıqlarımızın hamısı burdadır. Bizə rəhmin gəlsin, bizi padşaha vermə.

Oğlan dedi:

– Mənim sizinlə işim yoxdur. Ancaq padşah buyurub ki, oğurlananları tapıb ona qaytarım. Salamat qalmaq istəyirsinizsə, götürdüklərinizi aparın qoyun xəzinəyə.

Oğrular apardıqlarını gətirib qoydular yerinə.

Axşam falçı oğlan padşahın hüzuruna gəlib dedi:

– Şah sağ olsun, xəzinədarı göndər baxıb görsün oğurlanan şeylər yerindədnr, ya yox.

Padşah xəzinədarı göndərdi. Xəzinədar baxıb gördü ki, aparılan daş-qaşın hamısı əvvəlki yerindədir.

Xəzinədar xəzinədən sevincək geri qayıtdı, padşaha dedi:

– Qibleyi-aləm sağ olsun, oğurlanan şeylərin hamısı öz yerindədir.

Padşah falçını hüzuruna çağırtdırdı. Oğlan gəldi. Padşah ondan xəbər aldı:

– Bəs, oğrular hanı?

Oğlan dedi:

– Şah sağ olsun, siz buyurdunuz ki, mən oğurlananları tapıb qaytarım. Mən də oğurlananları tapıb qaytardım yerinə. Mənə oğruları tutmağı əmr etməmisiniz.

Padşah dinmədi. Buyurdu ki, oğlanın haqqını on tümən də artırsınlar. Burda vəzir paxıllığından özünü saxlaya bilmədi. Ürəyində oğlanın dalınca

asıb-kəsməyə başladı: «Lütün birinin baxtına bax?! Qisməti lap başının altındadır».

Paxıllıq vəziri içəridən qurd kimi yedi. Kasıbdan qisas almaq üçün fürsət axtardı. Odur ki, bir gün padşaha dedi:

– Qibleyi-aləm sağ olsun, gəlsənə falçını da özümüzlə götürüb bir ova çıxaq. Ov edib əylənək.

"Sonra da paxıl ürəyində öz-özünə düşündü: «Orada, ovda mən bu yaramaz falçıya bilərəm nə edərəm».

Padşah razı oldu:

– Yaxşı məsləhətdir, — dedi.

Falçını da götürüb hər üçü ova çıxdı.

Padşahla vəzir qabaqda, yan-yana, falçı oğlan da bir qədər aralı, onların arxasınca getdilər. Bir qədər getmişdilər ki, vəzir atının cilovunu dartdı. At dayandı. Vəziri görüb padşah da atını saxladı. Bu an hardansa bir cırcırama uçub padşah atının yəhərinə qondu.

Vəzir padşaha dedi:

– Qibleyi-aləm sağ olsun, o cırcıramanı tut.

Padşah tez əlini atıb cırcıramanı tutdu. Vəzir dedi:

– Falçı bizə çatana qədər əlindən buraxma. Onu yoxlayaq. Doğruçu falçı olsa ovcundakını biləcək, olmasa öz baxtından küssün.

Padşah razı oldu. Oğlan gəlib onlara yetdi. Padşah ona dedi:

– Tap görüm, ovcumdakı nədir?

Oğlan fikrə getdi. Ürəyində düşündü: «Əcəb yerdə axşamladım. İndi bəs nə edim? Padşaha nə deyim? Yaxşısı budur hər şeyi boynuma alım. Deyim ki, mən falçı-malçı deyiləm. Kasıb bir oğlanam. Bəlkə onda padşahın rəhmi gəldi. Məni buraxdı. Sonra, əh dedi, nə olur olsun».

Oğlan cəsarətlənib padşaha dedi:

– Şah sağ olsun, məsəl var deyərlər: cırçırama, bir dəfə tullanar, iki dəfə tullanar, üçüncü dəfə tələyə düşər. İndi...

Bu yerdə padşah «nə indi» deyib tez ovcunu açdı. Cırcırama dərhal ovcundan uçub getdi. Oğlanın üzü güldü. Pislik vəzirə qaldı.

## QARI NƏNƏNİN BUZOVU

Biri var idi, biri yox idi, lap qədimlərdə bir kənddə bir qarı nənə var idi. Onun nə oğlu var idi, nə də qızı. Aman-zaman ala-bula bir buzovu var idi. Buzov hara gedirdi, qarı da ora gedərdi.

Qarı hər gün obaşdan durardı, yağlı qoğal bişərərdi. Qoğalı buzovun kiçik buynuzundan asardı, belinə də torba bağlayıb buzovu dağ döşünə buraxardı. Deyərdi, qoy doyunca qoğaldan yesin, çır-çırpı da qırmağı yadından çıxarmasın. Axşam düşəndə, günəş dağların arxasına keçib batmağa hazırlaşanda, buzov torbası çırpı ilə dolu evə qayıdardı. Qarı da bunu görüb sevinərdi.

Bir dəfə axşam düşməyə hazırlaşanda, günəş dağların arxasına çəkiləndə, buzov kəndə qayıtmadı ki, qayıtmadı. Budu hava da qaraldı, axşam da düşdü. Ancaq buzov yoxdur ki, yoxdur. Qarı nənə çox gözlədi, gözlədi, axırda səbri tükəndi. Əsasını əlinə alıb əsə-əsə dağ yamacına tərəf yollandı. Buzovu arayıb-axtarmağa başladı. Qabağına bir dovşan çıxdı. Qarı nənə dovşandan xəbər aldı:

–Dovşan qardaş, ay dovşan qardaş, mənim ala-bula buzovumu buralarda görmədin ki?

Dövşan dayandı, nəfəsini dərdi, kəkələyə-kəkələyə cavab verdi:

—Sənin ala-bula buzovunu dərədə küpəgirən qarı yedi. Dedi ki, gecə də gəlib səni yeyəcəm!

Qarı nənənin canına üşütmə düşdü. O saat yumağa döndü. Ağlaya-ağlaya komasına qayıtdı. Astanada oturub göz yaşı tökməyə başladı. Qarı nənənin hönkürtüsünə qapıbir qonşusu Tikan qardaş gəldi, xəbər aldı:

– Qarı nənə, ay qarı nənə, niyə belə ağlayırsan?

Qarı nənə gözünün yaşını silib dedi:

– Mənim ala-bula buzovumu küpəgirən qarı yedi. Gecə də gəlib məni yeyəcək! Ağlamayım bəs neyniyim, ay Tikan qardaş?

Kədərlənmiş Tikan qarı nənəni sakitləşdirib dedi:

– Ağlama, qarı nənə! Mən ölməmişəm ha! Gecə köməyinə gəlləm, küpəgirənin aşını-suyunu verərik!

Tikan qardaş getdi, Qarmaq bacı gəldi, qarı nənədən xəbər aldı:

– Ay qarı nənə, niyə belə ağlayırsan? Olmuya belin ağrıyır? Gətir ovuşdurum, yaxşı olsun!

Qarı nənə dedi:

– Belim ağrısa, nə var ki? Ala-bula buzovumu küpəgirən qarı yedi. Gecə də gəlib məni yeyəcək. Ona görə də ağlayıram. Ağlamayım bəs neyniyim, ay Qarmaq bacı?

Qarmaq bacı da qarı nənəni toxtadıb dedi:

– Fikir eləmə, ay qarı nənə! Mən ölməmişəm ki! Gecə köməyinə gəlləm, küpəgirənin aşını-suyunu verərik!

Qarmaq bacı getdi. Toyuq xalanın yumurtası dığırlana-dığırlana gəldi, qarı nənədən xəbər aldı:

– Qarı nənə, ay qarı nənə, niyə belə ağlayırsan? Yoxsa acmısan? Gəl bişim, məni ye , doy!

Qarı nənə gözünün yaşını silib dedi:

– Ac olsam nə var ki? Ala-bula buzovumu küpəgirən qarı yedi. Gecə də gəlib məni yeyəcək. Odur ki, ağlayıram. Ağlamayım bəs neyniyim?

Toyuq xalanın yumurtası qarı nənəyə təsəlli verib dedi:

– Ağlama, ay qarı nənə, sən ağlayanda ürəyim xarab olur. Ölməmişəm ha! Gecə köməyinə gələrəm, küpəgirən qarının aşını-suyunu verərik!

Toyuq xalanın yumurtası dığırlana-dığırlana qayıdıb getdi. Bir az keçdi, Qurbağa xalaqızı atıla-atıla gəldi. Qarı nənəni ağlar görüb xəbər aldı:

– Buy, başıma xeyir, ay qarı nənə, niyə belə ağlayırsan? Hansı qurbağa səni qorxudub? De, gedim onu döyüm öldürüm!

Qarı nənə toxtayıb dedi:

– Qurbağadan qorxsaydım, nə vardı ki? Gözümün ağı-qarası ala-bula buzovumu küpəgirən qarı yedi. Gecə də gəlib özümü yeyəcək. Odur ki ağlayıram, ağlamayıb bəs neyniyim?

Qurbağa bacı bir ağız quruldadı, sonra qarı nənəni sakitləşdirib dedi:

– Heç qorxub-eləmə, qarı nənə! Qurbağa bacın ölməyib ki! Gecə köməyinə gəlləm. Küpəgirən qarının aşını-suyunu verərik!

Qurbağa bacı getdi, mal peyini gəldi. Qarı nənədən xəbər aldı:

– Sənə nə olub, ay qarı nənə, niyə belə ağlayırsan?

Qarı nənə mal peyinini görüb dərdi təzələndi, ağlaya-ağlaya dedi:

– Ay peyin bacı, ağlamayım bəs neynim!? Umudum-pənahım bircə buzovum var idi. Küpəgirən qarı tutub onu yedi. Gecə də gəlib məni yeyəcək! Bundan böyük dərd olar?

Peyin bacı qarı nənənin könlünü alıb dedi:

– Ürəyini qısma, qarı nənə. Mən ölməmişəm ki. Gecə köməyinə gələrəm. Küpəgirən qarının aşını-suyunu verərik!

Mal peyni yenicə çıxıb getmişdi ki, qapıda Daş Vərdənə göründü. Tələşla atıla-atıla qarı nənəyə yaxınlaşıb xəbər aldı:

– Bu nə müsibətdir başına gəlib, ay qarı nənə? Eşidəndə qəzəbimdən heç bilmədim neyniyim?

Qarı nənə dedi:

– Görürsən də, Vərdənə qardaş, başıma nə müsibət gəlib! Mən yazıq indi neyniyim? Haranın külün başıma töküm?

Vərdənə qardaş qarı nənəni sakitləşdirib dedi:

– Sənin işin olmasın, qarı nənə! Küpəgirən qarı ilə özüm danışacağam! Gecə gəlləm, mən bilərəm onun başına nə oyun açaram!

Gecə də öz növbəsində yaxınlaşdı. Qarı nənənin dostları bir-bir gəldilər. Qapıbir qonşusu, Tikan qardaş girib qarı nənənin qurşağında gizləndi. Qarmaq bacı lampanın başından tavandan asıldı. Toyuq xalanın yumurtası

peçin içində pusquda dayandı. Qurbağa bacı su çəninə soxuldu. Vərdənə qardaş qapı dalında gizləndi. Mal peyini qapı ağzına yayıldı.

Bir azdan küpəgirən qarı gəlib evə soxuldu. Qarı nənəyə dedi:

— Qarı nənə, gəlmişəm səni yeyəm. Ancaq bilmirəm hardan başlayım?!

Qarı nənə küpəgirən qarıya dedi:

— Qarnım yaxşıdı, gəl qarnımdan başla!

Küpəgirən qarı yaxınlaşdı ki, qarı nənənin qarnından tutub yesin. Dərhal Tikan qarı nənəni qurşağından çıxıb küpəgirən qarının ağzına sancıldı.

Küpəgirən qarı bağırdı:

— Ay aman öldüm, qoymayın!

Qarı nənə dedi:

— İndi gəl başımı ye!

Küpəgirən qarı bağıra-bağıra dedi:

— Başın tüklüdü, yeyəmmərəm.

Qarı nənə dedi:

— Nə olar təmizləyərsən.

Küpəgirən qarı razılaşdı. Qarı nənə dedi:

— Onda əvvəlcə lampanı yandır. İşıq olsun ki saçlarımı bir-bir yola biləsən!

Küpəgirən qarı getdi lampanı götürüb yandırsın, qarmaq keçdi barmaqlarına. Küpəgirən ufuldaya-ufuldaya qaçdı ki, peçdən od götürsün. Toyuq xalanın yumurtası o saat sınıb küpəgirən qarının üz-gözünə dağıldı. Küpəgirən qarı özünü tez çölə yetirdi ki, əl-üzünü yusun, bu vaxt Qurbağa bacı çəndən tullanıb küpəgirən qarının burnundan sallandı. Küpəgirən qarı qorxuya düşüb özünü itirdi. Geri dönüb qaçmaq istədi. Ayaqları qapı ağzında yayılmış peyində sürüşdü, yıxıldı. Bu vaxt qapı dalında kizlənmiş Daş Vərdənə diyirlənib küpəgirən qarını altına aldı. Onu əzik-əzik elədi. Dedi:

— Qoy bilsinlər ki, özgənin buzovunu yeyənin aqibəti axırda belə olur!

## İYDƏCİK

Biri var idi, biri yox idi, bir qoca ilə bir qarı var idi. Bu qoca ilə qarı nə varlı idi, nə də tamam acından ölən kasıb. Yeməyə bir parça çörəkləri, yatmağa da yoxsul bir komaları var idi. Ancaq övladları yox idi. Bir axşam qoca qarısına dedi:

– Ay qarı, indi nə olaydı, iydə dənəsi boyda bir oğlumuz olaydı.

Elə bil hər şey bu sözə bənd idi. Həmin gecə göy onlara nə böyük, nə də kiçik düz iydə dənəsi boyda bir oğlan göndərdi. Qocalar buna sevindilər. Oğlana İydəcik adını qoydular.

İllər ötdü. İydəcik necə var idi elə də qaldı. Bir gün qoca oğlana baxdı, dərindən köksünü ötürüb dedi:

– İydəcik, nə vaxt bəs böyüyəcəksən? Mənə nə vaxt kömək edəcəksən? Görünür, sən dünyaya gələndə nahaq sevinmişik!

Ana ataya dedi:

– Mən də sənə baxıram, halım pisləşir.

İydəcik kədərlənmiş ata-anasının könlünü alıb sevinclə dedi:

– Fikir eləmə, atacan, kədərlənmə, anacan, nə olsun ki, balacayam. Ancaq qoçağam ki! Atacan, məni özünlə tarlaya apar da!

İydəcik həm dərrakəli, həm də çalışqan idi. Kotan sürməyi, öküz qovmağı, çırpı yığmağı çox tez öyrəndi. Çırpını, çör-çöpü onsuz da hamıdan çox yığırdı. Balaca olduğuna görə hər işə yarıyırdı. Su gətirirdi, ağaca çıxırdı. Kilif təmizləyirdi. Dama-daşa birinci dırmaşırdı. İydəciyi hamı tərifləyirdi. Onu kəndlilər öz uşaqlarına nümunə göstərirdilər:

– Bir tamaşa elə, maşallah, İydəcik gör nə zirəkdir! Hər şeyi bacarır. Amma sən böyük olmağına baxmayaraq, tənbəlin birisən!

İydəciyin ata-anası, doğrudan da xoşbəxt idilər! Axı bir də burada təəccüblənməyə bir şey də yox idi. Sadəcə olaraq onların oğlu çox fərasətli, həm də qocaq idi.

Bir dəfə görün onun başına nə macəra gəldi.

İllərin biri yaman quraqlıq keçmişdi. Əkinçilər bir dərz də olsun sünbül yığa bilməmişdilər. Özlərinin də yeməyə bir şeyləri yox idi. Bu tərəfdən də padşah adamları onlardan vergi istəyirdilər. Əkinçilərin verməyə bir şeyi yox idi. Belə olanda padşah öz vergiyığanlarına əmr elədi ki, kəndlilərin mal-qarasını əllərindən alsınlar.

Vergiyığanlar gecəykən bütün mal-qaranı qabaqlarına qatıb apardılar. Kəndlilər, ailələri bir-birinə qarışıb ağladılar. İydəcik bu mənzərəyə tamaşa etdi, sonra dedi:

— Heç qüssələnməyin, camaat! Mən mal-qaranı onlardan geri alaram!

Camaat İydəciyin sözünə inanmadı, dedi:

— Boyuna bax, verdiyi vədə bax!

İydəcik camaatla bəhsə girmədi. Gecə xəlvətcə gəlib mal-qara qatılan yerə çıxdı. Hasarı aşdı, gözətçilərin yuxuya getməsini gözlədi. Sonra ehmalca bir eşşəyin qulağına girdi. Eşşək birdən anqırdı. Gözətçilər dərhal durub o tərəf-bu tərəfə baxdılar. Heç kimi görmədilər. Heç onların ağlına da gəlməzdi ki, kimsə eşşəyin qulağında gizlənsin.

Heç yerlərində oturmamış yenə də eşşək anqırmağa başladı. Gözətçilərdən biri dedi:

— Fikir vermə! Nə olsun ki, eşşək anqırır! Gəl yıxılıb yataq!

İydəciyə də elə bu lazım idi. Bir qədər gözlədi, gözətçilər tamam yatdılar. İydəcik eşşəyin qulağından çıxıb darvazaları açdı. Mal-qaranı qabağına qatıb kəndə qovdu.

Kəndlilər öz heyvanlarını görüb sevindilər.

Səhəri padşah bu əhvalatdan xəbər tutdu. Bərk pərt oldu. Gözətçilərini yığıb müqəssirləri cəzalandırmaqdan ötrü kəndə gəldi. Bunu İydəcik gördü. Qarşılarına çıxdı, padşaha dedi:

— Mal-qaranı axşam qovub gətirən mənəm! Nə istəyirsən$_q$ mənə elə!

Padşah gözətçilərin üstünə bağırdı:

— Tez olun, tutun onu! Əl-qolunu bağlayıb gətirin mənim hüzuruma!



Gözətçilər al-ələ verib İydəciyi tutmağa çalışdılar. Ancaq İydəcik bir göz qırpımında həlqənin içərisindən çıxıb qaçdı. Gözətçilərin bundan xəbərləri də olmadı. İydəcik kənardan durub onlara güldü.

Padşah çox fikirləşdi, necə etsin İydəciyi yaxalasın. Fikirləşdi, fikirləşdi, axırda tapdı. Əmr elədi İydəciyi kisəyə salsınlar. Divanxanaya aparsınlar. Gözətçilər İydəciyi tutub kisəyə saldılar. Şah divanxanasına gətirdilər. Padşah əmr elədi kisənin ağzını açsınlar, İydəciyə yüz şallaq vursunlar. Gözətçilər şallaqları götürüb İydəciyin üzərinə hücum etdilər. Əllərini yuxarı qaldırıb onu şallaqlamağa başladılar. Ancaq İydəcik çevikliklə o tərəfə, bu tərəfə elə məharətlə tullandı ki, bir dənə də şallaq ona dəymədi.

Bunu görən padşah kinindən gömgöy göyərdi. Var gücü ilə gözətçilərin üstünə bağırdı:

– Yaramazlar! Tez olun onu şallaqlayın!

Ancaq İydəciyi şallaqlamaq mümkün olmurdu. Əksinə o tərəf bu tərəfə atılıb şallaqvuranları əldən salırdı. Şallaqvuranlar bir dəfə də şallaq vurmaq istəyəndə İydəcik atlanıb padşahın bığlarından tutdu. Padşah şallaqvuranların üstünə bağırdı:

– O yaramaz, bax burdadı! —Padşah bığlarını göstərdi.— Tez olun vurun!

Şallaqvuranlar bir-birinin ardınca padşahın bığlarını şallaqlamağa başladılar. İydəcik dərhal padşahın bığlarını buraxıb kənara sıçradı. Şallaq zərbələri padşahın ağzına-burnuna dəydi. Dişlərini qarnına tökdü. İydəcik ağzı-burnu qanla dolmuş padşahın vəziyyətinə ürəkdən qəhqəhə çəkib güldü, padşaha dedi:

– Bax, sənə belə lazımdır! İndi bilərsən kəndlinin heyvanını əlindən almaq necə olur!

## XƏBƏR GƏTİRƏN SAĞSAĞAN

Bu nağılı nənəmdən eşitmişəm. Nənəmə də babası danışmışdı. Babasına da ulu babası söyləmişdi. Biri var idi, biri yox idi, nə vaxtsa Hünər adında bir oğlan var idi. Bu oğlanın babasının babası dirrik yerində çoxlu ağac əkib

bağ- bağat salmışdı. Bağ-bağatda hər növ ağac var idi. Bu ağaclardan biri də çinar idi.

Çinar çox qollu-budaqlı ağac idi. Qollarının biri günçıxana, biri günbatana, biri xəzriyə, biri də gilavara tərəf uzanırdı. Özü də bütün ağaclardan böyük idi.

Çinarın qol-budağı kimi ürəyi də açıq idi. Yurdsuz-yuvasız quşların çoxu onun qolları üstündə koma qurmuşdu.

Quşların söz-söhbəti, alış-verişn, götür-qoyu onun başında olardı. Qarğa balaları səs-səsə verib qar-qar qarıldaşardı. Sərçələr tapıb gətirdikləri dən üstündə bir-biriləri ilə bu ağacın başında civ-civ civildəşərdi. Burada daha nə bilim nələr olardı. Ancaq çinar bunların heç birindən inciməzdi. Daha da xoşlanardı. Soruşanda da fərəhlə deyərdi:

— Ürəyigeniş olmaq lazımdı! Təklikdən nə çıxar? Qoy yaşasınlar. Bir də ki şənlik olanda darıxmıram. Şənliyi çox sevirəm... Bu binəvalar da ki yurdsuz-yuvasız qalmırlar.

Hünər quşların hamısından çox sağsağanı istədi. Ona görə ki, bu quş insanların dilini yaxşı bilirdi. Bir də bu quş çox çevik idi. Heç vədə bir yerdə qərar tutmazdı. Bu budaqdan o budağa, o budaqdan bu budağa qonar, ondan buna, bundan ona xəbər aparıb gətirərdi. Hünər də bütün əhvalatları, xəbərləri ondan öyrənərdi. Odur ki, hər səhər duran knmi sağsağandan xəbər alardı:

— Sağsağan, ay sağsağan, xeyirxəbər olasan! Söylə görüm, nə zar, nə yox? Yeni nə xəbər gətirmisən?

Sağsağan da eşitdiklərini, gözü ilə gördüklərini bir-bir Hünərə danışardı. Hünər də:

— Çox sağ ol, ay sağsağan! Səni xeyirxəbər olasan! Dediklərini anladım. Gedərəm, kömək edərəm. Hökmən çatdıraram! — deyib sağsağanı razı salardı. Sağsağan da təzə xəbərlər gətirməkdən ötrü uçub gedərdi. Bu əhvalat gündə bir neçə dəfə təkrar olunardı.

Günlərin bir günü sağsağan çox həyacanlı uçub gəldi:

– Fəlakət! Fəlakət! Kömək edin! —deyə çığır-bağır saldı. Qonşuluqdakı quşlar bir-birinə dəydi. Hünər tez saqsağandan xəbər aldı:

– Nə var? Nə olmuşdu? Ay sağsağan!? Bu nə təlaşdı, sən edirsən?

Sağsağan dedi:

– Nə olacaq, çöldə sürüyə canavar soxulub! Durmayın, tez olun köməyə gəlin!

Hünər cəld əl atıb çomağını qapdı. O saat qonşuları haraylayıb başına topladı. Çobanın köməyinə getdilər. Gördülər ki, doğrudan da canavarlar sürüyə təpilib ziyanlıq etmək istəyirlər. Hünər camaatla köməkləşib canavarları sürüdən qovdu.

Günlər ötdü. Sağsağan da öz işində idi. Qonşusu quşlara, dostu Hünərə hər sabah bir xəbər gətirirdi: nə bilim, filan quş filan quşun yuvasından çöp götürdü. Filan quş, filan quşa yalan dedi. Səfərə getmiş filankəs qayıtdı. Filankəsnn bu gün toyudu.

Ancaq sağsağan bir gün yenə təlaş saldı:

–Ay aman, tez olun, köməyə gəlin! Yel vurdu sərv ağacından qumrunun yuvasını uçurtdu! Balalarını da yerə saldı!

Quşlar bnr-birinə dəydi. Köməyə uçdu. Hünərin də qumruya rəhmi gəldi. Özünü oraya yetirdi. Bura hünər o vaxt çatdı ki, qumru balaları ağacın dibinə düşüb civ-civ civildəşir. Yenicə tüklənmiş qanadlarını çalıb havaya qalxmaq istəyirlər. Ancaq bacarmırlar. Anaları da aramsız başları üstə uçub onları zavaldan qorumağa çalışırdı.

Hünər o saat qumru balalarını götürüb evə gəldi. Taxtadan yuva qayırdı, çinardan razılıq alıb onun qollarından birinə bərkitdi. Balaları da yığdı içinə. Qumru köməyə çağırdığına görə sağsağana, balalarına taxtadan yuva düzəltdiyinə görə Hünərə, budağında onlara yer verdiynnə görə çinara razılığını bildirdi.

Şadlıq oldu, hərə çəkilib öz işinin dalınca getdi. Günlər bir-birini əvəz etdi. Günlərin bir günü Hünərgilin kəndində yeni fəlakət baş verdi. Sel gəldi, körpünü apardı. Bundan hamıdan qabaq sağsağan xəbər tutdu:

— Fəlakət! Fəlakət! Tez olun köməyə gəlin! Sel gəldi, körpünü apardı!

Camaat tökülüb körpünü düzəltdi.

Bir dəfə də sağsağan bostan üstündən uçurdu. Gördü ki, iki əli belli kəndli az qalır bir-birn ilə savaşsın. Sağsağana da hay gərək. O saat özünü yetirdi Hünərgilə. Başladı qışqır-bağır salmağa. Bu vaxt Hünər həyətdə ağac dibi belləyirdi. Sağsağanın səsini eşidib əl saxladı. Qulaq asdı. Sağsağan dedi:

— Ay aman, qoymayın, iki kişi bir-birilə savaşır!

— Kim savaşır? Harda savaşır? — deyə Hünər ondan xəbər aldı. Sağsağan dedi:

— Odur e, bostan arxının kənarında!

Hünər qaçaraq bostana gəldi. Gördü, iki suçu bostan suvarmaq istəyir. Suçunun biri deyir:

— Əvvəl mən suvaracağam!

O biri deyir:

— Yox, mən suvaracağam!

Hünər özünü yetirib dedi:

— Ay kişilər, bir. daynanın! Nə savaşırsız?

Suçular dayandılar. Hünər dedi:

— Gəlin belləri boylaşdıraq. Hansı belin sapı uzun oldu, bostanı birinci o suvarsın. Sonra da o biri.

Suçular Hünərin təklifi ilə razı oldular. Hünər suçuların belini alıb boylaşdırdı. Birinci suçunun beli ikincininkindən uzun gəldi. Hünər dedi:

— Bostanı birinci bu belin sahibi suvaracaq.

İkinci suçu bu şərtlə razılaşdı. Dava-dalaş da kəsildi.

Birinci suçu bostanı suvarmağa başladı. İkinci suçu öz növbəsini gözlədi. Suçular Hünərə dedilər:

— Nə yaxşı oldu, gəlib çıxdın. Aramızdakı mübahisəni kəsdin!

Hünər dedi:

— Sağsağan mənə xəbər verdi.

Suçular sağsağana da, Hünərə də razılıq etdilər. Onlar durdular öz işləri ilə məşğul oldular. Hünərlə sağsağan da öz işlərinin ardınca getdilər.

Görün bir dəfə də necə olmuşdu. Satsağan şəhər bazarının üstündən uçurmuş. Burada nə görsə yaxşıdı? Görür ki, bir qarı bazar yolunda dayanıb gəlib-gedənə əl açır. Sədəqə istəyir. Sağsağan bunu görən kimi bir dad-fəryad edir, gəl görəsən.

– Ay aman, qoymayın, qarı nənə dilənir!

Yenə də hamı tökülüb gəldi. Hamıdan qabaq ördək özünü yetirdi, qarıdan xəbər aldı:

– Ay qarı nənə, sənə nə olub, niyə dilənirsən?

Qarı dedi:

– Oğlum-qızım ölüb, baxanım yoxdu, dilənirəm.

Ördək dedi:

– Ay qarı nənə, mən sənə övlad. Gedək bizə. Sənə baxım.

Qarı nənə dedi:

– Sən özünü güclə dolandırırsan, məni hardan saxlayacaqsan? Yox, mən gedəmmərəm.

Ördək kor-peşman döndü geri.

Bir azdan qaz gəldi, xəbər aldı:

– Ay qarı nənə, sənə nə olub, niyə dilənirsən? Heç xəcalat çəkmirsənmi?

Qarı dedi:

– Niyə xəcalət çəkirəm? Oğlum-qızım ölüb, baxanım yoxdu, dilənirəm.

Qaz dedi:

– Ay qarı nənə, gedək bizə. Mən sənə baxaram.

Qarı dedi:

–Yox, qadan alım, gedəmmərəm. Bir bölük balan var. Onları ancaq dolandırırsan. Məni necə dolandıracaqsan?

Qaz da kor-peşman geri qayıtdı. Bu arada hind toyuğu özünü çatdırdı, xəbər aldı:

–Ay qarı nənə, sənə nə olub, biz dura-dura niyə dilənirsən, ayıb deyil?!

Qarı nənə dedi:

— Ayıb niyə olur? Oğlum-qızım ölüb, baxanım yoxdu, dilənirəm.

Hind toyuğu dedi:

— Dur gedək bizə, qarı nənə. Mən sənə baxaram.

Qarı nənə dedi:

— Xeyr, gedəmmərəm. Sən hirslinin birisən. Hay demədən özündən çıxırsan. Məni yola verməzsən.

Hind toyuğu da kor-peşman geri qayıtdı.

Qarı onların heç biri ilə getmədi.

Qarı burda qalmaqda olsun al xəbəri sağsağandan. Sağsağan xəbərini yaya-yaya gəlib çıxdı Hünərgilə. Çığır-bağır salmağa başladı:

— Ay aman, qoymayın, qarı nənə dilənir!

Hünər tez sağsağandan xəbər aldı:

— Nə deyirsən, qarı nənə harda dilənir?!

Sağsağan dedi:

— Odur e, bazar yolunun üstündə.

Hünər o saat durub yollandı bazar yolunun üstünə. Gördü ki, doğrudan da bir qarı əl açıb gəlib-gedəndən sadağa istəyir.

Bunu Hünər özünə sığışdırmadı. Tez qarıya yaxınlaşdı. Cibindən pul çıxarıb qarının ovcuna basdı, xəbər aldı:

— Niyə dilənirsən, qarı nənə? Ayıb deyilmi?

Qarı dedi:

— Niyə ayıb olur? Oğlum-qızım qırılıb, baxanım yoxdu, mən də dilənirəm.

Hünər tutuldu, qarıya dedi:

—Mən sənin övladın. Dur gedək bizə.

Qarı ha o yan-bu yan elədi ki, Hünərlə getməsin, olmadı. Hünər əl çəkmədi ki, çəkmədi:

— Elə şey yoxdu. Gedəcəksən, vəssalam!

Qarının əlacı kəsildi. Durub düşdü Hünərin yanına.

Hünər qarını gətirdi evə. Üst-başını təmizlətdirdi. Evin ixtiyarını ona tapşırıb dedi:

— Bu gündən bu ev oldu sənin.. Nə təhər istəsən, elə də dolan.

Qarı oldu Hünərin ikinci anası. Bir-birinə can deyib can eşitdilər. Yedilər-içdilər muradlarına yetdilər.

## ÖMRÜN SİRRİ

Qazan, qazan içində,
Böyük qazan içində,
Şorba bişdi, bulaşdı,
Yeddi qazan içində.
Mən şorbadan yemədim,
Becə yalan demədim.

Biri var idi, biri yox idi, keçmiş əyyamlarda Qahir adında bir oğlan var idi. Bir gün Qahir məhlədə uşaqlarla oynarkən qonşuda ağlaşma səsi eşitdi. Arvadların səs-səsə verib yanıqlı oxşayıb ağlamaları balaca Qahirə ağır təsir etdi. O buna dözmədi, tutuldu, tez evə qaçdı, gəlib anasından xəbər aldı:

– Ana, ay ana, qonşuda arvadlar niyə elə oxşayıb ağlaşırlar?

Anası:

– Ona görə ki, oğlum, -deyə ah çəkərək dilləndi, -ölən çox cavan adam idi.

Qahir yenə anasından xəbər aldı:

– Ay ana, olmaz ki, adam ölməsin?

– Yox, olmaz, oğlum, —deyə anası cavab verdi.

Qahir bir qədər fikrə getdi sonra anasına dedi:

– Mən böyüyəndə gedib dünyanı gəzib ölüm olmayan ölkə axtarıb tapacayam.

Anası Qahirin başını sığallayıb mehribanlıqla dedi:

– İnanmıram, oğlum, belə bir ölkə ola, sən də onu axtarıb tapasan.

Qahir anasına dedi:

— Dağlar aşacağam, səhralar keçəcəyəm, ölüm olmayan ölkəni axtarıb tapacağam. Tapmasam, geri qayıtmayacağam.

Anası oğlu ilə höcət eləmədi. Ancaq onu sakitləşdirmək niyyəti ilə:

— Yaxşı, oğlum, böüyəndə gedib ölməzlər əlkəsini axtarıb taparsan, — dedi. —İndi get uşaqlarla oyna!

Ana keçdi öz işi ilə məşğul olmağa, Qahir də getdi uşaqlarla oynamağa. Ana-bala arasında olan söhbət də oradaca unudulub qaldı.

İllər gəlib ötdü. Qış getdi, yaz gəldi. Yaz getdi, qış gəldi, fəsillər bir-birini əvəz etdi. Qahir böyüdü. Ancaq uşaq vaxtı özünə verdiyi sözü unutmadı.

Günlərin bir günü tədarük görüb anasına dedi:

— Ana, mən gedirəm.

Anası xəbər aldı:

— Hara gedirsən, ay oğul?

Qahir dedi:

— Gedirəm ölməzlər ölkəsini axtarmağa.

Anası çox dedi oğul getmə, ölməzlər ölkəsini haradan axtarıb tapacaqsan, olmadı. Qahir sözünün üstündə durdu ki, durdu. Anasına dedi:

— Nigaran qalma, anacan. Belə bir ölkə tapsam, xəbər edəcəyəm. Tapammasam, məni gözləmə.

Qahir anası ilə görüşüb yola düşdü. Az getdi, çox getdi bilən olmadı. Axırda gəlib hündür bir dağın ətəyinə yetişdi. Dağ elə uca idi ki, başına baxanda adamın papağı düşürdü. Zirvəsində də ki, bir qartal oturmuşdu. Qahir öz-özünə fikirləşdi: «Qartallar çox yaşayır. Qoy ölməzlər ölkəsinin yerinn ondan xəbər alım. Bəlkə bildi».

Qahir dağın başına dırmanmağa başladı. Bir gün bir günortaya zirvəsinə çıxa bildi. Orada qartaldan ölməzlər diyarını xəbər aldı. Qartal dedi:

— Dünya bina olandan nəsilliklə bu dağda yaşamışıq, ancaq belə bir yerin olduğunu bu günədək eşitməmişik. Bu dağlara bir tamaşa elə. Gör nə qədər böyükdür. Ucu-bucağı yoxdur. Hər gün mən bu daqdan bir daş parçası götürüb o biri tərəfinə aparıram. Dağı beləcə bu tərəfdən o biri tərəfə

daşıyacağam. Daşıyıb qurtarandan sonra ömrüm başa çatacaq. Bu işi görüb qurtarınça xeyli zaman keçəçək. İstəyirsən mənimlə qal. İstəmirsən, hara istəyirsən ora get.

Qahir dedi:

— Mənim burda qalmağımın mənası yoxdur. Dağın yerini dəyişəndən sonra öləcəksən. Mən isə ölməzlər diyarını axtarıb tapmaq istəyirəm.

Qartal dedi:

— Özün bil, onda get, istədiyin ölkəni axtar tap.

Qahir qartalla vidalaşdıqdan sonra dağdan enib başqa səmtə getdi. Yolda bir qocaya rast gəldi. Gördü qoca dərya qırağında çömbəlib dəryanın suyunu qaşıqla götürüb bu biri tərəfdən o biri tərəfə boşaldır. Qahir qocaya yaxınlaşıb ondan xəbər aldı:

— Babacan, burada neynirsən?

Qoca cavab verib dedi:

— Gördüyün bu dəryadan hər gün bir qaşıq su götürüb o biri tərəfə tökürəm. Dəryanın suyunu o biri tərəfə boşaldandan sonra azacıq dincəlib axırda öləcəyəm.

Qahir qocaya narazlıqla dedi:

— Eh, burada da ölüm var?

Qoca dilləndi:

— Oğlum, dünya başdan belə qurulubdu. Hara getsən, orada hər şeyin axırı ölümdür.

Qahir dedi:

— Onda mən burda qalammaram.

Qahir qoca ilə görüşüb ölməzlər ölkəsini axtarmaqdan ötrü yoluna davam etdi. Dağlar aşdı, səhralar keçdi, axırda gəlib gözəl bir dərəyə çıxdı. Dərənin ortası füsünkar meyvə bağı idi. Bağın bir tərəfində kənarları ağ mərmərlə kötü- rülmüş böyük bir hovuz var idi.

Qahir yaman yorulmuşdu. Hovuzun kənarına gəldi, əyilib ayna kimi suda əl-üzünü yudu. Sonra dincəlmək üçün münasib bir yer axtardı. Elə bu vaxt

qarşısında əli əsalı bir qoca gördü. Qocanın bir əlində xiyar var idi. O, xiyarı hovuzda yuduqdan sonra yedi. Bu vaxt qocanın da gözləri ağac altında oturmuş Qahirə sataşdı. Yanına gəldi, ondan xəbər aldı:

— Oğlum, sən kimsən? Hardan gəlib, hara gedənsən?

Qahir evdən çıxmağının səbəbini qocaya danışdı. Axırda qocaya dedi:

— İndi babacan kəndbəkənd, oba-oba düşüb ölməzlər ölkəsini axtarıram.

Qoca dedi:

— Oğlum, Qahir, bu çox müşgül işdir, ancaq qorxma, mən sənə kömək elərəm. Bir iş var, onu yerinə yetirsən, bəlkə istəyinə çatasan.

— O nə işdi, babacan? —deyə Qahir qocadan xəbər aldı.

Qoca dedi:

— Gördüyün bu hovuzda hər gün günorta vaxtı çimməyə üç göyərçin uçub gəlir. Onlar hovuzun kənarına qonan kimi dönüb olurlar gözəl pəri. Bu pərilər donlarını soyunub qoyurlar hovuzun qırağına. Özləri girirlər çimməyə. Mən babamdan eşitmişəm ki, hər kim onların birinin donunu götürə bilsə, pərilərdən nə istəsə, onun arzusunu yerinə yetirərlər. Bunu edə bilsən onlardan əbədi həyat istəyə bilərsən. Çünki onların özləri də ölməzdilər. Çoxları bu işi görmək istəyib, ancaq bacarmayıblar.

Qahir qocaya dedi:

— Babacan, gəl hovuzun kənarında çuxur qazaq. Mən orada gizlənim. Sən də üstümü otla ört. Pərilər suya girəndə, mən onlardan birinin donunu göturüb gizlədərəm.

Qoca, Qahirin təklifi ilə razılaşdı. Onlar hovuzun kənarında çuxur qazdılar. Qahir çuxura girdi. Qoca onun üstünü otla basdırdı. Özü də çıxıb getdi.

Günorta, isti düşəndə qocanın dediyi kimn üç göyərçin uçub gəldi. Qondu hovuzun kənarına. O saat dönüb oldular gözəl pəri. Donlarını çıxarıb girdilər hovuza çimməyə. Qahir dərhal gizləndiyi yerdən çıxıb pərilərdən birinin donunu götürdü.

Pərilər çimib qurtardılar. Sudan çıxıb gördülər kiçik pərinin donu yoxdur. O saat başa düşdülər ki, cildi bəni-insan götürübdü. Odur ki dedilər:

– Ey bəni-insan, kimsən? Bizdən nə istəyirsən? Gətir bacımızın donunu ver, istəyini yerinə yetirək.

Qahir gizləndiyi yerdən çıxıb dedi:

– Pəri xanımlar, mən eşitmişəm ki, siz insana əbədi həyat bəxş edirsiniz. Ya da ona ölməzlər ölkəsinin yerini göstərirsiniz. Mən istəyirəm ki, siz mənə o ölməzlər ölkəsinin yerini deyəsiniz.

Kiçik pəri dedi:

– Əvvəlcə donumu özümə qaytar, sonra istədiyin arzunu yerinə yetirim.

Qahir kiçik pərinin donunu qaytardı özünə. Pəri donunu geydi sonra Qahirdən xəbər aldı:

– İndi de görüm məndən nə istəyirsən?

Qahir dedi:

– Məni ölməzlər ölkəsinə apar.

Kiçik pərinin Qahirdən xoşu gəldi, dedi:

– Mənimlə evlənməyə razı olsan, səni ölüm olmuyan yerə aparađaram.

Qahir dedi:

– Yaxşı, razıyam.

Pəri Qahirə dedi:

– Onda arxamca gəl!

Pərilər uçdular. Qahir də onların arxasınca getdi. Onlar çox uçdular. Dərə, təpə, dağ keçdilər. İnsan ayağı dəyməyən yerləri arxada qoydular, axırda gəlib cənnət kimi bir bağa qondular. Qahir öz-özünə dedi:

– Deyəsən, arzuma çatmışam. Bura elə ölməzlər diyarıdır ki, var.

Bura doğrudan da gözəl bağ idi. Yemə-içmə səhərdən axşamacan buranı gəz. Nə yoruldum deyərsən, nə də doydum. Nə cür gül-çiçək, ətir saçan ağac desən burda var idi. Onları durub bir-bir təsvir etsən, heç bir il də bəs eləməz.

Kiçik pəri ilə Qahir bir neçə gün burada dincəldilər, sonra da toylarını elədilər. Qahir qaldı burada ömür sürməyə. Bu ömür, bu yaşayış insan

həyatına bənzəmirdi. Pərilər yerdə gəzmirdilər, buludların arasında uçurdular. Səma yeməklərindən yeyirdilər. Bütün bunlar Qahirə yuxunu xatırladırdı. Bu möcüzəli həyat Qahiri bezdirmişdi. Qahir min il idi ki,belə həyat sürürdü. Ancaq bir gün kəndləri, anası yadına düş-ü. Gəlib pəriyə dedi:

— Anam yadıma düşüb, kəndimizə qayıtmaq istəyirəm.

Pəri dedi:

— Dəli olubsan-nədir? Min ildir ki, anan ölüb. Sən onu gedib hardan tapacaqsan? Ağlını başına yığ, otur yerində.

Qahir dedi:

— Elə şey yoxdu, gedəcəyəm!

Pəri xəbər aldı:

— Geri dönəçəksənmi?

Qahir fikirləşdi ki, desə dönməyəcəyəm pəri onu buraxmayacaq, odur ki, dedi:

— Niyə qayıtmıram, qayıdacağam.

Pəri dedi:

— Onda mən sənə üç qırmızı alma verəcəyəm. Onlar elə almalardır ki, adama əbədi həyat bəxş edir. Elə ki gördün qocalırsan bu almalardan yeyərsən. Onda heç vədə qocalmazsan, həmişə cavan qalarsan. Ancaq bu almanı özündən başqa heç kimə vermə, versən tərsinə olacaq.

Qahir almaları alıb gəldiyi yolla da yurduna döndü. Çox oturdu, az getdi, az getdi, çox oturdu deyəmmərəm, ancaq axırda gəlib çıxdı vaxtilə üç göyərçinin qonduğu həmin hovuzun yerinə. Nə görsə yaxşıdı? Gördü ki, burada hər şey dəyişib hər şey başqalaşıb.

Qahir burada çox əylənmədi. Öz yoluna davam etdi. Bu dəfə gəlib o yerə çıxdı ki, vaxtı ilə bir qoca qaşıqla dəryanın suyunu götürüb bu tərəfdən o tərəfə boşaldırdı ki, qurutsun. Baxıb gördü nə o qoca var, nə də o dərya. Dərya olan yer başdan-başa çöldü, təpədi, dağdı.

Qahir burada da ləngimədi. Bir xeyli yol gedəndən sonra gəlib çıxdı öz yurduna. Gördü ki, dağlar həmən dağlardı. Ancaq anadan olduğu kənddən əsər-əlamət yoxdur. Yerində ucu-bucağı görünmüyən böyük şəhər qurulub.

Qahir gəlib-gedəndən evlərini, anasını xəbər aldı. Nə tanıyan oldu, nə də onlardan bir xəbər verən. Qahir əldən düşdü. Axırda bir ağacın kölgəsinə çəkilib dincəlmək istədi. Bu vaxt gördü ki, başqa qiyafədə üç adam ona tərəf gəlir. Düşündü ki, yəqin bunlar oxumuş adamlardı, kəndlərindən, padşahlarından, anasından bəlkə bir xəbər bildilər. Odur ki, yaxınlaşanda Qahir bu dediklərimizi həmin adamlardan xəbər aldı. Onlar dedilər:

— Bəs sən deyən kəndi, məhləni, adamları, padşahınızı biz tanımırıq. Ancaq belə yer, belə padşah vaxtı ilə olubdu. Onlar da min il bundan qabaq ölüb gediblər. Daha biz başqasını tanımırıq.

Qahir bu vaxt fikrə getdi. Sonra heyrətlə ucadan dedi:

— Gör a, nə çox ömür sürmüşəm?

Qahirin dediyinə bu adamlar inanmadılar. Odur ki, ondan bir də xəbər aldılar:

— Doğrudanmı sən min ildir ki, yaşayırsan? İnanmırıq, belə şey ola bilməz!?

Qahir dedi:

— Bəli, min ildir ki, yaşayıram!

Kişilər gördülər ki, bu qəribə adam dəli-zad deyil, gedib dərhal hökmdarlarına xəbər verdilər. Hökmdar adam göndərib Qahiri gətizdirdi hüzuruna. Ondan xəbər aldı:

— Ey adam, sənin haqqında qəribə söz eşitmişəm. Doğrudurmu ki, sən min ildir Yer üzündə yaşayırsan? Bura qohum-əqrəbalarından xəbər tutmağa gəlmisən?

Qahir dedi:

— Elədir, hökmdar, nə eşitmisən doğrudur. Ancaq bir şeyi başa düşəmmirəm. Mən belə çox ömür sürmüşəm, yoxsa, tanıdıqlarım tez ölüblər?

Hökmdar dedi:

— Heç kim sən deyən qədər yaşayammaz. Ancaq düzünü de görüm, necə eləmisən ki, min il yaşaya bilmisən? Yəqin burada bir sirr var. Axı heç bir canlı bu yaşı yaşıyammamışdı.

Qahir başına gələnləri başdan-axıracan hökmdara söylədi. Macəra hökmdarın xoşuna gəldi. Axırda o dedi:

— Sən heç yana getmə. Qal mənim məmləkətimdə.

Təklifi Qahir qəbul etdi, qaldı hökmdarın yanında.

Bir dəfə hökmdar vəzirindən xəbər aldı:

— Necə bilirsən, vəzir, qızım Güldan xatunu qonağımız Qahirə ərə versəm, necə olar?

Vəzir dedi:

— Qibleyi-aləm sağ olsun, yaxşı olar. Bir də ondan çox yaşıyanı hardan tapaçaqsan.

Hökmdar dedi:

— Doğru buyurursan, vəzir. Belə adamı bir də hardan tapacağam.

Hökmdar qırx gün qırx gecə toy edib qızı Güldan xatunu verdi Qahirə.

Bir gün Güldan xatun Qahirə dedi:

— Qahir, gəl atamı evimizə qonaq çağıraq. Gəlib görsün necə yaşayırıq.

Qahir dedi:

— Çox yaxşı, gəl çağıraq.

Qahirlə Güldan xatun hökmdarı evlərnnə qonaq çağırdı. Hökmdar öz adamları ilə ertəsi gün qızıgilə qonaq gəldi. Onlar yedilər, içdilər, danışdılar, güldülər. Axırda hökmdar dedi:

— Ay Qahir, indi də ölməzlər ölkəsinə etdiyin səfərdən danış. Sənin bu səfərin mənim çox xoşuma gəlib. Qoy qonaqlar da eşitsinlər.

Qahir başına gələnləri yenə danışdı. Səfər hökmdara ləzzət verdi. Ehtiram əlaməti olaraq Qahir pərinin ona verdiyi almalardan birini hökmdara bağışladı.

Hökmdar almanı əlinə alan kimi birdən-birə min il qocaldı. Ağ saqqalı uzanıb dizinə düşdü. Qahir almanın təsirinə məəttəl qaldı. Hökmdarın bu vəziyyətə düşdüyünü görən Qahir tək qalmasın deyə almanın o birisini də qaynanasına verdi. Qaynanası da hökmdar kimi min il qocaldı. Beli büküldü, yerindən tərpənə bilmədi. Belə olanda Qahir üçüncü almanı da Güldan xatuna verdi ki, ata-anasından ayrı düşməsin. Güldan xatun da həmin saat dönüb oldu qarı. Qahir öz-özünə dedi:

– Görünür, bunlar pərinin işləridi. İstəyir ki, mən burada qalmayım.

Ancaq gec idi. Əbədi yaşamaqdan ötrü Qahir gərək pərinin verdiyi almalardan özü də yeyərdi. Alma da ki qurtarmışdı.

İllər ötdü, adi insanlar kimi Qahir də qocaldı. Əldən-ayaqdan düşdü. Günlərin bir günü dünyadan köçüb getdi. Çalışıb vuruşmağına baxmayaraq əbədi yaşamaq ona da nəsib olmadı.

# KİTABIN İÇİNDƏKİLƏR

İpək ....................................................3
Atəş şah ..............................................6
Sehrli kol ............................................9
Cumbulu, Uzunboy, Şişman, İtigöz ......12
Çil-çil beçə ........................................16
Qəribə bulaq ......................................18
Mahir baba .........................................20
Ağıllı tutu quşu ...................................24
Cumbulu ............................................27
Bilici baba ..........................................28
Yaxşılıq .............................................31
Comərd baba Ərköyünü Şərəntərin
torundan necə xilas elədi ..................34
İmranın nağılı ....................................40
Kəndli və tülkü ...................................45
Dövlətli ilə kasıb ...............................48
Qorxaq Əhməd ……………………….50
Feyruz ……………………………….54
heyvanların il üstə Yarışı ……………..61
Yarış ..................................................65
Falabaxan ...........................................69
Qarı nənənin buzovu ...........................73
İydəcik ...............................................76
Xəbər gətirən sağsağan ........................79
Ömrün sirri ........................................84